RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 48 (10068) 14 mart 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan həqiqətlərini dünyaya çatdıran platforma



Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılışındakı çıxışında müasir dünyanın acı reallıqlarına toxunaraq qeyd etdi: "Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində birnömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır".

Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu onu müxtəlif sivilizasiyaların və siyasi qütblərin kəsişmə nöqtəsinə çevirib. Ölkəmiz uzun illərdir ki, dialoq tərəfdarı kimi çıxış edir və qlobal qərarların qəbulunda fəal iştirak edir. Bakı Forumu isə bu prosesdə xüsusi rola malikdir.

Forumun əhəmiyyəti ondadır ki, Azərbaycan bu platformadan öz haqlı səsini dünyaya duyurmaq üçün istifadə edir. Torpaqlarımızın işğal altında olduğu illərdə Bakı Forumu beynəlxalq hüququn ikili standartlarını ifşa edən bir tribunaya çevrilmişdi. Ölkəmiz hər zaman dünya ictimaiyyətinə xatırladırdı ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması təkcə Azərbaycanın problemi deyil, bütövlükdə dünya nizamının böhranıdır.

XIII forumda Prezident İlham Əliyev həmin acı təcrübəni bu fikirləri ilə xarakterizə etdi: "Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur".

Bu gün isə mənzərə tamamilə fərqlidir. Azərbaycan 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri ilə ədaləti bərpa edib. İndi Bakı Forumu işğaldan deyil, yeni reallıqlardan və bərpa prosesindən danışılan qələbə platformasıdır.

Prezident İlham Əliyevin sözügedən toplantıda qeyd etdiyi kimi, sülhə nail olmaq üçün bəzən güc tətbiqi qaçılmaz olur:

"Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

7

## Bakı və Brüssel yeni strateji tərəfdaşlıq mərhələsinə keçid edib



Ötən il ərzində Azərbaycan və Aİ rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizlik, enerji və nəqliyyat sahələrində uğurla təşkil edilmiş dialoqlar da Aİ ilə münasibətlərin inkişafına öz töhfəsini verdi. Müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaratdı. İntensiv səfərlər tərəflər arasındakı soyuqluğu tədricən aradan qaldırdı və ortaq məxrəcləri önə çıxardı.

Prosesin mahiyyəti ondan ibarətdir ki, tərəflər regional logistika və geosiyasi sabitlik sahəsində bir-birinə ehtiyacı olan strateji müttəfiqlər kimi çıxış edirlər. Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa Şurasının prezidenti Antonio Koştanın 2026-cı il 11 mart tarixli birgə mətbuat bəyanatında Azərbaycan-Aİ əməkdaşlığının hər iki tərəfin ortaq maraqlarını əks etdirdiyi bir daha vurğulandı. Prezident İlham Əliyev ali qonağın səfərinə böyük önəm verdiyini dedi: "Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oynayacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər ediblər". Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın bəyanatlarında da aydın oldu ki, Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşıdır. Aİ rəsmisi ötən bir il ərzində münasibətlərin yenidən canlandırıldığına diqqət çəkdi.

6

## Praqmatik qərar, qətiyyətli mövqe, qarşılıqlı maraq



Prezident İlham Əliyevin apardığı xarici siyasət mükəmməlliyi ilə seçilir. Yalnız bu hesaba indiki qarşılıqlar içində dövlətimizin milli maraqlarını qətiyyətlə qoruya bilirik. Təsadüfi deyil ki, ölkəmizin bu gün apardığı çoxvektorlu xarici siyasət bizə bütün siyasi platformalarda iştirak etməyə imkan verir.

9

## Zəngəzur dəhlizinin açılması Orta dəhliz üzərindən əlavə 15 milyon ton yükün daşınmasına imkan verəcək

Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Bakıda birgə mətbuat üçün imzaladıqları bəyanatın 8-ci bəndində bəyan etdikləri mövqe təsadüfi deyil: "Prezidentlər Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu vurğulayıblar. Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-ın icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib. Onlar "Qlobal Qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılmasını alqışlayıblar".



8

## AÇG tükənməyib

### Bu yataqlar bloku indi isə dərin laylarından təbii qaz vəd edir

AÇG-nin mövcud Hasilatın Pay Bölgüsü Sazişinə STQ ilə bağlı yeni əlavənin imzalanmasından sonra ilkin hasilat quyusu planlaşdırılmış və quyu "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılmışdır. Bu quyu qiymətləndirmə baxımından da çox əhəmiyyətlidir, çünki quyudan əldə edilən məlumatlar AÇG-dəki STQ ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək.

Keçən il quyuda qazma işləri uğurla tamamlanmış və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layına - daha dayaz "Qırmakıüstü Qumlu" və daha dərin "Qırmakıaltı" lay dəstlərinə çıxış təmin edilmişdir.

Quyu ilk STQ hasilatı üçün əsas hədəf lay sayılan "Qırmakıüstü Qumlu" lay dəstində mavi yanacaq ehtiyatlarının mövcudluğunu təsdiqləmişdir. Bu laydan hasilat cari ilin təxminən yayında planlaşdırılır.



7

## Timor-Leste Prezidentinin Azərbaycana səfəri başa çatıb



Timor-Leste Demokratik Respublikasının Prezidenti Jose Ramos-Hortanın Azərbaycana səfəri martın 13-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Timor-Leste Prezidentini Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 334-VIIQD və 335-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 43.1-ci maddəyə "212.4-1," rəqəmlərindən sonra "212-1.2," rəqəmləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 212-1-ci maddə əlavə edilsin:

**"Maddə 212-1. Elektron siqaretlərin istifadəsi, idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılması**

212-1.1. Bu Məcəllənin 299, 305, 306.4, 318 və 322.0.4-cü maddələri nəzərə alınmaqla, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan edilmiş yerlərdə, küçələrdə və digər ictimai yerlərdə elektron siqaretlərin istifadəsinə görə-

otuz manat məbləğində cərimə edilir.

212-1.2. Elektron siqaretlərin və ya onların komponentlərinin idxalı, ixracı, istehsalı, topdan və ya pərakəndə satışı və ya satış məqsədilə saxlanılmasına görə -

inzibati xətanın bilavasitə obyekti olmuş mallar müsadirə edilməklə, fiziki şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min altı yüz əlli manatdan iki min iki yüz manatadək məbləğdə, hüquqi şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Bu Qanun 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 mart 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 212-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 374-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 588 nömrəli, 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.1-ci bəndə "212.4," rəqəmlərindən sonra "212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda, eləcə də taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 5.7-2-ci bənd əlavə edilsin:

"5.7-2. həmin Məcəllənin 212-1.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində elektron siqaretlərin istifadəsinə münasibətdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;";

2.3. 5.26-1-ci bəndə "Məcəllənin" sözündən sonra "212-1.1 (hava nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

2.4. 5.27-ci bəndə "Məcəllənin" sözündən sonra "212-1.1 (dəmir yolu nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

2.5. 5.28-ci bəndə "Məcəllənin" sözündən sonra "212-1.1 (dəniz və çay nəqliyyatında elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 yanvar tarixli 593 nömrəli və 11 fevral tarixli 598 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "212.4," rəqəmlərindən sonra "212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda, eləcə də taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

3.2. 2.2-ci və 2.4-cü bəndlərə "211," rəqəmlərindən sonra "212-1.1 (taksi minik avtomobillərində elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

3.3. 2.5-ci bəndə "212.4," rəqəmlərindən sonra "212-1.1 (həmçinin metropolitendə stansiyaların vestibüllərində, keçidlərində və platformalarında, vaqonlarda elektron siqaretlərin istifadəsinə münasibətdə)," sözləri əlavə edilsin;

3.4. 2.9-cu bəndə "212.4," rəqəmlərindən sonra "212-1.1," rəqəmləri əlavə edilsin.

4. Bu Fərmanın 2-ci və 3-cü hissələri 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2026-cı il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744,№ 11, maddə 1004; Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 312-VIIQD nömrəli Qanunu) 157.9-cu maddəsinə ikinci halda "tikilməsi" sözündən sonra ", dəniz limanının ərazisinin artırılması, dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və (və ya) aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və (və ya) aerodromların inşası" sözləri əlavə edilsin.

**Maddə 2.** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 376 (Cild I); 2025, № 4 (I kitab), maddə 315) 3.1.5-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.1.6-cı maddə əlavə edilsin:

"3.1.6. dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və (və ya) aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və (və ya) aerodromların inşası.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 fevral 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"də və 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 175-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 1956 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1466 (Cild I); 2024, № 8, maddə 937; 2025, № 11, maddə 1024, № 12 (I kitab), maddə 1154) ilə təsdiq edilmiş "AYNA" informasiya sistemi haqqında Əsasnamə"nin 5.2.3-cü yarımbəndinə "payları" sözündən sonra ", habelə benefisiar mülkiyyətçiləri" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 757; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 9 yanvar tarixli 575 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"nin 4.1.3-cü və 4.3.10-cu yarımbəndlərinə "payları" sözündən sonra ", habelə benefisiar mülkiyyətçiləri" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2026-cı il*

# Baş nazir Əli Əsədov Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov martın 13-də Türkiyə Respublikasının ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı 13-cü Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, tədbir çərçivəsində COP-a və iqlim gündəliyinə həsr olunmuş panel müzakirələrinin təşkil edilməsi təqdir edilib.

Azərbaycan ilə Türkiyə arasında ətraf mühitin mühafizəsi, tullantıların idarə edilməsi, iqlim dəyişiklikləri ilə mübarizə sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub.

Eyni zamanda Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 2026-cı ildə Bakı şəhərində keçiriləcək 13-cü Sessiyasının (WUF13) önəmi qeyd edilib.

# "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 365 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 77** **Bakı şəhəri, 11 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 150-VIIQD nömrəli Qanunun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 aprel tarixli 365 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 noyabr tarixli 492 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2156 (Cild I); 2024, № 5 (II kitab), maddə 582) ilə təsdiq edilmiş "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.15-ci bənd ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 4.9-1-ci bənd əlavə edilsin:

"4.9-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçi attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 16 noyabr tarixli 493 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2157 (Cild I) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarının vəzifəli şəxslərinin attestasiyası Qaydası"nın 2.7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2.7. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş vəzifəli şəxs attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 553 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2501 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın 3.15-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.15. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş əməkdaş attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.".

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 20 iyun tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1369 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə hallar orqanları əməkdaşlarının attestasiyası Qaydası"nın 2.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"2.3. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş əməkdaş attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.".

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (II kitab), maddə 1234) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası"nın 2.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"2.3. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş əməkdaş attestasiyadan keçirildikdə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11-1.3-cü maddəsinin tələblərinə əsasən səlahiyyətli struktur bölmə (şəxs) attestasiyada birbaşa və ya dolayı yolla iştirak etməməlidir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 79** **Bakı şəhəri, 13 mart 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 sentyabr tarixli 357 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1091 (Cild I); 2025, № 2, maddə 209) ilə təsdiq edilmiş "Təyinatı üzrə istifadə edilən və ya təyinatı üzrə istifadəsi mümkün olmayan kənd təsərrüfatı təyinatlı torpaqların müəyyən edilməsi meyarları və Qaydası"nın 2.2.5-ci yarımbəndindən "habelə" sözü çıxarılsın və həmin yarımbənddə "digər ərazilərin (minalardan təmizləmə yekunlaşanadək)" sözləri "ərazilərin və digər təhlükəli ərazilərin (minatəmizləmə fəaliyyəti yekunlaşanadək)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 noyabr tarixli 421 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1357 (Cild I); 2025, № 3, maddə 271) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsinin, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsinin və dəyişdirilməsinin sadələşdirilmiş Qaydası"nın 2.5-ci bəndində ", hərbi sursat və" sözləri "və digər partlayıcı sursatlar," sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Milli Məclisin iclasında

# Nazirlər Kabinetinin hesabatı dinlənilib




**Martın 13-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova Baş nazir Əli Əsədovu və hökumət üzvlərini salamlayaraq bildirib ki, iclasda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı dinləniləcək.

Spiker diqqətə çatdırıb ki, milli tariximizə "Konstitusiya və Suverenlik İli" kimi daxil olan 2025-ci il Azərbaycan dövlətinin siyasi və hüquqi yetkinliyinin rəmzinə çevrilib, eyni zamanda ölkəmizin ardıcıl və dinamik inkişafında yeni mərhələ təşkil edib. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin uzaqgörən siyasəti həm ölkə daxilində, həm də beynəlxalq arenada çoxsaylı böyük uğurların əldə olunmasına şərait yaradıb.

Milli Məclisin Sədri bildirib ki, keçən il 44 günlük Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümünü qürurla qeyd etdik. Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanmış sülh prosesinin institusional əsaslarını möhkəmləndirən, Cənubi Qafqazda yaranmış yeni reallıqları təsbit edən Vaşinqton razılaşmaları dövlətimizin növbəti diplomatik uğuru oldu.

Həyata keçirilən müstəqil və düşünülmüş xarici siyasət Azərbaycanı beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirib. Dövlətimiz regional və qlobal məsələlərin həllində fəal iştirak etmiş, enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat dəhlizlərinin inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr vermişdir.

Azərbaycanın 8 böyük müsəlman ölkəsini birləşdirən D-8 beynəlxalq təşkilatına qəbul edilməsi, Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü olması böyük tarixi nailiyyətlərdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilən Zirvə Görüşü dövlətimizin siyasi və iqtisadi gücünü bir daha nümayiş etdirdi. Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən Zirvə Görüşü isə türk dünyasının inteqrasiyası yolunda mühüm addım oldu.

Spiker vurğulayıb ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ötən il ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində böyük uğurlar əldə edilib. Həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, irimiqyaslı infrastruktur layihələri həyata keçirilib. Sənaye və energetika sektorlarında modernləşdirmə davam etdirilib, iqtisadiyyatın qeyri-neft-qaz sahələri daha da genişləndirilib. Nəqliyyat, kənd təsərrüfatı, rəqəmsal transformasiya, turizm və innovasiyalar sahəsində önəmli tədbirlər görülüb.

Milli Məclisin Sədri qeyd edib ki, son illərdə Azərbaycan regional inkişaf sahəsində ciddi uğurlar qazanıb. Azad edilmiş ərazilərin bərpası və inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib.

Spiker bildirib ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası reallaşdırılır, yeni iqtisadi və sosial mərkəzlər yaradılır. "Böyük qayıdış" dövlət proqramı mərhələ-mərhələ həyata keçirilir.

2025-ci ildə sosial siyasətə xüsusi diqqət yetirilib. Əhalinin rifahının yüksəldilməsi ilə bağlı proqramlar icra olunub, sosial müdafiə tədbirləri genişləndirilib, səhiyyə və təhsil sistemlərində təkmilləşdirmə işləri aparılıb.

Spiker nəzərə çatdırıb ki, ötən il ümumi daxili məhsulun artımı davam edib, ölkənin strateji valyuta ehtiyatları 20 faizə yaxın artaraq 85 milyard ABŞ dollarını ötüb. Bu da məmnunluqla qeyd edilməlidir ki, iqtisadi artım qeyri-neft-qaz sektorunda daha yüksək olub, iqtisadiyyata yönələn investisiyaların təqribən 75 faizi də bu sahənin payına düşür.

2025-ci ildə biznes və investisiya mühitinin yaxşılaşdırılması, institusional islahatların aparılması, korrupsiyaya qarşı mübarizə istiqamətində zəruri tədbirlər davam etdirilib.

Ötən ilin dövlət büdcəsinin icrasında da müsbət nəticələr əldə edilib. Spiker 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsinin müzakirəsi zamanı bu məsələlərin ətraflı müzakirə ediləcəyini bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi iqtisadi kursun həyata keçirilməsində Nazirlər Kabineti mühüm rol oynayır. Hökumətin səmərəli fəaliyyəti ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı vəzifələrin uğurla yerinə yetirilməsini təmin edir.

Spiker qeyd edib ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına şərait yaradır, iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakını təmin edir.

O bildirib ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təklif və tövsiyələr, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılıb. Bu təklif və tövsiyələrin icra vəziyyətinə dair ətraflı məlumat bizə təqdim edilib.

Eyni zamanda artıq 6 ildir ki, hesabata ayrıca olaraq, sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə Milli Məclis deputatlarının təkliflərinin icrasına dair məlumat da daxil edilir.

Milli Məclisin Sədri çıxışının sonunda deputatların aparılacaq müzakirədə fəal iştirak edəcəyinə və səmərəli təkliflər irəli sürəcəyinə inamını ifadə edib.

Sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatını təqdim edib.

*(Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı qəzetin bugünkü nömrəsində dərc edilib).*

Sonra plenar iclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr aparılıb. Müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Vüqar Bayramov, Asif Əsgərov, Sahib Alıyev, Vasif Qafarov, Kamal Cəfərov, Azər Badamov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, İlham Məmmədov, Zaur Şükürov və Rövşən Muradov çıxış ediblər.

Bildirilib ki, Nazirlər Kabinetinin 2025-ci il üzrə hesabatı dövlət başçısının müəyyənləşdirdiyi strategiyanı özündə ehtiva etməklə, hökumətin qarşısına qoyulan vəzifə və tapşırıqların uğurla yerinə yetirildiyini göstərir. Vurğulanıb ki, Prezidentin rəhbərliyi ilə həyatın bütün sahələrində aparılan uğurlu siyasət 2025-ci ildə də ölkəmizin hərtərəfli tərəqqisinə və güclənməsinə, sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunmasına, makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, dövlətimizin regional mövqeyinin möhkəmlənməsinə və beynəlxalq aləmdə artan rolunun daha da yüksəlməsinə xidmət edib.

Qeyd olunub ki, hesabatda öz əksini tapan yüksək göstəricilər və şaxələndirilmiş inkişaf dinamikası ölkə rəhbərinin müəyyən etdiyi Yol xəritəsinin hökumət tərəfindən yüksək səviyyədə icra olunmasının bariz nümunəsidir. 2025-ci il ölkəmizdə qeyri-neft sektorunun inkişafı, maliyyə sabitliyinin təmin edilməsi, əhalinin rifah halının yüksəldilməsi məqsədilə sosial layihələrin həyata keçirilməsi, işğaldan azad olunmuş ərazilərimizdə "Böyük qayıdış" proqramı çərçivəsində bərpa və quruculuq işlərinin həyata keçirilməsi, strateji valyuta ehtiyatlarının artırılması, xarici ticarət dövriyyəsinin böyüməsi baxımından uğurlu olub.

Diqqətə çatdırılıb ki, dövlət başçımızın rəhbərliyi altında ölkəmizin və vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsi sahəsində səmərəli fəaliyyət uğurla həyata keçirilir. 2025-ci ildə hökumətin apardığı siyasət nəticəsində vətəndaşların rifah halının yüksəldilməsi, o cümlədən əməkhaqları, pensiya və müavinətlərin artımı istiqamətində əhəmiyyətli işlər görülüb.

Hökumətin hesabatında səhiyyə sahəsində də əldə edilən uğurlar öz əksini tapıb. Əhalinin sağlamlığının daha etibarlı və keyfiyyətli qorunması istiqamətində yeni meyarlar hazırlanıb, bir sıra proqramlar icra olunub, icbari tibbi sığorta sisteminin tətbiqi müvəffəqiyyətlə davam etdirilib.

Bununla yanaşı, ötən il ölkədə müdafiə sahəsində görülmüş işlər, o cümlədən hərbi qulluqçuların sosial təminatının yüksəldilməsi istiqamətində atılan addımlar təqdirəlayiq hesab edilib. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, icra olunan infrastruktur layihələri dövlətimizin iqtisadi qüdrətinin əyani sübutudur.

Deputatlar 2025-ci ilin həm də Azərbaycanın beynəlxalq siyasətdə əldə etdiyi nailiyyətlərlə yadda qaldığını söyləyiblər. Həyata keçirilən uğurlu xarici siyasət nəticəsində ötən ilin 8 avqust tarixində ABŞ Prezidentinin, Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin iştirakı ilə keçirilmiş Vaşinqton Sammitinin Cənubi Qafqaz regionu üçün önəmindən bəhs ediblər. Bildirilib ki, Azərbaycan və Ermənistan arasında Sülh sazişinin mətninin paraflanması münaqişənin həlli istiqamətində mühüm addım hesab olunur, bununla yanaşı, ABŞ ilə strateji əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Ötən il ölkəmiz həm də beynəlxalq səviyyəli siyasi və iqtisadi platformalarda mövqeyini daha da gücləndirərək önəmli uğurlara imza atıb. Belə ki, Azərbaycanın səkkiz ölkənin təmsil olunduğu İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) tamhüquqlu üzv olması, habelə C5+ formatına qoşulması regional əməkdaşlığın inkişafına xidmət edir.

Çıxışlarda həmçinin qeyd olunub ki, rəqəmsal inkişaf və sosial innovasiyalar dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə həm dövlət xidmətləri, həm də elektron xidmətlər sahəsində ciddi nailiyyətlər əldə olunub. Bizim süni intellekt və texnologiya nəhəngləri ilə işləmək üçün kifayət qədər böyük institusional bazamız mövcuddur.

Qısa fasilədən sonra Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabata dair müzakirələr davam etdirilib.

Müzakirələrdə parlamentin komitə sədrləri Musa Quliyev, Tahir Rzayev, Sadiq Qurbanov, deputatlar Elman Nəsirov, Fariz İsmayılzadə, Səbinə Xasayeva, Azay Quliyev, Elçin Mirzəbəyli, Nurlan Həsənov, Səyyad Aran, Ceyhun Məmmədov, Vüqar İskəndərov, Rəşad Mahmudov, Qüdrət Həsənquliyev çıxış ediblər.

Deputatlar 2025-ci ildə hökumətin gördüyü işlər barədə hesabatın əhatəli hazırlandığını, ötən ilin ölkənin siyasi, iqtisadi və sosial sahələrində əhəmiyyətli irəliləyişlərlə yadda qaldığını söyləyiblər. Qeyd olunub ki, Prezidentin milli maraqların qorunması baxımından həyata keçirdiyi siyasət sayəsində və hökumətin səmərəli fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasına, firavanlığa, inkişafa nail olunub. Bu dövrdə iqtisadi sabitliyin qorunması, investisiya mühitinin təkmilləşdirilməsi sahəsində aparılan islahatlar, sosial rifahın artırılması istiqamətində görülən işlər ötən ilin strateji hədəflərinə nail olmaq potensialını gücləndirib.

Bildirilib ki, ötən il hökumətin fəaliyyəti bir çox istiqamətlər üzrə, xüsusilə regionumuzda təhlükəsizliyin təmin olunması, Ermənistanla sülh prosesinin davam etdirilməsi, Cənubi Qafqazda sülhün davamlılığının bütün dünyada qəbul edilməsi, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, beynəlxalq əməkdaşlığın inkişafı sahəsində uğurlu nəticələr verib.

Qeyd olunub ki, hesabat ilində ölkənin enerji təminatının dayanıqlığının və təhlükəsizliyinin gücləndirilməsi üçün infrastruktur modernləşdirilib, qabaqcıl texnologiyalar tətbiq edilib. "Yaşıl enerji" layihələrinin ölkənin əsas hədəfləri sırasında olduğu, bu sahədə görülən işlərin ətraf mühitin qorunmasına və davamlı enerji resurslarına keçidin sürətləndirilməsinə xidmət etdiyi söylənilib. Bildirilib ki, qaz ixracının genişləndirilməsi, enerji infrastrukturunun modernləşdirilməsi, bərpaolunan enerji layihələrinin inkişafı Azərbaycanın enerji təhlükəsizliyində rolunu daha da gücləndirib. Vurğulanıb ki, ölkəmiz öz enerji təhlükəsizliyini tam təmin etməklə yanaşı, eyni zamanda Avropa və bir çox region ölkələri üçün etibarlı enerji tərəfdaşına çevrilib.

Çıxışlarda habelə 2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açılıb, 5-ci sosial islahat paketinin qəbul edildiyi bildirilib. Ölkədəki demoqrafik vəziyyətlə bağlı fikirlər səsləndirilib. Təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində əldə edilən nailiyyətlərdən bəhs edilib. Ötən il kənd təsərrüfatının inkişafı sahəsində görülmüş işlər, bu sahədə fəaliyyət göstərən sahibkarlara olan dəstək təqdirəlayiq hesab edilib.

Millət vəkilləri eyni zamanda ötən il seçicilərin üzləşdiyi problemlərin həlli istiqamətində görülmüş işlərdən danışıblar, həmçinin vətəndaşları narahat edən bəzi məsələləri hökumət üzvlərinin nəzərinə çatdırıblar, bir sıra təkliflərini səsləndiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova müzakirələrin səmərəli keçdiyini bildirib. O, qaldırılan bəzi məsələlərə münasibət bildirmək üçün Baş nazir Əli Əsədova söz verib.

Əli Əsədov səmərəli müzakirələrə və deputatların çıxışlarında hökumətin ötən il gördüyü işləri yüksək qiymətləndirdiklərinə görə təşəkkürünü ifadə edib. O, ötən il ümumilikdə deputatlar tərəfindən hökumətə daxil olmuş müraciətlərdə qaldırılan məsələlərlə bağlı görülən işlər barədə danışıb. Bildirilib ki, qaldırılan məsələlərin çoxu həll olunub, digər məsələlərin icrası istiqamətində işlər davam etdirilməkdədir.

O, Milli Məclis və hökumət arasında formalaşmış səmərəli əməkdaşlığı və qurulmuş işgüzar münasibətləri yüksək qiymətləndirdiklərini bildirib. Baş nazir müzakirələrdə deputatların seçicilərinin müraciətləri əsasında hökumət qarşısında qaldırdıqları məsələlərin diqqətdə saxlanılacağını, onların həlli istiqamətində lazımi addımların atılacağını bildirib.

İclasda Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı səsə qoyularaq nəzərə alınıb.

Parlamentin Sədri Sahibə Qafarova Baş nazirə və hökumət üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Ceyhun Bayramov bu gün Türkiyəyə növbəti raket hücumunu qınayıb

**Martın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı regionda mövcud təhlükəsizlik vəziyyəti və artan gərginlik müzakirə edilib.

Nazir Ceyhun Bayramov bu gün Türkiyə Respublikasının ərazisinə növbəti raket hücumunu qınayıb, qardaş Türkiyəyə dəstəyini ifadə edib. Hərbi eskalasiyanın daha da genişlənməsinin arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyi vurğulanıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## BMT-də gender bərabərliyinin təşviqi istiqamətində Azərbaycanda həyata keçirilən tədbirlərdən danışılıb



**BMT-nin Qadınların Statusu üzrə Komissiyasının 70-ci sessiyası çərçivəsində Qambiya Respublikası və Türkiyə Respublikasının BMT yanında Daimi Nümayəndəliklərinin təşkilatçılığı ilə "Rəqəmsal texnologiyaların qadın hüquqlarına təsiri" mövzusunda yan tədbir keçirilib.**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, müzakirələr zamanı gender bərabərliyinin təşviqi, qadınların cəmiyyətin bütün sahələrində iştirakının genişləndirilməsi və rəqəmsal texnologiyaların bu prosesə təsiri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə çıxış edən komitənin sədri Bahar Muradova qadın hüquqlarının qorunmasının və gender bərabərliyinin təşviqinin beynəlxalq gündəliyin əsas prioritetlərindən biri olduğunu vurğulayıb. O, qadınların və qızların imkanlarını məhdudlaşdıran sosial və mədəni maneələrin aradan qaldırılmasının əhəmiyyətindən danışıb, erkən və yaxın qohumlar arasında evliliyin qızların təhsilə çıxışına maneə törətdiyini, onların sosial və iqtisadi potensialına mənfi təsir göstərdiyini bildirib.

O, Azərbaycanda qadınlara qarşı zorakılığın qarşısının alınması, gender bərabərliyinin təşviqi və qadınların ictimai-siyasi həyatda iştirakının genişləndirilməsi istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Bu sahədə yeni milli tədbirlər planının hazırlandığını və növbəti üç ili əhatə edən Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının qəbul edildiyini bildirib. Əlavə edib ki, erkən və yaxın qohumlar arasında evliliyin qarşısının alınması məqsədilə qanunvericilik təkmilləşdirilir, qızların təhsil imkanlarının genişləndirilməsinə yönəlmiş layihələr həyata keçirilir.

B.Muradova Prezident İlham Əliyevin qərarı ilə yaradılmış Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının fəaliyyətinə də toxunaraq qeyd edib ki, ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi bu qurum innovasiya, rəqəmsal texnologiyalar və süni intellekt sahəsində strateji yanaşmanın formalaşdırılmasına, eləcə də rəqəmsal imkanlardan hamının, o cümlədən qadınların daha geniş faydalanmasının təmin olunmasına xidmət edir.

Dövlət komitəsinin sədri çıxışında rəqəmsal transformasiyanın qadınların imkanlarının genişlənməsində mühüm rolundan da bəhs edib. Bununla yanaşı, onlayn zorakılıq, kiber təqib və şəxsi məlumatların sui-istifadəsi kimi yeni çağırışların mövcudluğuna diqqət çəkərək, rəqəmsal mühitdə təhlükəsizliyin təmin olunmasının və rəqəmsal savadlılığın artırılmasının vacibliyini vurğulayıb.

## Ekoloji məsələlər üzrə İşçi qrupun üzvləri Zəngilanda - infrastruktur layihələri və ekoloji tələblər diqqət mərkəzində saxlanılıb

**Martın 13-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi qrupunun növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdərə, Xocalı, Laçın, Kəlbəcər, Şuşa, Ağdam, Füzuli, Xocavənd rayonlarında və Xankəndi şəhərində Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliklərinin, eləcə də Bərpa, Tikinti və İdarəetmə xidmətlərinin nümayəndələri iştirak ediblər.

İclasda İşçi qrup üzvləri və dəvət olunan digər qurumların nümayəndələri tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri həyata keçirilərkən və yaşıllıqların götürülməsi zamanı ekoloji tələblərin icra vəziyyəti, xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətinin bərpası və yeni yaradılan milli parklar, həmin ərazilərin biomüxtəlifliyi, nadir və nəsli kəsilmək təhlükəsi altında olan bitki və heyvan növləri və digər məsələlər barədə məlumat verilib.

İclasda iştirak edən digər qurumların nümayəndələri tərəfindən infrastruktur layihələri həyata keçirilərkən ekoloji icazələrlə bağlı qaldırılan məsələlər və müvafiq qurumlar arasında kommunikasiyanın gücləndirilməsi, fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı tərəfindən verilmiş tapşırıqların icrası ilə bağlı məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyətinə dair hesabatını təqdim edib



Hörmətli xanım sədr! Hörmətli deputatlar!

Ənənəvi olaraq bu gün Nazirlər Kabineti 2025-ci ildəki fəaliyyətinə dair geniş hesabatla Milli Məclis qarşısında çıxış edir.

Bu cür hesabatlılıq hökumətlə Milli Məclis arasında səmərəli və işgüzar əməkdaşlığın möhkəmlənməsinə, görülmüş işlərin və qarşıda duran vəzifələrin birgə müzakirəsinə əlverişli şərait yaradır.

Eyni zamanda bu proses şəffaflığın və qarşılıqlı məsuliyyət prinsipinin daha da güclənməsinə xidmət edir.

Hörmətli deputatlar!

2025-ci il Azərbaycan üçün siyasi sabitliyin daha da gücləndiyi və iqtisadi inkişafın ardıcıl şəkildə həyata keçirildiyi mühüm mərhələ kimi yadda qaldı. "Konstitusiya və Suverenlik İli" elan edilən 2025-ci il dövlət suverenliyinin möhkəmləndirilməsi, bərpaolunan ərazilərin reinteqrasiyası və milli iqtisadiyyatın yeni inkişaf mərhələsinə keçidi baxımından mühüm siyasi mərhələ kimi qiymətləndirilə bilər.

İl ərzində ölkəmiz qlobal və regional platformalarda təşəbbüskar mövqeyini daha da möhkəmləndirmiş, sülh və əməkdaşlıq gündəliyinin təşviqi istiqamətində fəal səy göstərmişdir. Bu baxımdan 2025-ci il 8 avqust tarixində Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşü bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan vermişdir.

Vaşinqton Sülh Sammitinin ən mühüm nəticələrindən biri də "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) – Zəngəzur dəhlizinin əsasının qoyulması olmuşdur. Bu multimodal marşrut Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin edəcək və eyni zamanda ölkəmiz üzərindən keçən beynəlxalq nəqliyyat və tranzit marşrutlarının şaxələndirilməsinə xidmət edəcəkdir.

2025-ci ildə əldə edilmiş mühüm diplomatik uğurlar sırasında Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bu quruma tamhüquqlu üzv kimi qəbul edilməsi ölkəmizin regionda etibarlı tərəfdaş və sabitlik amili kimi rolunun beynəlxalq səviyyədə tanındığını göstərir.

Hesabat ilində Azərbaycan ümumi əhalisi bir milyarddan artıq, ümumi iqtisadi potensialı isə dörd trilyon ABŞ dollarından çox olan D-8 təşkilatına üzv qəbul olunmuşdur.

Eyni zamanda ötən il ölkəmizdə bir sıra mühüm beynəlxalq tədbirlər keçirilmişdir.

Bu tədbirlər sırasında təbii ki, Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Zirvə Görüşünü və Qəbələdə təşkil olunan Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü xüsusilə qeyd etmək olar.

Ölkəmiz cari ildə də bir sıra mühüm beynəlxalq tədbirlərə evsahibliyi edəcəkdir. Onların sırasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası xüsusi əhəmiyyət kəsb edir. Əminəm ki, bu mötəbər tədbir müasir şəhərsalma yanaşmaları və beynəlxalq təcrübə mübadiləsi baxımından qlobal əhəmiyyətə malik platformaya çevriləcək.

Cənab Prezidentin 2025-ci il 22 dekabr tarixli sərəncamı ilə 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin ardıcıl xarakter daşıdığını əyani şəkildə göstərir.

Hörmətli deputatlar!

Bu gün regionda cərəyan edən mürəkkəb geosiyasi proseslər, artan gərginlik və risklər fonunda cənab Prezidentin ardıcıl və praqmatik xarici siyasət kursu, uzaqgörən strateji baxışı və milli maraqlara əsaslanan prinsipial mövqeyi nəticəsində Azərbaycan Respublikasının suverenliyi və sərhədlərinin toxunulmazlığı etibarlı şəkildə təmin olunmaqdadır.

Məlum olduğu kimi, ötən həftə İran ərazisindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasının ərazisində pilotsuz uçuş aparatlarının istifadəsi ilə bağlı hadisə baş vermişdir. Baş verən bu xoşagəlməz hadisə fonunda Azərbaycan cəmiyyəti və beynəlxalq ictimaiyyət bir daha əmin oldu ki, Prezident İlham Əliyev xalqının təhlükəsizliyini qoruyan və hər zaman öz xalqının arxasında duran güclü liderdir.

Onu da əlavə edim ki, son dövrdə regionda cərəyan edən hadisələr Azərbaycanın quru sərhədlərinin bağlı saxlanılması qərarının nə qədər əsaslı və zəruri olduğunu göstərir, eyni zamanda cənab Prezidentin uzaqgörən və müdrik dövlətçilik siyasətinin növbəti təsdiqidir.

Hörmətli deputatlar!

2025-ci ilin yekunlarına dair yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə cənab Prezident ötən ilin iqtisadi inkişafından razılığını bildirmiş, iqtisadiyyatımızın özünü təmin etdiyini və güclü dayanıqlılıq nümayiş etdirdiyini bildirmişdir.

Hesabat ilində ölkədə:

- ÜDM-in real həcmi əvvəlki illə müqayisədə 1,4 faiz artaraq 129,1 mlrd. manat olmuşdur.
- Qeyri-neft sektoru isə real ifadədə 2,7 faiz artaraq 92,3 mlrd. manata çatmışdır. İqtisadiyyatda ümumi əlavə dəyərin 72 faizi məhz qeyri-neft sektorunda yaranmışdır. Qeyri-neft-qaz sənayesində 5,5 faiz artım olmuşdur. Neft-qaz sektorunda 1,6 faiz azalma olmuşdur.
- Neft hasilatının azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olmuşdur.
- Xarici ticarətdə 6,4 mlrd.dollarlıq müsbət saldo (qızıl idxalı çıxılmaqla) və qeyri-neft ixracının 8 faizdən çox artaraq 3,6 mlrd. dolları üstələməsi ixrac potensialımızın genişləndiyini və beynəlxalq rəqabət qabiliyyətinin yüksəldiyini göstərir.

Hesabat dövründə strateji valyuta ehtiyatları ilin əvvəlindən təqribən 14.1 mlrd. $ və ya 20 faiz artaraq 85 mlrd.$-ı keçmişdir (hazırda 91 mlrd $). Bu, ÜDM-dən 12 faiz çoxdur və dünyada adambaşına düşən ehtiyatlara görə ən yüksək göstəricilərdən biridir. Bu göstərici xarici dövlət borcunu (4,8 mlrd. dollar) 18 dəfəyədək üstələyir. 2025-ci ildə inflyasiya hədəf diapazonunda olmuşdur. Belə ki, illik inflyasiya 5,2 faiz, orta illik inflyasiya isə 5,6 faiz təşkil etmişdir. Makroiqtisadi idarəetmənin keyfiyyəti maliyyə intizamı və fiskal dayanıqlılıq göstəricilərində də aydın görünür. 2025-ci ildə dövlət büdcəsinin gəlirləri təqribən 39,2 mlrd. manat (5,4 faiz çox), xərcləri isə 38,6 mlrd. manat (2,4 faiz çox) icra olunmuşdur.

Prezident İlham Əliyevin cari ilin 21 yanvar tarixində Davos Forumunda vurğuladığı kimi, qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə Azərbaycanın əsas prioriteti makroiqtisadi sabitliyin qorunması, fiskal intizam və iqtisadiyyatın neftdən kənar sahələr üzrə şaxələndirilməsi və inkişafıdır.

Hesabat ilində institusional sahədə islahatlar davam etmiş, sahibkarlığın inkişafı, biznes-investisiya mühitinin yaxşılaşdırılması, korrupsiya ilə mübarizə və kölgə iqtisadiyyatının məhdudlaşdırılması, şəffaflıq və dövlət maliyyəsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Cənab Prezidentin 2025-ci il 25 avqust tarixli fərmanı dövlət maliyyəsinin səmərəli idarə olunmasında rəqəmsal həllərin genişləndirilməsini hədəfləyir.

Bu məqsədlə yaradılan "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi büdcə proseslərinin, maliyyə nəzarətinin, xəzinədarlıq, eləcə də dövlət qurumları arasında maliyyə sənədlərinin elektron mübadiləsini təmin edəcəkdir.

Hörmətli deputatlar!

2025-ci ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsi və sosial rifah halının yaxşılaşdırılması üçün sosial siyasət tədbirləri davam etdirilmişdir. Əhalinin real gəlirlərinin yüksəldilməsi məqsədilə sosial ödənişlərin artırılması ilə bağlı bir sıra mühüm qərarlar qəbul olunmuşdur.

2025-ci ildə əhalinin nominal gəlirləri və orta aylıq əməkhaqqı artımı illik inflyasiya səviyyəsini üstələmişdir.

2025-ci il dövlət büdcəsi xərclərinin 39,5 faizi və ya 15,3 mlrd. manatı sosialyönlü xərclərin maliyyələşdirilməsinə yönəldilmişdir (2024-cü illə müqayisədə 601,5 mln. manat və ya 4,1 faiz çoxdur).

Son yeddi il ərzində 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi icra edilmişdir ki, bu məqsədlərə təqribən 8 mlrd. manat məbləğində vəsait sərf edilmişdir.

Təkcə keçən il 1,4 milyard manat büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Təhsil, səhiyyə və sosial müdafiəyə ayrılan vəsaitlərin artımı isə iqtisadi inkişaf üçün dayanıqlı insan kapitalı bazası yaradır. Dövlət büdcəsindən təhsil və elm xərclərinə 4,8 milyard manatdan artıq vəsait ayrılmışdır (artım 5,1 faiz). 2025-ci ildə 31 təhsil müəssisəsində (o cümlədən 11-i Heydər Əliyev Fondu tərəfindən) işlər yekunlaşdırılmış, 97 təhsil müəssisəsində (o cümlədən 70 modul tipli ) isə tikinti-quraşdırma işləri davam edir. Eyni zamanda 959 təhsil müəssisəsində, o cümlədən 10 peşə, 4 kollec, 185 məktəbəqədər və 760 ümumi təhsil müəssisəsində cari təmir işləri aparılmışdır. Bu işlərin mərhələli şəkildə davam etdirilməsi planlaşdırılır.

Hesabat ilində əhalinin sağlamlığının qorunması, səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə səhiyyə xərcləri sahəsinə büdcədən təxminən 1,3 milyard manat vəsait ayrılmışdır.

Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət və qayğısı ilə son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmiş, müharibə zamanı 500-dən artıq əlil olmuş hərbçi dövlət tərəfindən ən müasir protezlərlə təmin edilmişdir.

Ümumiyyətlə, 2025-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 21,2 mlrd. manat investisiya vəsaiti yönəldilmişdir. İnvestisiyanın 74,8 faizi qeyri-neft-qaz sektoruna, 25,2 faizi neft-qaz sektoruna yönəldilmişdir.

Hörmətli deputatlar!

2025-ci ilin dövlət büdcəsində də müdafiə və milli təhlükəsizlik xərcləri artırılmışdır. Bu, ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsinin dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu göstərir.

Bu məqsədlə 2025-ci ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 8,1 milyard manat vəsait ayrılmışdır (2024-cü illə müqayisədə 1,5 mlrd. manat və ya 23 faiz çox).

Ötən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Mövcud geosiyasi şərait nəzərə alınaraq əldə olunmuş nəticələrin qorunmasına, o cümlədən təhlükəsizliyin möhkəmləndirilməsinə, müdafiə qabiliyyətinin artırılmasına, sərhədlərin toxunulmazlığına, milli maraqların müdafiəsinə bundan sonra da ardıcıl diqqətin göstərilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə mövcud infrastrukturun bərpası və yenisinin inşası, yaşayış məntəqələrinin yenidən qurulması və sosial-iqtisadi həyatın canlandırılması istiqamətində genişmiqyaslı işlər uğurla davam etdirilir.

Hesabat ilinin sonuna işğaldan azad edilmiş bölgələrdə yaşayan (məskunlaşan, işləyən və oxuyan) əhalinin sayı təqribən 75 min nəfər təşkil etmişdir.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2020-2025-ci illərdə dövlət büdcəsindən cəmi 22 milyard manat vəsait ayrılmışdır. (2025- 4,4 mlrd. manat). 2026-cı ildə bu məqsədə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Beləliklə, bu il də daxil olmaqla dövlət büdcəsindən ümumilikdə 25,5 milyard manat vəsait ayrılmışdır. Eyni zamanda işğaldan azad olunmuş ərazilərdə geniş minatəmizləmə işləri davam etdirilir.

2025-ci ildə 69,2 min hektar, ümumilikdə isə 2020-ci ildən azad edilmiş ərazilərdə 249 min hektara yaxın ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənmiş, ümumilikdə tapıntıların sayı 237 min ədəd təşkil etmişdir. 2026-cı ildə 65 min hektardan artıq ərazinin minalardan təmizlənməsi planlaşdırılır. Bununla yanaşı, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair 2-ci Milli Prioritetin əsas məqsədlərindən biri də "Paytaxt və regionların tarazlı inkişafı"dır.

2025-ci ildə ölkədə 9 sənaye parkı və 6 sənaye məhəlləsi fəaliyyət göstərmişdir ki, burada 179 rezident və qeyri-rezident qeydiyyatdan keçmiş, 103 müəssisə istehsal fəaliyyətinə başlamışdır. 2025-ci ildə sənaye zonalarında 3,3 mlrd. manat dəyərində məhsul istehsal olunmuş, ondan 1,2 mlrd. manat həcmində məhsul ixracı edilmişdir.

Hesabat ilində torpaq və su ehtiyatlarının mühafizəsi gücləndirilmiş, su problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür. Prezidentin 2026-cı il 12 yanvar tarixli sərəncamı ilə "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

2025-ci ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 504 mln. manat vəsait ayrılmışdır.

Ölkə ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadə edilməsi, fermerlərin suvarma suyu ilə təchizatı, suvarma sahələrinin genişləndirilməsi və digər tədbirlərin maliyyə təminatı üçün 539 mln. manat məbləğində (23 faiz çox) vəsait yönəldilmişdir.

Hörmətli deputatlar!

Prezident İlham Əliyevin Davos platformasında vurğuladığı kimi, nəqliyyat, rəqəmsal infrastruktur, "yaşıl enerji" və hasilat sənayesinin yeni mərhələsi Azərbaycanın müasir inkişaf modelinin əsas sütunları kimi çıxış edir.

Hesabat ilində xüsusilə nəqliyyat, logistika və informasiya-rabitə sahələrində müşahidə olunan dinamika iqtisadiyyatın yeni artım mənbələrinin formalaşdığını göstərir.

2025-ci ildə qeyri-neft ÜDM-nin 13 faizi bu sahələrin hesabına formalaşmışdır. Yük və sərnişin daşımalarının artması Azərbaycanın regional tranzit rolunun möhkəmləndiyini təsdiqləyir və Orta dəhliz strategiyasının real prosesə çevrildiyini göstərir.

İnformasiya və rabitə xidmətləri sektorunun genişlənməsi iqtisadiyyatın texnoloji komponentinin gücləndiyini, məhsuldarlığın fiziki kapitalla yanaşı, bilik, rəqəmsallaşma və innovasiya vasitəsilə artdığını göstərir.

Ötən ildə Rəqəmsal İnkişaf Konsepsiyası və 2025-2028-ci illəri əhatə edən Süni İntellekt Strategiyası təsdiq edilmişdir.

Cənab Prezidentin 30 yanvar 2025-ci il tarixli sərəncamı ilə "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Proqram çərçivəsində dayanıqlı nəqliyyat sisteminin qurulması, xidmət keyfiyyətinin artırılması, nəqliyyatda rəqəmsal texnologiyaların və innovativ həllərin tətbiqi əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Ötən il ölkədə avtomobil və dəmir yollarının, həmçinin yol infrastrukturun tikintisi, yenidən qurulması və bərpası davam etdirilmişdir. 2025-ci il ərzində ölkə üzrə 539 km, o cümlədən regionlarda 332 km respublika və yerli əhəmiyyətli avtomobil yolu tikilmiş, yenidən qurulmuş və əsaslı təmir olunmuş, 84 km dəmir yolu xətti yenidən qurulmuş, 7 dəmir yolu tuneli və körpüsü tikilmiş və əsaslı təmir olunmuşdur.

Hesabat ilində energetika sahəsində infrastrukturun modernizasiyası, enerji təhlükəsizliyinin təmin edilməsi, ölkənin enerji sisteminə yeni generasiya güclərinin daxil edilməsi, habelə "yaşıl enerji"nin tətbiqi istiqamətində tədbirlər davam etdirilmişdir. 2025-ci ildə enerji istehsalı 28,6 mlrd. kVts təşkil etmiş, istehlak həcmi isə 24,7 mlrd. kVts-a yüksəlmişdir. Hazırda hökumətin əsas vəzifəsi enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirmək və enerji sistemimizi gücləndirməkdir. Mövcud planlara görə, biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik.

Bərpaolunan enerji sahəsində böyük potensialımızın reallaşdırılması məqsədilə dünyanın aparıcı ölkələrinin şirkətləri ilə səmərəli əməkdaşlıq qurulub. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr ölkəmizin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, enerji mənbələrinin şaxələndirilməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

Bununla yanaşı, qaz təchizatı coğrafiyasının genişləndirilməsi və yeni ixrac marşrutlarının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirilir. 2025-ci il ərzində ixrac boru kəmərləri vasitəsilə ümumilikdə 25,2 mlrd. kubmetr qaz ixrac edilmişdir. Avropa bazarı ilə yanaşı, yeni istiqamətlər üzrə əməkdaşlıq inkişaf etdirilmiş və ilk dəfə olaraq Azərbaycan qazının Suriyaya tədarükünə başlanılmışdır. Ötən il Azərbaycan qazını alan ölkələrin sayı artaraq 14-ə yüksəlmişdir. Hazırda bu ölkələrin sayı 16-ya çatıb. Belə ki, Avropanın daha iki ölkəsinə – Almaniya və Avstriyaya qaz tədarükünə başlanılmışdır.

Hörmətli deputatlar!

Növbəti ortamüddətli dövr dünyada və regionda cərəyan edən geosiyasi vəziyyət və geoiqtisadi amillər və hazırkı inkişaf meyilləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır.

Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və onun əsasında hazırlanan 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının hazırda uğurla icrası davam edir.

Strategiyanın davamı olaraq, 30 may 2025-ci il tarixində cənab Prezident tərəfindən imzalanmış sərəncamdakı tapşırığa əsasən, yeni çağırışları və hədəfləri əhatə edəcək "2027-2030-cu illərin sosial-iqtisadi inkişaf Strategiyası və Böyük Qayıdışa dair II Dövlət Proqramının" layihəsi hazırlanmış, İqtisadi Şurada müzakirə olunmuşdur. Hər iki sənədin layihəsi hökumət tərəfindən artıq cənab Prezidentə təqdim olunub.

2025-ci ilin yekunları üzrə göstəricilər bir daha sübut edir ki, Prezident İlham Əliyevin formalaşdırdığı iqtisadi və sosial idarəetmə modeli neft gəlirlərinin səmərəli idarə olunmasına, qeyri-neft sektorunun inkişafına, insan rifahının yüksəldilməsinə və dövlətin strateji gücünün artırılmasına əsaslanır.

Mövcud iqtisadi artım bazası isə məhsuldarlıq, xidmətlərin ixracı və texnologiya əsaslı dərinləşmə üçün əlverişli şərait yaradır.

Hörmətli xanım Sədr, hörmətli deputatlar!

Hökumət üzvləri adından və şəxsən öz adımdan əminliklə bildirirəm ki, cənab Prezident tərəfindən hökumət qarşısında müəyyən edilmiş bütün hədəflər və verilən tapşırıqlar bundan sonra da tam məsuliyyətlə, vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir.

2026-cı ildə qanunvericilik sahəsindəki məsuliyyətli fəaliyyətinizdə hər birinizə yeni uğurlar arzulayıram.

Həmçinin qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə hər birinizi ürəkdən təbrik edir, cansağlığı və xoşbəxtlik arzulayıram.

Diqqətinizə görə sağ olun!

# XIII Qlobal Bakı Forumu

## 2030 Gündəliyinin icrası ilə bağlı çağırışlar

**XIII Qlobal Bakı Forumunun ikinci günündə "2030 Gündəliyinin sürətləndirilməsi: İnklüziv artım və dayanıqlı bağlantı" mövzusunda panel iclas keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasa İsveçrənin İnkişaf və Əməkdaşlıq Agentliyinin baş direktoru, BMT-nin İKT üzrə İşçi Qrupunun üzvü, UNESCO-nun Kommunikasiyanın İnkişafı üzrə Hökumətlərarası Şurasının sabiq sədri Valter Fust moderatorluq edib.

2014-cü il Nobel Sülh Mükafatı laureatı **Kailaş Satyarti** çıxışında dünyamızın dəyişməkdə olduğunu deyib: "Bəşəriyyət və Yer kürəsi təhlükə altındadır. Paradoks ondadır ki, biz dəyişkən dünyada yaşayırıq. Biz yüksək bağlılıqdan ibarət dünyada yaşasaq da, səmimiyyət getdikcə azalır, fərdlər və icmalar marginallaşır, ölkələr isə bir-birindən uzaqlaşır. Proseslər əvvəlkindən qat-qat sürətlənib. Uşaqlar və qadınlar diqqətdən kənarda qalırlar".

Misirin sabiq planlaşdırma, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq naziri **Raniya Al-Maşatın** sözlərinə görə, dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün ölkələr ilk növbədə öz milli prioritetlərini aydın şəkildə müəyyənləşdirməli və bu sahələrə yönələn siyasəti gücləndirməlidirlər.

Bosniya və Herseqovinanın BMT-də daimi nümayəndəsi, sabiq Baş nazir **Zlatko Laqumdziya** çıxışında qeyd edib ki, mövcud vəziyyəti düzgün qiymətləndirmək vacibdir. DİM hesabatı göstərir ki, biz




hansı mərhələdəyik. Əksər DİM-lər üzrə məqsədlərdən uzağıq və bütün ölkələr eyni sürətlə irəliləmirlər. Avropa ölkələri DİM üzrə ən güclü nəticə göstərənlərdir. Bir çox inkişaf etməkdə olan ölkələr üçün isə fiskal imkanlar DİM-lərə çatmağa şərait yaratmır. Əsas diqqət inkişafda olan və inkişafı zəif olan ölkələrə yönəldilməlidir.

Çex Respublikasının sabiq Baş naziri **Jiri Rusnok** çıxışında qeyd edib ki, hazırda dünyada müşahidə olunan əsas tendensiyalardan biri qlobal parçalanmanın güclənməsidir və bu proses beynəlxalq əməkdaşlıq üçün əlavə çətinliklər yaradır. Bu parçalanma bir neçə səviyyədə özünü göstərir və onların bir-biri ilə əlaqəsi vəziyyəti daha da mürəkkəbləşdirir.

Pekin Universitetinin Yeni Struktur İqtisadiyyatı İnstitutunun dekanı **Castin Linin** fikrincə, Dayanıqlı İnkişaf Məqsədləri gündəliyindən çox kənarlaşmışıq: "2030-cu ilə qədər məqsədlərə tam çata bilməyəcəyik. 17 məqsədin hamısı vacibdir və irəliləyişə nail olmaq üçün əlimizdən gələni etməliyik. Əgər bu məqsədlərə çatmaq mümkün olmasa, digər oxşar təşəbbüslərə qoşulmaq lazımdır".

Moldovanın sabiq Baş naziri **Kirill Qaburiçi** nəzərə çatdırıb ki, texnologiya, infrastruktur və innovasiyalar sahəsindəki inkişaf cəmiyyətlər üçün güclü alətlər yaradır. O vurğulayıb ki, bu alətlər vasitəsilə təmiz enerji sistemləri, rəqəmsal infrastruktura çıxış və yerli məlumatların monitorinqi kimi həllər yaradılır. Bu vasitələr cəmiyyətləri daha dayanıqlı və inklüziv edir.

Monteneqronun sabiq Baş naziri **İqor Lukşiq** çıxışında bildirib ki, DİM-lərə çatmaq üzrə vəziyyət hələ də kritikdir və 2030-cu il hədəflərinə realist olaraq tam çata bilməyəcəyik. O vurğulayıb ki, Avropa ölkələri DİM üzrə daha güclü nəticələr göstərsə də, bir çox inkişaf etməkdə olan ölkələr fiskal imkanların məhdud olması səbəbindən məqsədlərə çatmaqda çətinlik çəkir. Bu səbəbdən indiki mərhələdə daha vacib olan gələcəyə baxmaq və uzunmüddətli planlar üzərində düşünməkdir.

Panel iclas mövzu ətrafında müzakirələrlə davam edib.

## "Orta dəhliz və Avrasiya bağlantısı qapısı"

**XIII Qlobal Bakı Forumu çərçivəsində "Orta Dəhliz və Avrasiya bağlantısı qapısı" mövzusunda panel müzakirələr aparılıb.**

AZƏRTAC xəbər verir ki, iclasa Serbiyanın sabiq Prezidenti Boris Tadiç moderatorluq edib.

Özbəkistan Prezidentinin xarici siyasət üzrə müşaviri **Abdulaziz Kamilov** Azərbaycanın Mərkəzi Asiya regionu ilə yaxınlaşmasını strateji əhəmiyyət kəsb edən tarixi proses adlandırıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin Mərkəzi Asiya liderləri ilə bir araya gəlməsi iqtisadi, ticarət və xüsusilə enerji sahəsindəki əməkdaşlığımız üçün müstəsna əhəmiyyət daşıyır. Özbəkistanın Zəngəzur dəhlizinin açılmasını dəstəkləyən ölkələrdən biri olduğunu vurğulayan Abdulaziz Kamilov hesab edir ki, bu dəhliz yeni bazarlara çıxış imkanı yaradacaq.

Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri **Binəli Yıldırımın** fikrincə, müvafiq strateji addımlar atmaqla illik daşımaların həcmini 20 trilyon dollara qədər artırmaq mümkündür: "Bu kontekstdə Orta dəhlizin əhəmiyyəti əvəzsizdir. Belə ki, yüklərin Şərqdən Qərbə daşınması dəniz yolu ilə 40-50 gün çəkdiyi halda, Orta dəhliz vasitəsilə cəmi 12-15 günə reallaşa bilər. Bu üstünlükləri nəzərə alaraq, Orta dəhlizin inkişafı daha fəal şəkildə dəstəklənməlidir".




Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri **Şahmar Mövsümov** Azərbaycanın Orta dəhliz layihəsi çərçivəsində nəqliyyat, enerji və rəqəmsal infrastrukturun inteqrasiyasına xüsusi önəm verdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Trans-Xəzər Fiber Optik Kabeli layihəsi Asiya və Avropa arasında 300 terabit/saniyəlik yüksəksürətli rəqəmsal əlaqə təmin edəcək və bölgədə rəqəmsal inteqrasiyanı gücləndirəcək.

Gürcüstanın Baş nazirinin sabiq müavini **Eka Tkeşelaşvilinin** sözlərinə görə, Azərbaycan regionun inteqrasiyasında əsas aktor kimi iştirak edir. O qeyd edib ki, region artıq xarici güclərdən asılı deyil, strateji qərarları öz şərtləri ilə qəbul etmək qabiliyyətini gücləndirib və üzv ölkələr arasında dərinləşmiş strateji əməkdaşlıq sayəsində yeni "regional orta güc" nümunəsi ortaya çıxıb.

Rumıniya Baş nazirinin sabiq müavini **Ana Birçal** Cənubi Qafqaz, Mərkəzi Asiya və Avroatlantik məkan arasında aktiv körpü rolunu davam etdirməyin önəmini vurğulayıb. "Enerji təhlükəsizliyi milli təhlükəsizlikdir. Qafqaz və Mərkəzi Asiyanın sabitliyi isə bütün regionun rifahı üçün fundamental şərtdir", - deyə A.Birçal əlavə edib.

Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi **Rəşid Alimov** Mərkəzi Asiyanın qlobal bazarlara çıxışı addım-addım təmin edən etibarlı və strateji bir körpü statusu qazandığını deyib: "Regionun nəqliyyat təşəbbüsləri beynəlxalq layihələri tamamlayaraq yeni imkanlar yaradır. Bizim əsas məqsədimiz dəhliz boyu yükdaşıma zonalarını inkişaf etdirmək və bu marşrutu qlobal dəyər zəncirinin ayrılmaz hissəsinə çevirməkdir".

Qırğızıstanın sabiq Baş naziri **Coomart Otorbayev** Orta dəhliz layihəsinin Avropa ilə Asiya arasında yükdaşımalarını sürətləndirmək və daha səmərəli etmək baxımından böyük strateji əhəmiyyətə malik olduğunu deyib. Qeyd edib ki, bu layihə vasitəsilə Yaponiya, Çin, Cənub-Şərqi Asiya və Hindistanın şirkətləri Avropaya bağlanır. Bu layihə çərçivəsində Azərbaycanın Asiya ilə Avropa arasında əlaqəni təmin etməkdə rolu kritik əhəmiyyət kəsb edir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyinin Baş katibi **Lazar Komanesk** isə Avropa ilə Asiya arasında quru və dəniz əlaqələrinin qurulmasının müasir dövrün ən mühüm prioritetlərindən biri olduğunu bildirib. O, xüsusilə Qara dəniz regionu və ətraf bölgələr üçün bu iki qitə arasında inteqrasiyanın güclənməsini olduqca sevindirici və strateji bir hadisə adlandırıb.

Sessiya müzakirələrlə davam edib.

## COP platformasının səmərəliliyi və iqlim əməkdaşlığı Bakı Forumunda gündəmə gətirilib

**XIII Qlobal Bakı Forumu çərçivəsində keçirilən paneldə "Danışıqlardan kənarda: COP-u yaşatmaq uğrunda mübarizə" mövzusu müzakirə olunub.**

AZƏRTAC xəbər verir ki, "Fortescue Ltd." şirkətinin Direktorlar Şurasının üzvü Jean Baderschneiderin moderatorluğu ilə keçirilən panel iclasda COP-un qlobal iqlim gündəminin əsas platforması kimi fəaliyyətini davam etdirməsinin vacibliyi, siyasi fikir ayrılıqları və beynəlxalq gərginliklər fonunda COP mexanizminin effektivliyini qorumağın yolları ətrafında fikir mübadiləsi aparılıb.

COP31-in sədri və Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri **Murat Kurum** Qlobal Bakı Forumu çərçivəsində hər kəsin öz COP təcrübəsini bölüşə bildiyi mühit yaratdığı üçün Azərbaycana təşəkkür edib: "Biz bu gün də "iki dövlət, tək millət" olmaqdan qürur duyuruq və Azərbaycanda olmaqdan böyük məmnunluq hissi yaşayırıq. Həmçinin qəlbi hər zaman Azərbaycan üçün döyünən Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını, sevgisini bütün azərbaycanlı dostlara və buradakı iştirakçılara çatdırmaq istəyirəm".

Murat Kurum XIII Qlobal Bakı Forumunun çox kritik bir vaxtda keçirildiyinə diqqət çəkib. Onun sözlərinə görə, dünyada əməkdaşlıq dialoqu sahəsində atılan hər bir addım çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti **Muxtar Babayev** çoxtərəfliliyin böyük təzyiq altında olduğuna diqqət çəkib: "Bütün BMT sistemi böyük təzyiq altındadır. Buna görə də yalnız COP-da müsbət və uğurlu nəticələr əldə etmək üçün deyil, həm də əvvəlki COP-larda razılaşdığımız qərarları həyata keçirmək üçün çox sıx işləməliyik". Təhlükəsizlik, müdafiə və hərbi çağırışların ölkələri bu istiqamətlərə getdikcə daha çox vəsait ayırmağa vadar etdiyini diqqətə çatdıran M.Babayev dövlətlərin müharibə və münaqişələrdən qorunma yolları axtardıqlarını deyib. Lakin iqlim dəyişikliyi artıq bir reallıqdır və hər kəs bu dəyişikliklərlə üz-üzədir.

Mərakeşin keçmiş xarici işlər və əməkdaşlıq naziri, COP22-nin prezidenti **Salaheddine Mezouar** bildirib ki, iqlim dəyişikliyi qlobal çağırışdır və bunun həlli üçün universallıq, qlobal əməkdaşlıq vacibdir. Onun sözlərinə görə, COP sistemi konsensus üzərində qurulub ki, bu da legitimlik və hər ölkənin səs hüququnu təmin edir. Lakin yekdillik tələb edən qərarlar irəliləyişi ləngidə bilər.

Polşanın keçmiş iqlim və ətraf mühit naziri, COP24-ün prezidenti **Michal Kurtyka** vurğulayıb ki, COP-ların əsası 1995-ci ildə qoyulsa da, bu gün dünya fərqli və çətin şəraitdədir. Müharibələr, aclıq, enerji təhlükəsizliyi və digər insani böhranlar iqlim müzakirələrini əhatə edən kontekstə təsir göstərir.

Misirin keçmiş xarici işlər naziri, COP27-nin prezidenti **Sameh Şoukrinin** sözlərinə görə, COP müzakirələrində ənənəvi yanacağa hələ də böyük asılılıq var və qlobal çağırışlar bütün ölkələr üçün aktualdır. Onun fikrincə, maliyyələşmənin artırılması vacibdir, lakin ən əsas problem Qlobal Cənub və Qlobal Şimal arasındakı parçalanmadır. O vurğulayıb ki, ümumi iqlim məqsədlərinə çatmaq üçün bütün tərəflər bir araya gəlməli və əməkdaşlıq etməlidir.

"Vital Voices Global Partnerships" təşkilatının İqlim Ədaləti Proqramının rəhbəri **Hafsat Abiola** Azərbaycanın COP29 zamanı bütün dünyanı yüksək səviyyədə qarşıladığını deyib: "Ümid edirəm ki, Türkiyə ilə bu istiqamətdə çox yaxından əməkdaşlıq edəcəyik və Efiopiyada da görüşmək imkanımız olacaq. Çünki Efiopiya bizim üçün mühüm ölkədir. O, Afrikanın müstəmləkəçiliyə məruz qalmayan yeganə dövlətidir".

Bolqarıstanın sabiq Prezidenti **Petar Stoyanov** Braziliyada keçirilən COP-un təcrübəsinə əsaslanaraq, iqlim proseslərinin davamlılığının təmin edilməsinin vacibliyini vurğulayıb. Hazırda ətraf mühit sahəsində müxtəlif tənqidi yanaşmalar və geosiyasi gərginliklər mövcuddur, lakin inkişaf tempini qorumaq və səmərəli həll yolları tapmaq zəruridir. Dünya iqlim məsələlərinə yeni baxış bucağından yanaşmalı və idarəçilikdə sadələşdirilmiş prinsipləri rəhbər tutmalıdır, çünki bəzən müasir populyar tendensiyalar milyonlarla insanın maraqları ilə ziddiyyət təşkil edir. Bu kontekstdə orta güclərin rolu önəmlidir. Bölgələrində ciddi nüfuza malik olan bu dövlətlər böyük dövlətlərlə strateji razılaşmalar əldə etmə potensialına malikdir və iqlim hədəflərinin həyata keçirilməsində həyati əhəmiyyət daşıyırlar. COP platforması iqlim dəyişikliyi ilə mübarizədə yeganə və ən mühüm imkandır və bu işlərin kiçik, çevik qruplarla icrası COP formatının əhəmiyyətini bir daha göstərir.

Panel iclas müzakirələrlə davam edib.

## "Afrika bu gün və sabah"

**XIII Qlobal Bakı Forumu çərçivəsində "Afrika bu gün və sabah" mövzusunda panel müzakirələri təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, iclasa Dünya Bankının Şərqi və Cənubi Afrika üzrə keçmiş regional vitse-prezidenti Hafez Ghanem moderatorluq edib.

Çıxış edən Belçikanın keçmiş Baş naziri **Şarl Mişel** Afrikanın Avropa İttifaqı üçün strateji tərəfdaş olduğunu deyib. Onun sözlərinə görə, bu çərçivədə illər öncə Avropa və Afrika ölkələri arasında münasibətləri gücləndirmək, Afrikanın iqtisadi potensialını inkişaf etdirmək və qitələrarası inteqrasiyanı artırmaq üçün müxtəlif görüşlər keçirilib. Bu münasibətlərin əsas prinsipi bərabərhüquqlu əməkdaşlıq və tərəflər arasında balansın qorunmasıdır. Bununla belə, qlobal silahlı münaqişələrin və silahlanmanın biznes modelinə çevrildiyi bir dövrdə bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə ehtiyac var.

Maltanın sabiq Baş naziri **Cozef Muskatın** fikrincə, Afrikada uğur qazanmaq üçün tədbirlərin görülməsinin ən münasib yolunu göstərmək lazımdır. O bildirib ki, Afrika üçün ən böyük imkanlar elə qitənin özündədir. Afrika daxili imkanlar baxımından böyük potensiala malikdir. Burada əsas məsələ kimisə razı salmaq və ya hansısa dövlətlərin gündəliyinə uyğun hərəkət etmək deyil, mövcud imkanlardan istifadə etməkdir.




Miqrasiya, Daxili İşlər və Vətəndaşlıq üzrə keçmiş Avropa Komissarı **Dimitris Avramopulos** çıxışında vurğulayıb ki, 2026-cı ildə Afrika artıq qlobal proseslərin kənarında qalan deyil, proseslərin mərkəzində dayanan mühüm bir iştirakçıdır. Afrika bərabərhüquqlu və hörmətə əsaslanan tərəfdaş kimi yanaşılmasını tələb edir. Biz bu regionla güclü və hərtərəfli əlaqələr qurmalıyıq. Xüsusilə nəzərə almalıyıq ki, Çin və digər qlobal güclər artıq onlarla əməkdaşlıq edir.

2003-2007-ci illərdə Qərbi Afrika üzrə BMT Baş katibinin xüsusi nümayəndəsi, 2007-2010-cu illərdə BMT-nin Somali üzrə xüsusi elçisi **Ahmedou Ould-Abdallah** bildirib ki, Afrika Yer kürəsinin quru ərazisinin təxminən 20 faizini təşkil edir. Bu da təxminən 30,5 milyon kvadratkilometr deməkdir. Afrikanın əhalisi təxminən 1,3 milyard nəfərdir və bu göstərici ilə qitə Asiyadan sonra dünyada ikinci yerdədir. Bu, dünya əhalisinin təxminən 17,2 faizinə bərabərdir. Afrika həm də ən az inkişaf etmiş ölkələrin böyük hissəsini özündə birləşdirir. Dünyada mövcud olan 48 ən az inkişaf etmiş ölkədən 34-ü məhz Afrikada yerləşir.

"Liberal İnternasional"ın prezidenti və COP22-nin yüksəksəviyyəli iqlim çempionu **Hakima El-Haite** çıxışında Afrikaya fərqli perspektivdən baxdığını bildirib. O vurğulayıb ki, Afrikada demokratiya və regional tərəfdaşlıqların inkişafı vacibdir. Qitədə mineral ehtiyatların və texnologiyanın düzgün istifadə olunması, bərpaolunan enerji sahəsində əməkdaşlıq və iqlim dəyişikliyinə qarşı atılan addımlar Afrika üçün böyük imkanlar yaradır.

Panel iclas işini mövzu ətrafında müzakirələrlə davam etdirib.

## Siqh Konfransı yekun bəyanat qəbul edib

**İsveçrənin Cenevrə şəhərində Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilən konfransın yekunlarına dair bəyanat qəbul edilib.**

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Hindistan hökumətinin transmilli repressiyalarına qarşı mübarizə: Siqh Müqaviməti və BMT" konfransının iştirakçıları müxtəlif ölkələrdə Siqh fəalları, insan haqları müdafiəçiləri və Siqh diasporunun üzvlərinə qarşı artan transmilli repressiyalar tendensiyasından ciddi narahatlıqlarını bildirirlər.

İştirakçılar gizli müşahidə, hədə-qorxu, təqib, dezinformasiya kampaniyaları və xaricdəki Siqh fərdlərinə və təşkilatlarına qarşı zorakılıq aktları da daxil olmaqla müxtəlif formalarda repressiyaların sənədləşdirilmiş nümunələrini narahatlıqla qeyd edirlər. Bu cür təcrübələr milli sərhədlər üzərindən həyata keçirildikdə, fundamental insan hüquq və azadlıqlarının ciddi şəkildə pozulması deməkdir və beynəlxalq hüquq prinsiplərini, eləcə də diaspor icmalarının yaşadığı dövlətlərin suverenliyini sarsıdır.

İştirakçılar həmçinin Siqh fəalı Bhai Hardip Singh Nicarın qətlindən sonrakı xəbərlərin, xüsusən də Amerika Birləşmiş Ştatları, Birləşmiş Krallıq, Kanada, Avstraliya kimi ölkələrdə, eləcə də İtaliya, Belçika və Almaniya da daxil olmaqla bir sıra Avropa dövlətlərində Hindistan hökuməti tərəfindən Siqh fəallarına qarşı davam edən təzyiq, hədə-qorxu və digər təqib formalarının olduğunu ifadə etməsindən narahatlıqlarını bildirirlər. Bu pozuntular Siqh diaspor icmalarının təhlükəsizliyi və beynəlxalq hüquqa riayət olunması ilə bağlı ciddi narahatlıqlar doğurur.




Bakı Təşəbbüs Qrupu Siqh xalqının fundamental hüquqlarını, azadlıqlarını və kimliyini qorumaq üçün qanuni və haqlı mübarizəsinə dəstəyini bir daha təsdiqləyir.

Bakı Təşəbbüs Qrupu həmçinin transmilli repressiya məsələlərinin beynəlxalq qurumların baxılması üçün irəli sürülməsinin və bu cür fəaliyyətin müvafiq beynəlxalq nəzarət və araşdırmalar çərçivəsində qalmağının təmin edilməsinin vacibliyini vurğulayır.

Bugünkü konfransın iştirakçıları Birləşmiş Millətlər Təşkilatını, onun müvafiq insan hüquqları mexanizmlərini və beynəlxalq ictimaiyyəti

- Siqh fəalları və diaspor icmalarına qarşı transmilli repressiya hallarını yaxından izləməyə və araşdırmağa;

- milli sərhədlərdən kənarda törədilən qorxutma, təhdid, təqib və ya zorakılıq hallarında hesabatlılığın və şəffaflığın təmin olunmasını təşviq etməyə;

- diaspor icmalarının, insan hüquqları müdafiəçilərinin və siyasi fəalların beynəlxalq müdafiəsini gücləndirməyə çağırıblar.

Xüsusilə Bakı Təşəbbüs Qrupu və Beynəlxalq Siqh Federasiyası beynəlxalq ictimaiyyəti, müvafiq beynəlxalq təşkilatları, o cümlədən Birləşmiş Millətlər Təşkilatını və onun İnsan Hüquqları Şurası kimi qurumlarını, eləcə də qurumun insan hüquqları müdafiəçiləri, azlıqların hüquqları və digər müvafiq sahələr üzrə xüsusi məruzəçilərini zorakılığa görə təqsirkar olanları məsuliyyətə cəlb etmək üçün real addımlar atmağa çağırır. İrəli sürülən ittihamların ciddiliyini nəzərə alaraq, hər iki təşkilat BMT-ni bu əməliyyatların arxasında duran komandanlıq zəncirini aydınlaşdırmaq, beynəlxalq hüququn mümkün pozuntularını qiymətləndirmək, hesabatlılıq və qarşısının alınması üçün müvafiq mexanizmləri müəyyən etmək məqsədilə Hindistanın ehtimal edilən hücumları ilə bağlı müstəqil araşdırma başlatmağa çağırır.

İştirakçılar bu məsələlərə diqqət çəkmək və Hindistandakı Siqhlərin və digər icmaların hüquqlarını təşviq etmək üçün beynəlxalq platformalarda qarşılıqlı fəaliyyəti davam etdirmək sadiqliyini bir daha təsdiqləyirlər".



# Bakı və Brüssel yeni strateji tərəfdaşlıq mərhələsinə keçid edib

**Geosiyasi tarazlığın sürətlə dəyişdiyi, enerji təminatının və beynəlxalq marşrutların qlobal gündəliyi formalaşdırdığı bir zamanda Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana səfəri strateji əhəmiyyət daşıdı. Səfər regionda hökm sürən gərgin vəziyyət, Ermənistanla sülh prosesi və ümumi mənada bir çox baxımdan diqqət çəkdi. İlk növbədə vurğulamaq lazımdır ki, bu, Antonio Koştanın Avropa İttifaqı Şurasının Prezidenti kimi Azərbaycana ilk rəsmi səfəri idi və regional xarakter daşımırdı. O səbəbdən, Koştanın gəlişi Bakı-Brüssel münasibətlərinin tamamilə yeni mərhələyə daxil olduğunu göstərən, Avropanın təhlükəsizlik arxitekturasında ölkəmizin yerini təsdiqləyən mühüm bir siyasi hadisədir.**

Azərbaycan və Aİ liderləri arasında münasibətlərin təməli 2025-ci ilin may ayında Tiranada və oktyabr ayında Kopenhagendə keçirilmiş konstruktiv görüşlər zamanı qoyulub. Tiranada baş tutan görüş əsasən etimadın bərpası və strateji baxışın uyğunlaşdırılması missiyasını daşıyırdı. Əsas gündəm regional təhlükəsizlik və Azərbaycan-Aİ münasibətlərindəki mövcud gərginliklərin aradan qaldırılması idi. O zaman tərəflər arasında siyasi dialoqun intensivləşdirilməsi barədə razılığa gəlindi və bu, sonrakı aylarda daha konkret addımların atılması üçün zəmin hazırladı. Kopenhagen görüşü isə daha çox praktik və iqtisadi platforma kimi yadda qaldı, müzakirələr konkret layihələrə yönəldi. Məhz bu təmaslar tərəflər arasında elan olunan yeni mərhələnin siyasi-iqtisadi əsaslarını formalaşdırdı.

Ötən il ərzində Azərbaycan və Aİ rəsmilərinin qarşılıqlı səfərləri, təhlükəsizlik, enerji və nəqliyyat sahələrində uğurla təşkil edilmiş dialoqlar da Aİ ilə münasibətlərin inkişafına öz töhfəsini verdi. Müsbət dinamika əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi üçün əlverişli şərait yaratdı. İntensiv səfərlər tərəflər arasındakı soyuqluğu tədricən aradan qaldırdı və ortaq məxrəcləri önə çıxardı.

Prosesin mahiyyəti ondan ibarətdir ki, tərəflər regional logistika və geosiyasi sabitlik sahəsində bir-birinə ehtiyacı olan strateji müttəfiqlər kimi çıxış edirlər. Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa Şurasının prezidenti Antonio Koştanın 2026-cı il 11 mart tarixli birgə mətbuat bəyanatında Azərbaycan-Aİ əməkdaşlığının hər iki tərəfin ortaq maraqlarını əks etdirdiyi bir daha vurğulandı. Prezident İlham Əliyev ali qonağın səfərinə böyük önəm verdiyini dedi: "Biz Sizin səfərinizə çox böyük önəm veririk. Əminəm ki, o, xüsusən də indiki dövrdə çox uğurla inkişaf edən ikitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oynayacaq. Bizim çox fəal dialoqumuz var. Avropa Komissiyasının üzvləri ötən il və bu il dəfələrlə bizə səfər ediblər". Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın bəyanatlarında da aydın oldu ki, Azərbaycan Avropa İttifaqının əsas tərəfdaşıdır. Aİ rəsmisi ötən bir il ərzində münasibətlərin yenidən canlandırıldığına diqqət çəkdi.

Avropa İttifaqı rəsmi Bakının başlıca ticarət tərəfdaşı statusundadır. Bu məqam Prezident İlham Əliyevin mətbuata bəyanatında öz əksini tapdı. Dövlət başçısı vurğuladı ki, Azərbaycan Avropa İttifaqı ilə müxtəlif səviyyələrdə tərəfdaşlığın fəal mərhələsindədir: "Mən bəzi iqtisadi göstəricilərə nəzər saldım və gördüm ki, bu ilin yanvarında ticari dövriyyəmizin 50 faizi Avropa İttifaqı ilə bağlı olub. Ötən il dövriyyə bir az aşağı olmuşdur, lakin o, həqiqətən göstərir ki, Avropa İttifaqı bizim üçün birnömrəli ticari tərəfdaşdır. Əminəm ki, yeni layihələr və yeni investisiya imkanları ilə sərmayələr iki istiqamətdə yatırılacaq. Hazırda biz, həmçinin Avropada fəal şəkildə sərmayə yatırırıq. Ticari dövriyyəmiz birmənalı olaraq artacaq". Dövlət başçısının vurğuladığı iqtisadi göstərici Azərbaycan-Aİ münasibətlərinin çox möhkəm iqtisadi bazaya söykəndiyini sübut edir. Ticarət dövriyyəsinin 50 faizinin Aİ-nin payına düşməsi Azərbaycanın xarici iqtisadi siyasətinin əsas vektorunun Avropa bazarı olduğunu aydın şəkildə nümayiş etdirir.

Birgə bəyanatın əsas mesajlarından biri Azərbaycanın Aİ üçün etibarlı enerji təchizatçısı olmasıdır. Xüsusilə Yaxın Şərqdə cərəyan edən proseslər fonunda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu göz önündədir. Regional gərginliklər və Süveyş kanalı kimi kritik keçidlərdə yaranan risklər Avropanı daha proqnozlaşdırıla bilən və birbaşa quru bağlantısı olan etibarlı mənbələrə yönəldir. Azərbaycan "Cənub qaz dəhlizi" vasitəsilə Xəzər qazını birbaşa Avropanın mərkəzinə çatdırır. Həmçinin regiondakı digər enerji ixracatçıları ilə müqayisədə ölkəmiz özünü uzunmüddətli öhdəlikləri yerinə yetirən stabil tərəfdaş kimi sübut edib. Azərbaycan Avropanın enerji təchizatında, yalnız həcmlərin artırılmasını deyil, mövcud infrastrukturun genişləndirilməsini, TAP və TANAP-ın ötürücülük qabiliyyətinin artırılmasını da hədəfləyir.

Prezident İlham Əliyev çıxışı zamanı bəyan edib ki, Aİ ilə tərəfdaşlığımızın mühüm hissəsi hər zaman enerji əməkdaşlığı olub: "Bu, xüsusən də 2022-ci ildə Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədi Avropa Komissiyası ilə imzaladığımızdan sonra müşahidə olunur. Həmin vaxtdan etibarən biz həm həcm, həm də ölkələrin sayı baxımından Avropa ölkələrinə qaz ixracımızı artırmışıq. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan qazı qəbul edir və ölkələrin ümumi sayı 16-ya çatıb. Bu göstəriciyə görə, biz dünyada boru kəməri ilə qazı təchiz edən birnömrəli ölkəyik. On altı ölkə bu gün Azərbaycan qazını alır və beləliklə, bir çox ölkələrin enerji təhlükəsizliyində oynadığımız rol artır". Azərbaycanın mavi yanacaq ixrac etdiyi dövlətlərdən 10-nun Avropa İttifaqının üzvü olması ölkəmizin qoca qitənin enerji təhlükəsizliyində əsas tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirir. Azərbaycan ötən 5 ildə Avropa bazarına 56 milyard kubmetrdən çox təbii qaz nəql edib. Ölkəmiz Aİ-yə enerji resursları ixrac edən dövlətlər siyahısında ilk beşlikdə yer alır. Hazırda Azərbaycan qazı yalnız Mərkəzi və Şərqi Avropa ilə məhdudlaşmayaraq, Qərbi Avropa bazarına da uğurla daxil olmaqdadır.

Enerji təchizatçısı anlayışı təkcə təbii qazla məhdudlaşmır. Azərbaycanın bərpaolunan enerji potensialı Avropanın "yaşıl keçid" hədəflərinə tam uyğundur. Xəzər dənizində istehsal olunacaq "yaşıl" elektrik enerjisinin Qara dəniz sualtı kabeli vasitəsilə birbaşa Avropaya ixracı layihəsi Azərbaycanı qitənin gələcək ekoloji enerji tərəfdaşına çevirir.

Azərbaycanın regional bağlantılarda və nəqliyyat dəhlizlərində aparıcı rolu da dünyada rəsmi şəkildə tanınır. Bu sahədə əməkdaşlıq perspektivlərinin genişlənməsi (Orta dəhliz, TRIPP layihəsi və s.) həm Azərbaycanla Aİ arasında praktik əməkdaşlığın dərinləşməsi, həm də regional inteqrasiya üçün zəmin yaradır. Tərəfdaşlıq enerji və bağlantılarla məhdudlaşmır. İnnovasiya və rəqəmsallaşma, "yaşıl enerji" layihələri, dayanıqlı inkişafın təmin olunması, humanitar və sosial sahələr, minatəmizləmə, təhsil, mədəniyyət, o cümlədən müdafiə və təhlükəsizlik sahəsində genişləndirilmiş dialoq yeni əməkdaşlıq lokomotivləri kimi müəyyənləşdirilir.

Danışıqlar zamanı regional təhlükəsizlik məsələləri də diqqət mərkəzində olub. Aİ rəhbəri Cənubi Qafqazda sülh prosesinin vacibliyini xüsusi vurğulayıb. Azərbaycanın Ermənistanla münasibətlərin tənzimlənməsi və regionda daimi sülhün bərqərar olunması üçün nümayiş etdirdiyi ardıcıl siyasi iradə beynəlxalq dəstək qazanmaqdadır. Bundan əlavə, bölgədə baş verən bəzi təhlükəsizlik hadisələri, o cümlədən Naxçıvan istiqamətindəki insidentlər diqqətdən kənarda qalmayıb. Avropa İttifaqının bu məsələlərə yanaşması ölkəmizin suverenliyinə göstərilən siyasi dəstəyin göstəricisidir.

Beləliklə, Azərbaycanla əməkdaşlıq Avropa üçün strateji seçimə çevrilib. Azərbaycanın bugünkü strateji mövqeyi, Avropanın enerji təhlükəsizliyindəki aparıcı rolu və regional nəqliyyat qovşağına çevrilməsi çoxvektorlu və praqmatik xarici siyasətin nəticəsidir. Prezident İlham Əliyevin yürütdüyü praqmatik xarici siyasət respublikamızı regionda sabitlik məkanına, qlobal enerji təhlükəsizliyində əvəzolunmaz tərəfdaşa çevirib.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# YAP ilə "Belaya Rus" Partiyası arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunub



**Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Belarus Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviç arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan ilə Belarusun bir-birinin maraqlarına hörmət edən dost və tərəfdaş ölkə olduqları, dövlətlərarası münasibətlərin yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu qeyd edilib. Siyasi, iqtisadi, ticari, turizm, səhiyyə, elm, təhsil, mədəni-humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin dövlət başçıları - Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenkonun diqqət mərkəzində olduğu vurğulanaraq iki ölkənin qlobal müstəvidə bir-birinin mənafelərinin qorunmasına böyük əhəmiyyət verdikləri bildirilib. Beynəlxalq platformalarda qarşılıqlı dəstəyin müştərək strateji hədəflərin reallaşdırılması baxımından önəmi qeyd olunub.

Görüş zamanı Yeni Azərbaycan Partiyası ilə "Belaya Rus" Partiyası arasında əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri də müzakirə olunub. 2025-ci ilin may ayında YAP nümayəndə heyətinin "Belaya Rus" Partiyasının təşkilatçılığı ilə Minskdə keçirilən beynəlxalq partiyalararası konfransda, "Belaya Rus" Partiyası nümayəndələrinin isə YAP-ın təşkilatçılığı ilə ötən il Şuşada keçirilən beynəlxalq konfransda iştirakı məmnunluqla vurğulanıb. Ölkələrimizin səmimi dostluq münasibətlərinin hakim partiyalar arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığı qeyd olunaraq gənclər arasında da təmasların sıxlaşdırılmasının vacibliyi diqqətə çatdırılıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin də müzakirə olunduğu görüşdə səfir cari ilin may ayında "Belaya Rus" Partiyasının təşkilatçılığı ilə Brest şəhərində keçiriləcək "XXI əsrdə çoxqütblülük və müxtəliflik şəraitində dövlət suverenliyi və beynəlxalq münasibətlərin prinsipləri" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün YAP nümayəndə heyətini ölkəsinə səfərə dəvət edib.

***"Azərbaycan"***

# YAP Sədrinin müavini ilə Kubanın Azərbaycandakı səfiri arasında görüş keçirilib



**Martın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Kuba Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Karlos Enrike Valdes de la Konsepsyon arasında görüş keçirilib.**

Görüşdə dövlət başçıları - Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Kuba Respublikasının Prezidenti, Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Miqel Mario Dias-Kanel Bermudesin ölkələrimiz arasında bərabərhüquqlu tərəfdaşlıq prinsipinə əsaslanan ikitərəfli münasibətlərin inkişafına böyük önəm verdikləri vurğulanıb. İqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm, aqrar və digər sahələrdə səmərəli əməkdaşlıq üçün mühüm potensialın mövcud olduğu qeyd edilib.

İki dost ölkənin hazırda mürəkkəb geosiyasi şəraitdə - yeni dünya nizamına transformasiya ərəfəsində fəal və konstruktiv siyasət həyata keçirərək milli təhlükəsizliyin və dövlət maraqlarının qorunması ilə bağlı prinsipial mövqe nümayiş etdirdikləri bildirilib. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı qətiyyətli mübarizənin önəmi, həmçinin bütün məsələlərin dialoq və diplomatiya yolu ilə sülh şəraitində həllinin vacibliyi vurğulanıb. BMT, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində səmərəli işbirliyini davam etdirən Azərbaycan ilə Kubanın beynəlxalq hüquq normalarına əsaslanaraq bir-birinin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə birmənalı dəstək verdikləri qeyd olunub.

Görüşdə dövlətlərarası münasibətlərin inkişafında Yeni Azərbaycan Partiyası ilə Kuba Kommunist Partiyasının (KKP) rolu diqqətə çatdırılıb. 2025-ci ilin noyabr ayında YAP nümayəndə heyətinin Kubaya səfəri, eləcə də səfir Karlos Enrike Valdes de la Konsepsyonun ötən ilin oktyabrında YAP-ın evsahibliyi ilə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Bakıda keçirilən tədbirində KKP-ni təmsil etməsi məmnunluqla xatırlanaraq məhsuldar görüşlərin keçirilməsinin, faydalı fikir və təcrübə mübadiləsi aparılmasının, partiyalar arasında çoxşaxəli əməkdaşlığın əsas istiqamət və prioritetlərini müəyyənləşdirən Əməkdaşlıq Sazişinin imzalanmasının əhəmiyyəti qeyd edilib. Sazişdən irəli gələn vəzifələrin icra olunması nəticəsində qarşıda duran hədəflərin gerçəkləşdiriləcəyinə inam ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

***"Azərbaycan"***

# Azərbaycan-Aİ əməkdaşlığı təhlükəsizlik, enerji və nəqliyyat sahələrində dərinləşir

**"Prezident İlham Əliyevin Antonio Koşta ilə görüşü Azərbaycan-Avropa İttifaqı (Aİ) münasibətlərinin strateji əhəmiyyətini bir daha təsdiqləyir. Aİ ilə siyasi dialoq və praktiki əməkdaşlıq təhlükəsizlik, enerji və nəqliyyat sahələrində dərinləşir. Bu, Azərbaycanın Cənubi Qafqazda regional oyunçu, eyni zamanda Aİ üçün Qara Dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülh və dayanıqlı inkişaf təşviqatçısı kimi rolunu gücləndirir. Görüş həmçinin Avropa İttifaqının Azərbaycana geosiyasi marağını və sabitlik istəklərini göstərir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvanə Vəliyeva deyib.

O xatırladıb ki, prezidentlər birgə bəyanat zamanı münasibətlərin qarşılıqlı hörmət, bərabərlik və beynəlxalq hüquq prinsipləri əsasında qurulduğunu bir daha təsdiqləyiblər. Bu, Azərbaycanın postmünaqişə siyasətinin, xüsusilə Ermənistanla sülh və regionun bərpası proseslərinin legitimliyini beynəlxalq müstəvidə dəstəkləyir. Yeni əhatəli ikitərəfli saziş üzrə danışıqlar və yenilənmiş Tərəfdaşlıq Prioritetləri Aİ ilə münasibətlərin hüquqi və institusional çərçivəsini möhkəmləndirir, əməkdaşlığı daha dayanıqlı edir.

"Görüşdə Azərbaycan tərəfindən Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası və mina ilə çirklənmə kimi problemlərin həlli də vurğulanıb. Avropa İttifaqının humanitar mina təmizləmə sahəsində lider donor rolunun önə çıxarılması, regionda sülhün və təhlükəsizliyin qorunmasına beynəlxalq dəstəyin vacibliyini göstərir. "Azerbaijan 2030" proqramı isə ölkəni dayanıqlı postmünaqişə inkişafı nümunəsi kimi təqdim edir, ticarət, nəqliyyat, sərmayə və təmiz enerji sahələrində əməkdaşlıq imkanlarını açır.

Prezidentlər Azərbaycanın regional nəqliyyat və ticarət dəhlizlərində, xüsusilə Orta Dəhliz vasitəsilə rolunu vurğulayıblar. Naxçıvan dəmir yolunun müasirləşdirilməsi və TRIPP layihəsinin icrasına Aİ dəstəyi bir daha vurğulanıb. Avropa İttifaqının qiymətləndirməsi deyir ki, Zəngəzurdan keçəcək dəmir yolu xətti Bakı-Tbilisi-Qars xəttindən ən azı 25 faiz daha sürətli olacaq. Burada həmçinin karqonun fasiləsiz keçidinin təmin olunması üçün rəqəmsal sistemlər, birpəncərə prinsipi ilə fəaliyyət göstərəcək", - deyə P.Vəliyeva əlavə edib.

Görüşdə Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun (WUF13) evsahibliyinin vurğulandığını deyən deputat qeyd edib ki, bu, Aİ ilə dayanıqlı şəhər inkişafı, iqlim və innovasiya sahələrində əməkdaşlığı genişləndirmək üçün fürsət kimi qeyd olunub.

"Görüşdə mütəşəkkil cinayətkarlıq, terror, ekstremizm, insan alveri və qeyri-qanuni miqrasiya ilə mübarizə sahəsində əməkdaşlıq vurğulanıb. Eyni zamanda viza sadələşdirilməsi, təhsil, mədəniyyət və gənclər sahəsində əlaqələrin gücləndirilməsi sosial və mədəni diplomatiyanın vacibliyini göstərir. Prezidentlər həmçinin İran və Ukraynadakı son geosiyasi hadisələri müzakirə ediblər. Bu, Azərbaycanın Aİ üçün regional dialoq və geosiyasi tərəfdaşı kimi əhəmiyyətini göstərir. Beləliklə, Aİ Azərbaycana strateji tərəfdaş kimi uzunmüddətli investisiya və dəstək verməyə hazır olduğunu ifadə edib", - deyə P.Vəliyeva bildirib.

GLOBAL BAKU FORUM

# XIII Qlobal Bakı Forumu




## Azərbaycan həqiqətlərini dünyaya çatdıran platforma

### İlham ƏLİYEV: "Sülhdən daha yaxşı heç nə yoxdur"

**Martın 12-14-də Bakı şəhəri növbəti dəfə dünya siyasətinin mərkəzinə çevrildi. Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən XIII Qlobal Bakı Forumu "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr olundu.**

Bu forum artıq bəşəriyyəti narahat edən ən mürəkkəb problemlərin həll yollarının axtarıldığı intellektual məkana çevrilib.

Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılışındakı çıxışında müasir dünyanın acı reallıqlarına toxunaraq qeyd etdi: "Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində birnömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır".

### Beynəlxalq etimadın ünvanı

Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu onu müxtəlif sivilizasiyaların və siyasi qütblərin kəsişmə nöqtəsinə çevirib. Ölkəmiz uzun illərdir ki, dialoq tərəfdarı kimi çıxış edir və qlobal qərarların qəbulunda fəal iştirak edir. Bakı Forumu isə bu prosesdə xüsusi rola malikdir.

Forumun əhəmiyyəti ondadır ki, Azərbaycan bu platformadan öz haqlı səsini dünyaya duyurmaq üçün istifadə edir. Torpaqlarımızın işğal altında olduğu illərdə Bakı Forumu beynəlxalq hüququn ikili standartlarını ifşa edən bir tribunaya çevrilmişdi. Ölkəmiz hər zaman dünya ictimaiyyətinə xatırladırdı ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması təkcə Azərbaycanın problemi deyil, bütövlükdə dünya nizamının böhranıdır.

XIII forumda Prezident İlham Əliyev həmin acı təcrübəni bu fikirləri ilə xarakterizə etdi: "Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur".

Bu gün isə mənzərə tamamilə fərqlidir. Azərbaycan 44 günlük Vətən müharibəsi və 23 saatlıq antiterror tədbirləri ilə ədaləti bərpa edib. İndi Bakı Forumu işğaldan deyil, yeni reallıqlardan və bərpa prosesindən danışılan qələbə platformasıdır.

Prezident İlham Əliyevin sözügedən toplantıda qeyd etdiyi kimi, sülhə nail olmaq üçün bəzən güc tətbiqi qaçılmaz olur:

"Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi".

### Azərbaycanın sülh modeli unikal bir hadisədir

Azərbaycanın qələbəsi Cənubi Qafqazda onilliklərdir davam edən münaqişəyə son qoydu. Artıq region münaqişə ocağı kimi deyil, nəqliyyat və logistika mərkəzi kimi tanınır. Vaşinqton Sammiti və sülh prosesi istiqamətində atılan addımlar, həmçinin Zəngəzur dəhlizi (TRIPP) kimi təşəbbüslər bölgənin simasını dəyişir.

Azərbaycanın sülh modeli unikal bir hadisədir. Adətən, müharibədə qalib gələn tərəf diktə edən tərəf olur, lakin Azərbaycan düşmənçiliyə son qoymaq üçün ilk addımı atan və sülh əlini uzadan ölkədir. Bu, dövlətimizin humanistliyini və strateji uzaqgörənliyini göstərir. Ermənistanla münasibətlərin normallaşma sürəti dünya münaqişələr tarixində nadir hallardan biridir.

XIII Qlobal Bakı Forumunda dövlətimizin başçısı sülh prosesinin gedişatını belə dəyərləndirdi: "Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu".

Prezident həmçinin vurğuladı ki, artıq bölgədə sabitlik hökm sürür və bu, ən böyük nailiyyətdir: "Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".

Azərbaycanın bu sülhsevər siyasəti beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi və ölkəmizin Sülh Şurasında təsisçi üzv kimi təmsil olunması bunun bariz sübutudur.

Qlobal Bakı Forumunun timsalında deyə bilərik ki, Azərbaycan bu gün eyni zamanda beynəlxalq gündəmi formalaşdıran mühüm ideya mərkəzidir. Bu forumun ölkəmiz üçün ən böyük əhəmiyyəti Azərbaycan həqiqətlərinin nüfuzlu səviyyədə dünya ictimaiyyətinə çatdırılmasıdır. Azərbaycanın keçmiş işğal dövründə qarşılaşdığı ədalətsizlikləri, BMT TŞ-nin qətnamələrinin niyə icra olunmadığını, ölkəmizin öz gücü ilə beynəlxalq hüququ necə bərpa etdiyini, həmçinin bölgədə sülhə necə nail olduğunu bütün dünya bu kürsüdən eşidir.

Bir sözlə, hər zaman olduğu kimi, bu dəfə də Qlobal Bakı Forumu Azərbaycanın həqiqətlərinin beynəlxalq səviyyədə təsdiqi oldu. İndi ölkəmiz dünyada təkcə enerji və nəqliyyat mərkəzi kimi yox, həm də ədalətli sülh modelinin müəllifi kimi tanınır. Bakıdan yayılan bu mesajlar göstərir ki, bölgədə sülh artıq reallığa çevrilib və bu gerçəkliyin memarı məhz Azərbaycandır.

Prezident İlham Əliyevin XIII Qlobal Bakı Forumundan bəyan etdiyi kimi: "İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir".

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Nüfuzlu siyasət liderlərinin görüş yeri dəyişmir

### Qlobal Bakı Forumu bu dəfə də müzakirə olunan məsələlərin aktuallığı ilə seçildi

**Müasir dünya bəlkə də tarixin ən mürəkkəb və taleyüklü mərhələsini yaşayır. Qlobal təhlükəsizlik sistemində yaranan yeni risklər, regionlarda baş verən münaqişələr, enerji və iqlim böhranı, həmçinin texnoloji inqilab beynəlxalq münasibətlər sistemini sürətlə və köklü şəkildə dəyişdirir.**

Belə bir dövrdə dövlətlər və xalqlar arasında dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq hər zamankından daha böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən dünyanın nüfuzlu siyasi xadimlərinin, sabiq prezident və baş nazirlərin, beynəlxalq təşkilatların rəhbərlərinin və tanınmış alimlərin bir araya gəldiyi Qlobal Bakı Forumu artıq siyasi fikir mübadiləsinin ən mühüm platformalarından biri kimi qəbul olunur. Bakı bu gün yalnız regionun deyil, bütövlükdə dünyanın diqqət mərkəzinə çevrilərək beynəlxalq dialoqun və siyasi müzakirələrin aparıldığı mühüm məkana çevrilib.

Dünyanın qlobal problemlərinin paytaxtımızda müzakirə olunması beynəlxalq münasibətlərdə qarşılıqlı anlaşmanın və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Məhz bu baxımdan həmin platformalar arasında xüsusi nüfuzu və əhəmiyyəti ilə seçilən Qlobal Bakı Forumudur. Bu forum artıq dünya problemlərinin müzakirə olunduğu mühüm siyasi-intellektual platformaya çevrilib.

Bu il keçirilən XIII Qlobal Bakı Forumu da ən aktual beynəlxalq problemlərin müzakirə olunduğu mühüm tədbir kimi diqqət çəkir. Dünyanın müxtəlif ölkələrindən onlarla nüfuzlu siyasətçi, sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, alim və ekspertlər forum çərçivəsində bir araya gələrək qlobal gündəliyin mühüm məsələləri ətrafında fikir mübadiləsi aparırlar.

Forumun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev müasir dövr beynəlxalq münasibətlər sistemində baş verən proseslərə, qlobal təhlükəsizlik məsələlərinə və regionda yaranmış yeni siyasi reallıqlara toxunmuşdur. Dövlətimizin başçısının çıxışı həm regional, həm də qlobal siyasətin aktual istiqamətlərini əhatə edən geniş və əhatəli siyasi təhlil kimi dəyərləndirilir.

Prezident İlham Əliyev forumun beynəlxalq əhəmiyyətinə toxunaraq qeyd etmişdir: "Qlobal Bakı Forumu artıq dünyanın mühüm beynəlxalq platformalarından birinə çevrilib. Burada müzakirə olunan məsələlər qlobal gündəliyin ən aktual problemlərini əhatə edir və bu müzakirələr beynəlxalq ictimaiyyət üçün daha yaxşı anlaşma mühitinin formalaşmasına xidmət edir".

Dövlətimizin başçısı çıxışında onu da vurğulamışdır ki, qlobal problemlərin həlli yalnız qarşılıqlı hörmətə əsaslanan dialoq və beynəlxalq əməkdaşlıq yolu ilə mümkündür. Bu baxımdan Qlobal Bakı Forumu müxtəlif ölkələr və mədəniyyətlər arasında körpü rolunu oynayan mühüm beynəlxalq platformadır.

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, forumun nüfuzu onun iştirakçılarının tərkibində də özünü göstərir. Forum iştirakçıları sırasında Latviyanın sabiq prezidenti Vaira Vike Freiberga, Finlandiyanın sabiq prezidenti Tarja Halonen, Serbiyanın sabiq prezidenti Boris Tadiç, Bolqarıstanın sabiq prezidenti Rosen Plevneliev, Ərəb Dövlətləri Liqasının sabiq baş katibi Amr Moussa kimi nüfuzlu şəxslərin iştirak etməmələri bu tədbirin beynəlxalq miqyasda siyasi çəkisinin və nüfuzunun göstəricisidir.

Forum çərçivəsində müzakirə olunan mövzular - beynəlxalq təhlükəsizlik və geosiyasi dəyişikliklər, yeni dünya düzəninin formalaşması, enerji təhlükəsizliyi və "yaşıl enerji" keçidi, iqlim dəyişiklikləri, rəqəmsal texnologiyalar və süni intellekt, regional münaqişələrin həlli, humanitar və mədəni əməkdaşlıq kimi məsələlər göstərir ki, Qlobal Bakı Forumu yalnız siyasi müzakirə meydanı deyil. Bu platformada həm də dünyanın gələcəyi ilə bağlı mühüm ideyalar, strateji yanaşmalar və yeni təşəbbüslər formalaşır.

Forumun "Çin və Qlobal İdarəetmə Təşəbbüsü" mövzusu dünyada ÇXR-in rolunun artdığı bir dövrdə xüsusi aktuallıq kəsb edir. Beynəlxalq aləmdə yeni iqtisadi güc mərkəzlərinin formalaşdığı, qlobal ticarət marşrutlarının dəyişdiyi və beynəlxalq idarəetmə mexanizmlərinin yenilənməsi fonunda Çinin irəli sürdüyü təşəbbüslər beynəlxalq siyasətdə geniş müzakirə mövzusu olur.

Bosniya və Herseqovinanın sabiq prezidenti Mladen İvaniçin moderatorluğu ilə keçirilən panel iclasda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Çinin Avropa məsələləri üzrə sabiq xüsusi nümayəndəsi Vu Honqbonun, İtaliyanın sabiq Baş naziri Romano Prodi, Sloveniyanın sabiq prezidenti Borut Pahor, Özbəkistan Prezidentinin yanında Təhlükəsizlik Şurası katibinin birinci müavini Eldor Aripov və iqtisadçı-çinşünas Josef Mondlin çıxışları, aparılan müzakirələr xüsusilə Azərbaycanın Çin ilə əməkdaşlığının genişləndiyi bir dövrdə mühüm əhəmiyyət kəsb edir. İqtisadi əlaqələrin inkişafı, nəqliyyat-logistika layihələri və Avrasiya məkanında yeni iqtisadi marşrutların formalaşması Azərbaycan-Çin münasibətlərinə yeni məzmun verir. Bu baxımdan forum çərçivəsində aparılan müzakirələr həm regional iqtisadi əməkdaşlığın, həm də qlobal idarəetmə mexanizmlərinin gələcək perspektivlərini anlamaq baxımından böyük maraq doğurur.

Dünya sürətlə dəyişdiyi, yeni geosiyasi reallıqlar formalaşdığı bir dövrdə Qlobal Bakı Forumu artıq sadəcə beynəlxalq tədbir deyil, həm də qlobal dialoqun, siyasi düşüncənin və beynəlxalq əməkdaşlığın mühüm tribunası, Bakı isə dünyanın gələcəyi haqqında düşünən insanların görüş məkanı, qlobal dialoq və əməkdaşlığın simvolu kimi tanınır.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## AÇG tükənməyib

### Bu yataqlar bloku indi isə dərin laylarından təbii qaz vəd edir

**"Azəri-Çıraq-Günəşli" (AÇG) hazırda dünyada istismar olunan ən böyük və ən məhsuldar laylara malik karbohidrogen yataqlarından biridir. Bu həqiqəti BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli də təsdiqləyir.**

Keçən həftə jurnalistlər üçün keçirdiyi brifinqdə C.Kristofoli BP-nin operator olaraq AÇG layihəsi çərçivəsində əsas vəzifəsinin, daha doğrusu, ölkəmiz qarşısında öhdəliyinin mümkün qədər çox neft hasil etmək olduğunu söyləyib. O, eləcə də bu yataqlar blokunda iş icrasının ən yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

Qarşıya qoyulan vəzifəni, yəni imkan daxilində daha çox neft çıxarmaq məsələsini həll etmək üçün əvvəla quyuların sayı artırılır. Layların gücləndirilməsi onların neftvermə əmsalının artırılması da mühüm şərtdir. Belə ki, laylara təzyiq artırılmalıdır - su və qaz vurulmalıdır. Həm də bunun üçün lazımi nöqtə tapılmalıdır. Bu işlər də uğurla icra edilir.

Hasilatı sabit saxlamaq üçün həmçinin yeni texnologiyalar tətbiq olunur. Seysmik tədqiqatlar aparılır ki, neftin harada toplanıb qaldığı aşkarlansın və məhz oradan hasilata başlansın. Bu məqsədlə horizontal quyular qazılır. Məsələn, 1100 metrlik üfüqi bir quyu artıq qazılıb.

Cio Kristofoli ona AÇG-də hasilatın doğrudanmı azaldığı barədə tez-tez suallar verildiyini deyir. Hasilatın aşağı düşdüyü barədə danışmaqdansa, buna vaxt sərf etməkdənsə, düşünmək, yeni işlər görmək lazımdır. Və AÇG-nin hələ böyük imkanları var. Məsələn, bu yataqlar blokunun laylarındakı sərbəst təbii qaz (STQ) ehtiyatı. BP-nin regional prezidentinin fikri məhz belədir.

AÇG-nin mövcud Hasilatın Pay Bölgüsü Sazişinə STQ ilə bağlı yeni əlavənin imzalanmasından sonra ilkin hasilat quyusu planlaşdırılmış və quyu "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılmışdır. Bu quyu qiymətləndirmə baxımından da çox əhəmiyyətlidir, çünki quyudan əldə edilən məlumatlar AÇG-dəki STQ ehtiyatlarının işlənməsi üçün gələcək planların hazırlanmasına kömək edəcək.

Keçən il quyuda qazma işləri uğurla tamamlanmış və hazırda hasilatda olan neft laylarının altında yerləşən iki prioritet STQ layına - daha dayaz "Qırmakıüstü Qumlu" və daha dərin "Qırmakıaltı" lay dəstlərinə çıxış təmin edilmişdir.

Quyu ilk STQ hasilatı üçün əsas hədəf lay sayılan "Qırmakıüstü Qumlu" lay dəstində mavi yanacaq ehtiyatlarının mövcudluğunu təsdiqləmişdir. Bu laydan hasilat cari ilin təxminən yayında planlaşdırılır.

Bundan əlavə, "Qırmakıaltı" lay dəstində də yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar edilmişdir və 2026-cı ilin birinci yarısında bu laydan hasilata başlamaq planlaşdırılır. Lakin bu, sınaq məqsədilə aparılacaq qısamüddətli hasilat kimi nəzərdə tutulur və bundan sonra ilin ikinci yarısından başlayaraq, daha dayazda yerləşən "Qırmakıüstü Qumlu" layından hasilata start veriləcək.

Xatırladaq ki, 2025-ci il ərzində AÇG yataqlar blokundan stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. AÇG-dən - "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE platformalarından ümumi hasilat gündə orta hesabla 330 min barel, il ərzində ümumilikdə təxminən 120 milyon barel, yəni 16 milyon ton olub.

İl ərzində AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 2,7 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.



*Flora SADIQLI, "Azərbaycan"*




# Bakı qlobal çağırışların həllində həlledici məkana çevrilib

**Azərbaycanın paytaxtı Bakı şəhəri növbəti dəfə dünya siyasətinin mühüm müzakirə mərkəzinə çevrilərək "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumuna evsahibliyi edir. Dünyanın aparıcı beyin mərkəzlərindən sayılan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən bu möhtəşəm tədbir Bakının qlobal çağırışların həllində həlledici məkana çevrildiyini bir daha bütün dünyaya nümayiş etdirir. Bu mötəbər toplantı Azərbaycanın beynəlxalq aləmdə sülh, dialoq və əməkdaşlıq tərəfdarı kimi artan nüfuzunun növbəti təsdiqidir.**

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında deyib ki, forumun açılış mərasimində dövlət başçısı Azərbaycanın təkcə regional deyil, həm də qlobal miqyasda dialoq və əməkdaşlıq mərkəzi kimi strateji rolunu xüsusi vurğulayıb: "Mərkəzin illər ərzində formalaşdırdığı yüksəksəviyyəli fəaliyyəti bu gün onu beynəlxalq münasibətlər sistemində əvəzolunmaz bir instituta çevirib. Xüsusilə xanım Vike-Freyberqa və cənab Serageldin kimi təcrübəli siyasətçilərin rəhbərliyi ilə fəaliyyət göstərən bu qurum dəyişən dünya nizamına uyğun yeni və obyektiv yanaşmaların işlənib hazırlanmasında misilsiz töhfələr verir. Bu gün Qlobal Bakı Forumu öz nüfuzuna və iştirakçı heyətinin səviyyəsinə görə dünyanın ən mötəbər sammitləri ilə eyni sırada dayanır. Forumda bir araya gələn liderlər və görkəmli ictimai xadimlər müasir dünyanı narahat edən təhlükəsizlik, iqtisadi sabitlik və ekoloji çağırışları müzakirə edərək bəşəriyyətin gələcək inkişafı üçün konkret təkliflər irəli sürürlər".

Deputat diqqətə çatdırıb ki, Nizami Gəncəvi irsinin humanizm prinsiplərini rəhbər tutan bu platforma müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynayaraq, xalqların həyatını daha təhlükəsiz və daha yaxşı etmək naminə qlobal həmrəyliyin gücləndirilməsinə xidmət edir. Bakıdan yayılan bu sülh və əməkdaşlıq mesajları Azərbaycanın beynəlxalq aləmdə sülhün qarantı və dialoq carçısı kimi statusunu bir daha sarsılmaz edir. Ölkəmiz regional təhlükəsizlik məsələsində dünya miqyasında nadir və həlledici bir təcrübəyə malikdir. Təxminən 30 il ərzində ərazilərinin 20 faizinin işğal altında qalmasından, etnik təmizləmələrdən və beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkən ölkəmiz beynəlxalq hüququn kağız üzərində qalan qətnamələrini öz gücü ilə icra etdi. BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edən Azərbaycan tam suverenliyini həm döyüş meydanında, həm də diplomatik masada bərpa etdi. Azərbaycan və Ermənistan arasında 2023-cü ilin sentyabrından 2025-ci ilin avqustuna qədər olan qısa müddətdə sülhün əldə edilməsi dünya münaqişələr tarixinə "normallaşmanın görünməmiş sürəti" kimi düşüb. Cəmi yeddi aydır sülh şəraitində yaşayan regionumuz artıq bu sabitliyin real bəhrələrini görməkdədir. Bu uğur sübut edir ki, güclü siyasi iradə və sadiqlik olduqda, ən mürəkkəb münaqişələr ədalətli həllini tapa bilər. Bu gün qlobal xəritədə yeni gərginlik nöqtələrinin yaranması beynəlxalq hüquq sisteminə ciddi təhdiddir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

K.Bayramov vurğulayıb ki, Qlobal Bakı Forumunda dövlətimizin başçısı tərəfindən səsləndirilən fikirlər Azərbaycanın həm regional sülhün memarı, həm də qlobal enerji təhlükəsizliyinin etibarlı zəmanətçisi olduğunu bir daha sübut etdi: "Ölkəmizin təcrübəsi göstərir ki, ədalətli sülhə nail olmaq üçün bəzən qətiyyətli güc tətbiqi qaçılmazdır, lakin bu güc hər zaman beynəlxalq hüququn aliliyinə xidmət edir. Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılmasında dünya diplomatiya tarixinə yeni bir model qazandırdı. Onilliklər boyu münaqişəni dondurmağa və təzyiq alətinə çevirməyə çalışan vasitəçilik formatlarından imtina edən rəsmi Bakı ikitərəfli birbaşa dialoqun effektivliyini sübut etdi. Bu gün Azərbaycan təkcə sülh bəyanatları vermir, həm də bu sülhü real iqtisadi addımlarla möhkəmləndirir. Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün maneələr ləğv edilib. Qonşu ölkə üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başlanılıb. Bu addımlar Azərbaycanın müvəqqəti deyil, əbədi sülhə sadiq olduğunun və bölgədə iqtisadi inteqrasiyanın tərəfdarı kimi çıxış etdiyinin göstəricisidir".

Deputat bildirib ki, müasir dünyada enerji təhlükəsizliyi artıq iqtisadi məsələ deyil, milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Azərbaycan bu sahədə həm istehsalçı, həm də tranzit ölkə kimi məsuliyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan bütün enerji seqmentlərinin - neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur: "Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək".

K.Bayramov əlavə edib ki, Prezident İlham Əliyevin forumdakı çıxışı Azərbaycanın həm hərbi-siyasi qüdrətinin, həm də humanitar və iqtisadi diplomatiyasının təntənəsidir. Ölkə rəhbərinin vurğuladığı kimi, Azərbaycanın iki hissəsini birləşdirəcək nəqliyyat infrastrukturunun qurulması təkcə milli deyil, həm də beynəlxalq əhəmiyyətli bir layihədir. Bu yeni istiqamət bölgədəki bütün ölkələr üçün iqtisadi dividend və təhlükəsizlik vəd edir. Ölkəmiz artıq, sadəcə, enerji ixracatçısı deyil, həm də müasir nəqliyyat arxitekturasının və sülh modellərinin əsas müəllifidir. Xüsusilə COP29-un yüksək səviyyədə təşkili və Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə səmərəli əməkdaşlıq göstərir ki, Azərbaycan bəşəriyyəti narahat edən iqlim dəyişikliyi kimi qlobal çağırışlarda aparıcı rol oynayır. Bu il evsahibliyi edəcəyimiz Ümumdünya Şəhərsalma Forumu isə Bakının dayanıqlı inkişaf sahəsindəki uğurlarını dünyaya təqdim etmək üçün növbəti bir platforma olacaqdır. Bir daha şahidi olduq ki, Azərbaycanın xarici siyasət strategiyası real nəticələrə söykənir. Ermənistanla əldə edilən birbaşa sülh, bərpa olunan nəqliyyat əlaqələri və qlobal forumlardakı aktiv iştirakımız göstərir ki, dövlətimiz dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi yolunda öz tarixi missiyasını layiqincə yerinə yetirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanda dövlət çevrilişinə cəhdin "dəfn"indən 31 il ötür

**Dövlətimizə və dövlətçiliyimizə qarşı çevriliş cəhdindən 31 il keçir. 1995-ci il martın 12-dən 13-nə keçən gecə Qazax rayonunun Xüsusi Təyinatlı Polis Dəstəsinin bölmələri Müdafiə Nazirliyinin həmin ərazidəki hərbi hissələrindən birinə silahlı basqın edərək 5 zirehli texnikanı ələ keçirdilər. Bununla onlar Mahir və Rövşən Cavadov qardaşlarının tapşırıqlarını yerinə yetirərək Qazax və Ağstafada, həmçinin ətraf bölgələrdə Azərbaycanın qanuni hakimiyyətinə qarşı qanunsuz addımlar atmış oldular.**

Hərbi hissədə ələ keçirdikləri zirehli texnikalarla kifayətlənməyən qara qüvvələr XTPD əməkdaşlarının rəhbərliyi ilə həmin gecə əksəriyyəti maska taxmış 200-300 silahlı şəxs 4 hərbi texnika ilə Qazax Rayon Polis Şöbəsinə hücum etdilər. Şöbəyə məxsus 217 avtomat, 217 tapança, 18 qumbaraatan və digər hərbi ləvazimatlar götürərək poçt və rayon icra hakimiyyətinin inzibati binasını tutdular. Daha sonra qonşu Ağstafa Rayon Polis Şöbəsinə basqın edərək şöbəyə məxsus 35 avtomat, 52 tapança, 2 qumbaraatan, 1 pulemyot və digər sursatlar ələ keçirdilər. XTPD-nin bir qrup silahlı əməkdaşı Bakı-Qazax yolunun Tovuz rayonunun sərhədində yerləşən yol nəzarət məntəqəsinə hücum edərək polis şöbəsinin əməkdaşlarından zorla 8 avtomat və 2 tapança götürdülər.

Quldur dəstə Müdafiə Nazirliyinin Tovuzda yerləşən hərbi hissəsinə də silahlı basqın edərək buradakı əsgərləri sıralarına qoşub qüvvələrini artırmağa çalışdılar. Amma ciddi müqavimətlə üzləşdiklərinə görə niyyətləri baş tutmadı. Hərbi hissənin şəxsi heyəti cinayətkarların hücumlarını qətiyyətlə dəf etdi. Qısa müddət davam edən döyüş nəticəsində hökumət qoşunları quldurlardan əvvəllər ələ keçirilmiş zirehli texnikaları geri aldı, üstəlik, basqınçıları "Cavanşir" restoranının yaxınlığında tutduqları mövqedən qovub çıxardılar. Ulu Öndərin atdığı qətiyyətli addımlar, hüquq-mühafizə orqanlarının gördüyü operativ tədbirlər nəticəsində hər iki rayonda dövlət orqanlarının fəaliyyəti bərpa olundu. Ardınca daxili işlər nazirinin 14 mart 1995-ci il tarixli əmri ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi.

Ölkəmiz üçün gərgin olan həmin günlər, daha dəqiq, 1995-ci il martın 15-də Prezident Heydər Əliyev xalqa müraciət etdi. Dövlət başçısı müraciətində Surət Hüseynovun, Rövşən və Mahir Cavadov qardaşlarının, onlarla əlbir olan radikal müxalifət nümayəndələrinin dövlət çevrilişi cəhdini pisləyərək qanunsuz silahlı qruplaşmalara cinayət əməllərindən əl çəkmələri barədə xəbərdarlıq etdi. Prezident Cavadov qardaşlarının ataları ilə də söhbət apardı, ona övladlarını vətəndaş müharibəsi və silahlı qarşıdurma yaratmaqdan çəkindirməyi tövsiyə etdi.

Təəssüflər olsun ki, Qazaxda və Ağstafada baş vermiş qanlı hadisədən bir neçə gün sonra - martın 16-17-də Rövşən Cavadovun rəhbərliyi ilə cinayətkar dəstə bu dəfə ölkənin paytaxtı Bakıda dövlət çevrilişinə cəhd etdi. Halbuki 2 gün öncə XTPD-nin buraxılması və onun üzvlərinin 3 gün ərzində silahı təhvil vermələri barədə əmr imzalanmışdı. Ancaq buraxılmış dəstənin başçısı Rövşən Cavadov və qardaşı Mahir Cavadov əmrə tabe olmadılar.

Hadisələrin gərgin gedişindən hiss olunurdu ki, dövlət çevrilişinə cəhd edən Rövşən Cavadov və onun ətrafı hakimiyyəti silah gücünə ələ keçirməkdə israrlıdır. Onlar dövlət başçısını, ağsaqqalları, ziyalıları, hətta yaşlı atalarını belə eşitmək istəmirlər. R.Cavadovun iddiası çox böyük idi. O, dövlət başçısı olmaq istəyirdi. Həmin günlər cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı qəzəb və nifrət yaranmışdı. Xalq israrla dövlət başçısından xəyanətkar və cinayətkar qüvvələrin zorakı əməllərinə, çirkin niyyətlərinə son qoyulmasını tələb edirdi. Təbii ki, böyük dövlətçilik təcrübəsi olan Heydər Əliyev xalqın bu tələbinə biganə qala bilməzdi. Ulu Öndərin müdrikliyi, uzaqgörən siyasəti nəticəsində müstəqilliyimizin itirilməsinə hesablanmış qəsdin qarşısı qətiyyətlə alındı.

Ümummilli Liderin dövlət çevrilişinə cəhdin qarşısını qətiyyətlə alması Azərbaycan xalqının işıqlı sabaha, xoş gələcəyə olan ümidlərini daha da artırdı. Az müddət ərzində ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi, həyat öz normal axarına düşdü. Ulu Öndər Heydər Əliyev dünyanın güclü dövlətlərinin rəhbərləri, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, işgüzar dairələrlə yüksəksəviyyəli rəsmi görüşlər keçirdi, danışıqlar apardı. Bu görüş və danışıqlarda Azərbaycan həqiqətlərini, dövlətimizin mövqeyini dünyaya çatdırdı. Zaman keçdikcə dünyanın ölkəmizə diqqət və marağı daha da artdı, Azərbaycanın siyasi-iqtisadi əlaqələri və coğrafiyası genişləndi, dünyanın aparıcı dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları ilə çox mühüm müqavilə və sazişlər imzalandı. Ən əsası bütün bunlardan sonra heç bir qara qüvvə və cinayətkar dəstə Azərbaycanda bir daha dövlət çevrilişinə cəhddə bulunmağa cürət etmədi. Çünki bildilər ki, belə olacaq halda qarşılarında güclü dövləti və qətiyyətli lideri görəcəklər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Zəngəzur dəhlizinin açılması Orta dəhliz üzərindən əlavə 15 milyon ton yükün daşınmasına imkan verəcək

## Bu da hər il ölkəmiz üçün 3 milyard dollar qazanc deməkdir

**Bu gün dünyada baş verən gərgin geosiyasi vəziyyət, o cümlədən Rusiya-Ukrayna müharibəsi və Qırmızı dəniz-Süveyş kanalı boyunca yaranan hərbi münaqişələr iki ənənəvi qlobal ticarət marşrutlarını iflic vəziyyətə salıb. O səbəbdən hazırda Orta dəhliz beynəlxalq aləmdə təhlükəsiz və iqtisadi cəhətdən səmərəli yeganə marşrut kimi qəbul olunur.**

Əvvəllər bu dəhlizin fəaliyyətində ən çox maraq göstərən tərəf Çin idi. İndi Avropada da dəhlizə olan maraq son dərəcə artıb. Səbəbi bəllidir: Rusiya-Ukrayna müharibəsi üzündən Asiya ilə Avropa arasında mühüm ticarət dəhlizinin nə vaxt fəaliyyət göstərəcəyi və Cənub marşrutunda təhlükənin nə vaxt bitəcəyi məlum deyil. Üstəlik, ABŞ-İsrail-İran müharibəsi qlobal logistikada yeni problemlər yaradıb.

Bunların fonunda Prezident İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Bakıda birgə mətbuat üçün imzaladıqları bəyanatın 8-ci bəndində bəyan etdikləri mövqe təsadüfi deyil: "Prezidentlər Azərbaycanın regional daşımalarda, xüsusilə də Orta dəhliz vasitəsilə Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında nəqliyyat, ticarət, enerji və rəqəmsallaşma sahələrində əlaqələrin gücləndirilməsində oynadığı aparıcı rolu vurğulayıblar. Avropa İttifaqı "Qlobal Qapı" çərçivəsində daşımalar, digər müvafiq mexanizmlər, o cümlədən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında dəmir yolunun müasirləşdirilməsinə dəstək, həmçinin TRIPP-ın icrası üzrə davam edən səylərlə bağlı Azərbaycanla əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib. Onlar "Qlobal Qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Aİ iqtisadi əməkdaşlığını və sərmayələrini gücləndirmək üçün İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılmasını alqışlayıblar".




Orta dəhlizə olan marağın artmasına səbəb olan amillərdən biri də Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə Vaşinqtonda Ermənistanla Azərbaycan arasında sənədin imzalanmasıdır. Artıq bu gün hamı qəbul edir ki, Orta dəhlizdə mühüm seqmentinə çevriləcək Zəngəzur dəhlizi yüklərin fasiləsiz və daha qısa marşrutla daşınmasında önəmli rol oynayacaq.

Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov bildirir ki, Orta dəhliz üzərindən daşınan yüklərin 10-15 faizinin Zəngəzur dəhlizindən keçəcəyi halda ölkəmiz yaxın gələcəkdə ildə 3 milyard dollar tranzit gəlir əldə etmək imkanı qazanacaq. V.Bayramov bunu ABŞ və İsrailin İrana qarşı müharibəyə başladıqdan sonra regionda geosiyasi təhdidlərin daha da artması ilə əlaqələndirib: "Bölgədəki yeni düzən Azərbaycan və Ermənistan arasında nəqliyyat və eləcə də iqtisadi əlaqələrin yenidən bərpasını daha da aktuallaşdırıb. İki ölkə arasındakı münasibətlərdə mühüm məqamlardan biri də Zəngəzur dəhlizinin istifadəyə verilməsidir. Dəhlizin bir elementi olacaq "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu"nun (TRIPP) inşası Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru nəqliyyatının bərpasına imkan verəcək".

Deputat həmçinin onu da bildirib ki, 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi eyni zamanda regionun inkişafına xüsusi töhfə verəcək: "Yaxın gələcəkdə Orta dəhlizin mühüm seqmentinə çevriləcək Zəngəzur dəhlizi Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına da imkan yaradacaq. Qitələr arasındakı ticarət dövriyyəsinin 200 milyard dollar artacağı gözlənilir".

"Orta və Zəngəzur dəhlizləri əməkdaşlıq üçün yeni imkanlar açır. Regional əməkdaşlıqlar təkcə iqtisadi deyil, regionlar, cəmiyyətlər arasında körpü deməkdir" - bunu isə Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım XIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edərkən deyib. Qonaq dünyada münaqişələr fonunda baş verən prosesləri belə qiymətləndirib: "Son qlobal proseslər göstərir ki, Orta dəhliz, Zəngəzur dəhlizi kimi alternativ əlaqələrin əhəmiyyəti danılmazdır, əməkdaşlıq üçün yeni imkanlar açır". Binəli Yıldırım həmçinin bildirib ki, ABŞ-nin İranla münaqişəsi logistika əlaqələrinə mənfi təsir edir, ona görə şaxələndirilmiş və əhatəli nəqliyyat dəhlizlərinin getdikcə iqtisadi əhəmiyyəti artır: "Hazırda Çinlə Avropa arasında ticarət dövriyyəsi 800 milyard dollardan artıqdır. Demək olar ki, illik 1 trilyon dollara çatır. Ona görə də Orta dəhlizin əhəmiyyəti beynəlxalq səviyyədə getdikcə artır".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Praqmatik qərar, qətiyyətli mövqe, qarşılıqlı maraq

### Bunlar Azərbaycan liderinin xarici siyasətdə qazandığı uğurlarının açarıdır

**İkinci Dünya müharibəsindən sonra yaranan beynəlxalq münasibətlər sovetlər birliyinin və sosialist düşərgəsinin dağılması ilə başa çatmış və bununla illərlə mövcud olmuş ikiqütblü dünya ömrünü başa vurmuşdur. İndi isə bunun fəsadını yaşayan dünyada dövlətlərarası və beynəlxalq münasibətlər yenidən qurulur.**

Bunun üçün təzə ittifaqlar formalaşmalı, yeni beynəlxalq qanunlar və təşkilatlar yaradılmalı, ya da köhnələr yenidən qurulmalıdır. Əks halda bugünkü qlobal xaosun hər an üçüncü dünya müharibəsinə çevrilmək təhlükəsi var. Buna heç kəsin şübhəsi olmasın. Beynəlxalq hüququn ayaqlar altına atılması, ciddi bir səbəb olmadan dövlətlərin bir-birilərinin ərazisinə təcavüz etməsi, güclünün zəifin ərazi bütövlüyünü və suverenliyini pozması nəhayətsiz davam edə bilməz ki... Əvvəl-axır bunun sonu olmalıdır, ya yox?!

Bax belə bir acınacaqlı geosiyasi və hərbi qarşıdurmalar fonunda Prezident İlham Əliyevin apardığı xarici siyasət mükəmməlliyi ilə seçilir. Yalnız bu hesaba indiki qarşılıqlar içində dövlətimizin milli maraqlarını qətiyyətlə qoruya bilirik. Təsadüfi deyil ki, ölkəmizin bu gün apardığı çoxvektorlu xarici siyasət bizə bütün siyasi platformalarda iştirak etməyə imkan verir. Məsələn, Azərbaycan Avropanın 9 ölkəsi ilə strateji tərəfdaşlığa dair sənəd imzalayıb, "qoca qitə"nin 10-dan çox ölkəsinə təbii qaz ixrac edir. Bu faktlar onu göstərir ki, ölkəmiz Avropa üçün siyasi və iqtisadi sahədə etibarlı tərəfdaşdır, baxmayaraq ki, həmin əlaqələrin qurulmaması üçün "qoca qitə"də əleyhimizə çalışan qoca qüvvələr az deyil.

Onların qarşısını almaq və Avropa ölkələri ilə qarşılıqlı faydalı mehriban münasibətlər qurmaq üçün Prezident İlham Əliyev uzun illər diplomatik gedişlər etmişdir.

Dövlətimizin başçısı illər öncə görürdü ki, yeni dünya düzənində ölkələrarası münasibətlərdə iqtisadi maraqlar önə keçir. Xarici siyasətdə iqtisadi əməkdaşlığa üstünlük verilərsə, siyasi münasibətlər öz-özünə yaxşılığa doğru dəyişəcək. Belə də oldu. İndi Azərbaycan Avropanın enerji təhlükəsizliyində ciddi payı olan ölkədir. Üstəlik, yaxın gələcəkdə Azərbaycan Avropaya "yaşıl enerji" də ixrac edəcək.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolunu biz dövlətimizin başçısı İlham Əliyevlə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın birgə mətbuata bəyanatının 9-cu bəndində də aydın görə bilərik: "Prezidentlər uzunmüddətli vacib enerji tərəfdaşlığını xatırladaraq, Avropanın enerji təchizatının şaxələndirilməsində etibarlı tərəfdaş kimi Azərbaycanın rolunu etiraf ediblər və 2022-ci ildə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun davamlı icrasına sadiqliklərini bildiriblər. Onlar "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət Şurasının əhəmiyyətini, külək və günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri sahəsində enerji əməkdaşlığının genişləndirilməsi potensialını, həmçinin Qara dəniz sualtı kabeli layihəsi kimi qarşılıqlı elektrik enerjisi bağlantısı təşəbbüslərini qeyd ediblər".

Məlumdur ki, uzun illər Avropadakı bir çox siyasətçinin qərəzi üzündən Azərbaycanın bəzi Avropa ölkələri ilə əlaqələri heç də istənilən səviyyədə olmamışdır. Antonio Koştanın "Qlobal sabitlik fonunda aramızdakı əlaqələri gücləndirmək heç zaman olmadığı qədər vacibdir" deməsini məhz keçmiş səhvlərin etirafına və münasibətlərdə yeni səhifələrin açılmasının vacibliyinə işarə kimi qəbul etmək olar. İndi Avropanın təkcə Azərbaycan qazına yox, eləcə də qlobal logistik əlaqələrinə ehtiyacı var. Beynəlxalq ticarətdə logistikanın önəminin artdığı bir zamanda Orta dəhliz həm də Avropanın xilas yoludur. A.Koşta bununla bağlı mətbuata bəyanatında demişdir: "Daşımalar bizim əməkdaşlığımızın başqa bir mühüm sahəsidir. Orta dəhlizin inkişafı yeni nəqliyyat bağlantıları üçün strateji fürsətdir. Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanması bu mənada böyük əhəmiyyət kəsb edəcək. Avropa ilə Asiya arasında ticarət dayanıqlılığını gücləndirməklə biz iş yerləri yarada, artımı stimullaşdıra və iqtisadiyyatlarımızı birlikdə gücləndirə bilərik. Avropa İttifaqı Azərbaycanın dinc, sabit, qarşılıqlı əlaqələrə əsaslanan və çiçəklənən Cənubi Qafqaz hədəfini bölüşür. Ermənistanla sülh prosesində əldə edilən irəliləyiş tarixi əhəmiyyət kəsb edir. Vaşinqton razılaşmaları sizin dialoq və barışığa sadiqliyinizi əks etdirir. Avropa İttifaqı bu razılaşmaların həyata keçirilməsinin dəstəklənməsində sizin yanınızdadır".

Məlum olduğu kimi, ABŞ-nin keçmiş prezidenti Co Bayden administrasiyasının yanlış siyasəti nəticəsində Azərbaycanla Amerika arasında siyasi münasibətlərdə müəyyən gerginlik yaşanmışdır. Hələ həmin illər Prezident İlham Əliyev birbaşa bu ölkənin yüksəksəviyyəli dövlət adamları ilə görüşündə bildirmişdir ki, Azərbaycanla hədə və təzyiq dilində danışmaq olmaz, biz heç bir kənar təsirlərə boyun əyməyəcəyik. Bu gün isə Azərbaycanın dik duruşu, öz suveren haqlarını qoruması ABŞ-nin yeni administrasiyası tərəfindən yüksək qiymətləndirilir. Hazırda bu ölkə ilə münasibətlərimiz strateji tərəfdaşlıq səviyyəsindədir. İki ölkə arasında yüksəksəviyyəli siyasi münasibətlərlə yanaşı, iqtisadi sahədə də geniş əməkdaşlıq əlaqələri qurulur. Ötən ilin avqustunda Vaşinqtonda Ermənistanla Azərbaycan arasında Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə razılaşmanın Donald Trampın şahidliyi ilə əldə olunması bir çox mətləbdən xəbər verir. Üstəlik, Azərbaycanın Amerika və Mərkəzi Asiyadakı dövlətlərin xahişi ilə "5+1"ə qoşulması onu göstərir ki, Asiya ilə Avropa arasında qurulacaq yeni geosiyasi proseslərdə Azərbaycan da söz sahibi olacaq. Başqa sözlə, ABŞ özünün Asiya ilə Avropa, həmçinin Cənubi Qafqaz siyasətində ölkəmizi əsas tərəfdaş kimi görür və qəbul edir. Bu isə bizə qlobal siyasətdə yeri və çəkisi olan ölkə statusunu qazandırır.

Bu gün ölkəmizin bütün qitələrdə yerləşən dövlətlərlə normal siyasi və iqtisadi əlaqələri var. Azərbaycanın beynəlxalq aləmdə qazandığı bu uğur birbaşa dövlətimizin başçısının praqmatik fəaliyyəti ilə bağlıdır. Prezident İlham Əliyevin apardığı ölçülü-biçili xarici siyasət dünyada ona böyük nüfuz qazandırıb. Təsadüfi deyil ki, biz bütün mötəbər tərbirlərdə dünya liderlərinin, iri biznes və kütləvi informasiya vasitələri nümayəndələrinin Prezident İlham Əliyevə xüsusi maraq göstərmələrinə dəfələrlə şahidlik etmişik.

Prezident İlham Əliyevin qətiyyətinin, qlobal səviyyədə qazandığı nüfuzun bir nümunəsini də İran tərəfindən Naxçıvan ərazisinə dron zərbələri endirildikdən sonra gördük. Bu hadisə ilə bağlı dünya liderlərinin Prezident İlham Əliyevə öz dəstəklərini ifadə etmələri heç də protokol qaydaları deyildi, dövlətimizin başçısına həmkarları tərəfindən olan ehtiramın ifadəsi idi. Ehtiram isə heç vaxt səbəbsiz göstərilmir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Umur Tuqay YÜCEL: "Azərbaycan Orta dəhlizdə mühüm logistika mərkəzi kimi çıxış edir"

**"Geopolitik risklərin davamlı şəkildə artdığı bir dövrdə, xüsusilə Süveyş kanalı, Qırmızı dəniz və Hörmüz boğazı kimi qlobal ticarət üçün kritik əhəmiyyətə malik keçid nöqtələrində təhlükəsizlik problemlərinin yüksəlməsi Avropa ilə Asiya arasında alternativ logistika marşrutlarına marağı əhəmiyyətli dərəcədə artırır".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türk siyasi şərhçi Umur Tuqay Yücel bildirib.

Onun sözlərinə görə, bu kontekstdə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta dəhliz geosiyasi və iqtisadi baxımdan getdikcə daha strateji mövqeyə malik olur.

Ekspert qeyd edib ki, Orta dəhliz təhlükəsizlik baxımından daha sabit quru və yarım dəniz daşımaları alternativi təqdim edir. Eyni zamanda bu marşrut siyasi riskləri bölüşdürən bir xətt formalaşdırır və tədarük zəncirlərində yarana biləcək fasilələrin təsirini azaltmaq potensialına malikdir: "Orta dəhliz Çindən başlayaraq, Mərkəzi Asiya, Xəzər dənizi, Qafqaz, Türkiyə və Avropaya qədər uzanan geniş bir ticarət marşrutunu birləşdirir. Bu marşrut üzrə Azərbaycan, Qazaxıstan, Gürcüstan və Türkiyə əsas ölkələr kimi ön plana çıxır.



Xüsusilə Azərbaycan bu sistemdə mühüm logistika mərkəzi kimi çıxış edir. Azərbaycan Xəzər dənizi üzərindən daşımaları mümkün edən strateji keçid nöqtəsi olmaqla yanaşı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi regional əhəmiyyətli logistika mərkəzinə də malikdir. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə Qafqaz üzərindən Türkiyə və Avropaya birbaşa əlaqə təmin olunur".

Ekspert əlavə edib ki, bu infrastruktur Orta dəhlizi dəniz, dəmir yolu və avtomobil nəqliyyatının birlikdə istifadə olunduğu çoxmodlu nəqliyyat sisteminə çevirir.

Umur Tuqay Yücelin fikrincə, bu marşrut enerji logistikası baxımından da getdikcə daha mühüm əhəmiyyət kəsb edir: "Qafqaz üzərindən keçən Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi" kimi layihələr Avropanın enerji təminatında alternativ mənbələrin formalaşmasına xidmət edir. Bu enerji xətləri Avropanın enerji təhlükəsizliyini gücləndirməklə yanaşı, Rusiyadan və Yaxın Şərqdən asılılığın azaldılması istiqamətində aparılan səylərə də mühüm töhfə verir".

O bildirib ki, Orta dəhlizin inkişafı region ölkələrinin qlobal nəqliyyat sistemində rolunu daha da artırmaq potensialına malikdir. Bu proses Azərbaycanın regional logistika mərkəzinə çevrilməsi ehtimalını gücləndirir və Xəzər hövzəsində liman və dəmir yolu infrastrukturuna yönələn investisiyaların artmasını da gündəmə gətirir.

Eyni zamanda Çin ilə Avropa arasında ticarətdə Orta dəhlizin payının artması Qafqaz və Mərkəzi Asiya ölkələrinin geoiqtisadi əhəmiyyətini daha da gücləndirə bilər.

"Hazırkı geosiyasi şəraitdə Orta dəhliz artıq sadəcə alternativ marşrut deyil, getdikcə daha strateji ticarət və nəqliyyat xəttinə çevrilir. Süveyş xətti və Yaxın Şərqdə təhlükəsizlik riskləri artdıqca Avropa ilə Asiya arasında ticarətin müəyyən hissəsinin Qafqaz və Xəzər marşrutu üzərindən yönləndirilməsi ehtimalı daha da güclənir. Bu gün hava əməliyyatlarının əhəmiyyətli hissəsi belə artıq bu xətt üzərindən həyata keçirilir", - deyə Umur Tuqay Yücel əlavə edib.

## Azərbaycan və Aİ tərəfdaşlıq prioritetlərini yeni müstəviyə daşıyır

**Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycana səfəri, Bakıda həyata keçirdiyi təmaslar, o cümlədən Prezident İlham Əliyevlə birgə mətbuata bəyanatları Azərbaycan və Avropa İttifaqı arasında münasibətlərin tam yeni mərhələsinin və əlaqələrin sonrakı dövrdə inkişafının yol xəritəsi sayıla bilər. Prezidentin çıxışında ifadə edildiyi kimi, yalnız bu ilin yanvarında Azərbaycanın ticari dövriyyəsinin 50 faizi Aİ ilə bağlı olub. Xüsusən 2022-ci ildə Avropa Komissiyası və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında sənədin imzalanmasından sonra Bakı və Brüssel münasibətlərin qarşılıqlı sərmayələrin yatırılmasında ehtiva olunan fəal mərhələsinə qədəm qoyub.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, bu gün Azərbaycan Avropa İttifaqının 10 üzvünün enerji təhlükəsizliyində, bununla da milli təhlükəsizliyində aparıcı rollardan birini tutur. Çoxsaylı təzyiq və maneçilik cəhdlərinə baxmayaraq, zamanında Azərbaycan Prezidentinin müdrikliklə realizəsinə nail olduğu və bu gün ölkəmizin boru kəməri ilə qaz təchiz edən birnömrəli subyektə çevrilməsinə səbəb olan infrastruktur layihələri, habelə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantısında Prezident İlham Əliyevin Azərbaycanın qaz hasilatını artırmaq planı barədə bəyanatı fonunda tərəfdaşlığın daha da dərinləşməsi istiqamətində geniş perspektivlər mövcuddur. "Eyni zamanda Azərbaycanın bərpaolunan enerji sahəsinə böyük sərmayələr yatırması və bu istiqamətdə artıq ilkin nəticələrə səbəb olan layihələrin gerçəkləşdirilməsi, yaxın onillikdə ölkəmizin 6-8 qiqavatlıq bərpaolunan enerjiyə malik olan gücə çevriləcəyi fonunda, təbii ki, Avropa İttifaqının nəzərində Bakı ilə enerji sahəsində əməkdaşlığın alternativi yoxdur. Lakin o da sirr deyil ki, Avropa İttifaqı strukturları zaman-zaman müxtəlif lobbi maraqlarının təsiri altına düşərək anti-Azərbaycan dairələr üçün alətə çevrilmiş, ittifaqın özünün belə maraqlarının ehtiva olunmadığı mövqe sərgiləməklə Bakı və Brüssel arasında tərəfdaşlığın real mahiyyətinə xidmət etməyən situasiyanın formalaşmasına səbəb olmuşlar. Məsələn, Vətən müharibəsi və antiterror tədbirlərindən sonra Azərbaycanın yaratdığı yeni reallıqda avrostrukturların qeyri-praqmatik davranışları, Avropa Parlamentinin anti-Azərbaycan bəyanatları və qəbul olunan qətnamələr, Avropa Şurası Parlament Assambleyasında ölkəmizə qarşı qərəzli və qəbuledilməz münasibət, habelə, xüsusən, antiterror tədbirlərindən sonra Qarabağ ermənilərinin könüllü şəkildə Azərbaycanı tərk etməsinin ardınca yaranan situasiyaya Azərbaycana təzyiq rıçağı kimi baxmağa çalışan güclərin mövcudluğu fonunda ötən dövr ərzində müəyyən siyasi-diplomatik gərginliklərin yaşandığı sirr deyil. O cümlədən avrostrukturlarda zaman-zaman imperializmin əsas alətlərindən biri olan "insan haqları" elementlərinə fokuslanaraq ölkəmizə bu və ya digər formada təsir göstərmək cəhdlərində bulunmuş, lakin cənab İlham Əliyevin geosiyasi reallıq fonunda bu tip hücumların hər biri nəinki neytrallaşdırılmış, üstəlik, bu hücumlarda maraqlı olan güclərin özü Cənubi Qafqazda öz maraqlarını təhlükə altına atmışlar", - deyə o deyib.

Deputat qeyd edib ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi ümumbəşəri dəyərlərin və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin rəhbər tutulduğu, BMT Nizamnaməsində dövlətlərin əməkdaşlığı prinsiplərinə sadiq formada həyata keçirilən, habelə hərbi-siyasi zəfərlərin nəticəsi olaraq formalaşan reallıqlarla möhkəmlənən xarici siyasət kursu, dövlətimizin tam müstəqil və suveren iradəyə sahib olması anti-Azərbaycan mühitə Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada, təbii ki, şans verə bilməzdi. Nəticə etibarilə, biz artıq Avropa İttifaqı Şurasının Prezidentinin Bakıda təmasları fonunda əvvəlki dövrdə siyasi düyünə çevrilmiş mövqenin tam şəkildə aradan qalxdığına şahidlik etdi. Təsadüfi deyil ki, cənab Koşta çıxışının ilk tezisini Avropa İttifaqının Azərbaycan xalqı ilə tam həmrəyliyini ifadə etmək istəyi üzərində qurdu. Avropa İttifaqı Şurasının Prezidentinin açıq mətnlə Azərbaycanın regionda Aİ-nin əsas tərəfdaşı olmasını, təhlükəsizlik, enerji, rəqəmsal və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsində birgə öhdəliklərə riayət olunmasının zəruriliyini əsaslandırmağa çalışması bir daha göstərdi ki, Aİ ötən dövrlərdə uğurlu iqtisadi və ticari əməkdaşlıq fonunda həm də təəssüf doğuran siyasi yanaşmalara yol verilməsini artıq doğru hesab etmir və səmimi şəkildə Azərbaycanla münasibətlərin real ruhunu ifadə edən və xalqların mənafelərində ehtiva olunan sistematik əlaqələrin davamlılığında maraqlıdır.

B.Məhərrəmov xatırladıb ki, 2024-cü ildə Azərbaycanın COP29-a evsahibliyi dövründə bir sıra avrostrukturlar ölkəmizi qazıntı yanacağını istehsal etməkdə günahlandırır və həmin dövrdə cəmi 2 il əvvəl Azərbaycanla enerji sahəsində tərəfdaşlıq sazişi imzalamış strukturun bu mövqeyi Bakıda təəccüb doğururdu: "Aİ Şurasının Prezidentinin Bakıya səfəri fonunda Koştanın İrandakı müharibənin qlobal enerji bazarlarını sarsıtdığı bir vaxtda Azərbaycan və Avropa İttifaqının enerji sahəsində hazırkı tərəfdaşlığının heç zaman olmadığı qədər əhəmiyyətini xüsusi vurğulaması, Avropa İttifaqının Azərbaycanın enerji keçidini dəstəkləmək üçün özəl investisiyaları və maliyyələşməni səfərbər etməyə hazır olduğunu bəyan etməsi, ölkəmizin Avropa İttifaqı Şurasının qaz, neft və kömürün təchizatı mənbələrinin şaxələndirilməsinə dair qərarında həlledici rolu üzərinə götürməsini məxsusi qeyd etməsi, əslində, cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Avropa İttifaqının zamanla buraxdığı səhvlərin nümayişkaranə şəkildə üzərindən xətt çəkməsi sayıla bilər. Beynəlxalq siyasətdə əhali sayı və ərazi göstəricələrinə görə xüsusi üstünlüyə malik olmayan, nisbətən, kiçik bir dövlətin bu miqyasda qələbəsi faktiki olaraq analogiyaya malik deyil.

Deputat vurğulayıb ki, Antonio Koştanın Azərbaycanın Orta dəhliz konsepsiyasında roluna xüsusi diqqət çəkməsi, Azərbaycanla Avropa İttifaqının əməkdaşlığının nəqliyyat bağlantıları üçün strateji fürsətə çevrildiyini etiraf etməsi, Bakı-Naxçıvan dəmir yolu əlaqəsinin tamamlanmasının əhəmiyyətini vurğulaması və deməli, Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ideyasının Avroittifaqda alternativsiz və ən etibarlı bağlantı seqmenti kimi qəbullanıldığını göstərməklə bərabər, həm də proseslərin məhz Azərbaycanın zamanında qəti olaraq müdafiə etdiyi və bir sıra hallarda maneələrlə üzləşən tezisləri əsasında inkişaf etdiyini göstərməkdədir. Təbii ki, cari situasiya tərəfləri qane edir və təsadüfi deyil ki, birgə mətbuat bəyanatında təhlükəsizlik, enerji, nəqliyyat sahələri də daxil olmaqla, son dövrlərdə keçirilmiş yüksəksəviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktik əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqlik ifadə olundu. Xüsusən artıq Avropa İttifaqında Azərbaycanla əməkdaşlığa hər iki tərəfin ortaq maraqlarını əks etdirən proses kimi baxılması və bu tərəfdaşlığın iqtisadi və ticari fayda verməklə yanaşı, həm də bütün Qara Dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verən amil kimi yanaşılması Azərbaycanla Avroittifaq arasında praqmatik əsaslara söykənən yeni tərəfdaşlıq dövrünün başlanmasını deməyə əsas verir.

B.Məhərrəmov bildirib ki, prezidentlərin yeni əhatəli ikitərəfli saziş barədə mövqe ifadə etməsi, münasibətlərin daha da inkişafı üçün nəzərdə tutulan yeni sazişin möhkəm hüquqi çərçivə yaradacağına inamın ifadə olunması və sənədin ən qısa zamanda hazırlanaraq qüvvəyə minməsinə dair ortaq qənaətin bölüşülməsi açılacaq yeni səhifənin təməlində sağlam iradənin dayanması barədə düşünməyə ciddi əsas verir: "Bu saziş Azərbaycan və Avropa İttifaqı tərəfdaşlıq prioritetlərinin yenilənmiş formatını müəyyən edəcək və ikitərəfli gündəlik məhz yeni yanaşmalarla irəli aparılacaq. Prezident İlham Əliyev Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində böyük qələbəsindən sonra, o cümlədən Qoşulmama Hərəkatına ölkəmizin sədrliyi dövründə dəfələrlə dünyada ayırıcı xətlərin dərinləşməsindən, xüsusən Qərbin Cənubi Qafqaza selektiv yanaşmasından narahatlığını ifadə edərək bu mövqeyin heç bir tərəfə fayda gətirməyəcəyini bəyan etmişdi. Cənab İlham Əliyev və cənab Koştanın birgə mətbuat bəyanatında ayırıcı xətlərdən azad, dinc, sabit, qarşılıqlı əlaqəli və inkişaf edən Cənubi Qafqaz kimi ortaq strateji məqsədin bəyan olunması, əslində, bütövlükdə avrozonanın Azərbaycan Prezidentinin haqlı mövqeyini qəbul etməsini və həqiqətən də, maraqların yalnız tərəfdaşlıq və dialoq mexanizmləri vasitəsilə daha uğurlu təmin edilə biləcəyi mühitinə üstünlük verilməsinin zərurətinin Qərbdə artıq dərk edildiyini göstərmiş oldu. Bundan başqa, bəyanatda 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə görüşünün nəticələrinə istinad olunması, Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsi istiqamətində atılan addımların xüsusi olaraq yüksək qiymətləndirilməsi həm də ABŞ-nin ardınca daha bir iri gücün cənab İlham Əliyevin nail olduğu yeni reallıqları həzm etdiyini göstərməkdədir".

Deputatın sözlərinə görə, bəyanatda ifadə edilən mövqedə prezidentlərin Qarabağ və Şərqi Zəngəzur bölgələrində postmüharibə dövründə genişmiqyaslı yenidənqurma və inkişaf səylərinin əhəmiyyətini vurğulamaları, o cümlədən mina ilə çirklənmənin yaratdığı təhdidlərə diqqət yönəldilməsi, həm də Avropa İttifaqı Şurası tərəfindən, nəhayət, Azərbaycan ərazilərinin 6 il əvvələ qədər davam etmiş işğal və təcavüzünün yaratmış olduğu təhdidlərə nümayiş etdirdiyi qəti münasibət sayıla bilər. Dolayısı ilə Avropa İttifaqı Şurası 30 il ərzində kimin bu bölgədə dağıntılara, mina çirkləndirmələri yolu ilə müharibə cinayətlərinə yol verdiyini, kimin isə ümumbəşəri dəyərlərə xidmət edərək bu təhdidlərin nəticələrinin aradan qaldırılmasında rol oynadığını aşkar formada ifadə etmiş oldu. Bəyanatın digər önəmi isə ondan ibarətdir ki, sənəddə nəzəri siyasi iradə ifadəsi ilə yanaşı, həm də çevik, operativ, praktik addımların atılması nəzərdə tutulub. Bu qəbildən "Qlobal qapı" təşəbbüsü çərçivəsində Azərbaycan-Avropa İttifaqı iqtisadi əməkdaşlığının və sərmayələrin gücləndirilməsi üçün iqtisadi əməkdaşlıq üzrə yüksəksəviyyəli işçi qrupunun yaradılması alqışlanılmaqla bu istiqamətdə fəaliyyət təşviq edilir. "Sənəddə rəqəmsal transformasiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsinin vacibliyinin qeyd olunması, mütəşəkkil cinayətkarlıq, terrorçuluq, ekstremizm, silah və narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, insan alveri və qeyri-düzgün miqrasiya kimi ortaya çıxan təhdidlərin qarşısının alınması istiqamətində birgə fəaliyyət, müdafiə və təhlükəsizlik sahələrində sıx əməkdaşlığın faydalarının xüsusi qeyd olunması, bu istiqamətdə qarşılıqlı təmasların artırılması, viza sadələşdirilməsi sazişinin davamlı icrasının təmin olunması, humanitar istiqamətləri əhatələyən layihələrin və normativ bazisin gücləndirilməsinə dair mövqeyin ifadə olunması yalnız Azərbaycan və Avropa İttifaqı arasında deyil, bütövlükdə Azərbaycanın xarici siyasət kursunda tarixi qələbə hesab oluna bilər", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...



FOTO

## Bayram gəlir elimizə...

**Novruz Azərbaycan xalqının minilliklərdən bəri yaşatdığı ən qədim və ən əziz bayramlardan biridir. Bu bayram baharın gəlişini, təbiətin oyanmasını, yeni həyatın başlanmasını simvolizə edir.**










"Novruz" sözü fars dilindən tərcümədə "yeni gün" mənasını verir və bu bayram qədim dövrlərdən gündüzlə gecənin bərabərləşdiyi yaz günündə qeyd olunur. Qədimdən insanlar bu günü yeni ilin başlanğıcı kimi qəbul etmiş, onu ümid, yenilənmə və bolluq rəmzi kimi qarşılamışlar.

Novruzun tarixi çox qədimdir. Tarixçilər bu bayramın ən azı 3 min il yaşı olduğunu qeyd edirlər. Qədim dövrlərdə insanlar təbiətlə sıx bağlı yaşayır, həyatlarını ilin fəsillərinə uyğun qururdular. Yazın gəlməsi isə torpağın oyanması, əkinçilik mövsümünün başlanması və həyatın yenidən canlanması demək idi. Bu səbəbdən yazın ilk günü xüsusi mərasimlərlə qeyd olunurdu və zaman keçdikcə bu mərasimlər Novruz bayramının əsasını təşkil etmişdir.

Novruz təkcə bir gün qeyd olunan bayram deyil. Bu bayrama hazırlıq həftələrlə davam edir və bir çox adət-ənənə ilə müşayiət olunur. Ən məşhur ənənələrdən biri bayramdan əvvəl keçirilən dörd çərşənbədir. Hər çərşənbə təbiətin bir ünsürünü simvolizə edir və insanların qədim dünyagörüşünü əks etdirir.

Birinci Su çərşənbəsidir. Bu çərşənbə suyun həyatverici və təmizləyici gücünü simvolizə edir. Qədim inanclara görə, bu gün insanlar axar suyun üzərindən tullanır, su ilə üzlərini yuyur və bunun onlara sağlamlıq gətirəcəyinə inanırlar. Su həm də təmizliyin və yenilənmənin rəmzi hesab olunur.

İkinci Od çərşənbəsi adlanır. Bu gün insanlar tonqal qalayır və onun üzərindən tullanırlar. Tonqalın üzərindən tullanarkən "ağırlığım-uğurluğum odda yansın" deyilməsi qədim inanclardan gəlir. İnsanlar odun insanı mənfi enerjidən təmizlədiyinə, ona güc və sağlamlıq verdiyinə inanırlar.

Üçüncü çərşənbə Yellə bağlıdır. Həmin gün küləyin təbiəti oyatdığına inanılır. Qədim təsəvvürlərə görə, külək ağacları silkələyərək torpağın oyanmasına kömək edir və baharın gəlişini xəbər verir. Ona görə də bəzən 3-cü çərşənbəyə "külək oyadan çərşənbə", "yelli çərşənbə", "küləkli çərşənbə" də deyirlər.

Dördüncü - sonuncuya Torpaq çərşənbəsi deyilir. Bu çərşənbə ilə torpağın artıq oyandığı və həyatın yenidən başladığı qəbul olunur. İnsanlar bu günü xüsusi sevinclə qeyd edir, həyətlərdə tonqallar qalayır və bayram ab-havası daha da güclənir. Ölkəmizin bəzi regionlarında dördüncü - İlaxır çərşənbə daha yüksək səviyyədə qeyd olunur. Novruzun ən gözəl rəmzlərindən biri səmənidir. Səməni buğdanın cücərdilməsi ilə hazırlanır və həyatın, bolluğun və yenilənmənin simvolu sayılır. Bayramdan bir neçə həftə əvvəl buğda isladılır və cücərməsi üçün saxlanılır. Buğda yaşıl rəngə boyanaraq süfrənin mərkəzinə qoyulur. Yaşıl rəng təbiətin oyanmasını, yeni həyatın başlanmasını ifadə edir. İnsanlar inanırlar ki, səməni nə qədər gur və yaşıl çıxsa, həmin il də o qədər bərəkətli olacaq.

Novruz süfrəsi də xüsusi rəmzi mənalar daşıyır. Süfrədə müxtəlif yeməklər və şirniyyatlar olur. Ən məşhur şirniyyatlar paxlava, şəkərbura və qoğaldır. Paxlava, adətən, romb formasında hazırlanır və onun qatları bolluğu və zənginliyi simvolizə edir. İçərisinə qoz və bal qoyulur. Şəkərbura isə yarpaq formasında hazırlanır və ayı simvolizə etdiyi deyilir. Onun üzərində xüsusi maqqaş vasitəsilə naxışlar çəkilir. Bu naxışlar hər evin özünəməxsus ənənəsini göstərir. Qoğal isə günəşi simvolizə edir və sarı rəngli ədviyyatlarla hazırlanır. Bu şirniyyatların hamısı birlikdə bayram süfrəsinə həm gözəllik, həm də mənəvi məna qatır.

Novruz süfrəsində səmənidən əlavə, rəngli boyanmış yumurtalar da olur. Yumurta həyatın və yeni başlanğıcın rəmzi hesab edilir. Bayram günlərində insanlar yumurta döyüşdürürlər. Bu oyun xüsusilə uşaqlar və gənclər arasında çox sevilir.

Novruzun ən maraqlı və qədim adətlərindən biri "qulaq falı"dır. Gənc qızlar bayram axşamı qonşuların qapısının arxasında dayanaraq evdən gələn ilk sözləri dinləyirlər. Eşitdikləri sözləri öz niyyətlərinə uyğun yozurlar. Əgər xoş söz eşidirlərsə, niyyətlərinin hasil olacağına ümid edirlər.

Novruz günlərində müxtəlif xalq oyunları və şənliklər keçirilir. Keçmişdə kənd və şəhərlərdə bayram münasibətilə müxtəlif tamaşalar təşkil edilirdi. Bu tamaşalar insanların birlikdə əylənməsinə, bayram sevincini paylaşmasına səbəb olurdu. Xalq oyunları, mahnılar və rəqslər Novruz şənliklərinin ayrılmaz hissəsi sayılır. Keçəl və Kosa Novruz bayramının əsas rəmzləri hesab olunur və bayram tədbirlərinin daha əyləncəli keçməsində bu personajların xüsusi yeri var. Onlar qışla yazın mübarizəsini simvolizə edirlər.

Həm çərşənbələrdə, həm də Novruz bayramında paytaxt Bakıda bayram tədbirləri yüksək səviyyədə təşkil olunur. Ənənəvi olaraq bu il də çərşənbələrdə İçərişəhərdə bayram tonqalı qalanır, paytaxt sakinləri və şəhərimizin qonaqları tonqalın ətrafına toplaşaraq bayram əhvalı yaşayırlar.

Novruz bayramı həm də barışıq və birlik bayramıdır. İnsanlar küsülüləri barışdırmağa çalışır, qohum və dostlarını ziyarət edir, bir-birinə xoş arzular bildirirlər. Qədimdən belə hesab olunur ki, Novruzu kin-küdurətsiz və xoş niyyətlə qarşılamaq yeni ilin uğurlu keçməsinə səbəb olur.

Bayram günlərində gənclər və uşaqlar böyükləri ziyarət edir, onların xeyir-duasını alırlar. Böyüklərə hörmət göstərmək və onların duasını almaq Novruz ənənələrinin mühüm hissələrindən biridir. Bu ənənə ailə bağlarını möhkəmləndirir və cəmiyyətdə hörmət, ehtiram kimi dəyərlərin qorunmasına kömək edir.

Novruz bayramına hazırlıq həftələr öncə başlayır. İnsanlar evlərini təmizləyir, həyətlərini səliqəyə salır və bayrama xüsusi hazırlıq görürlər. Bayramdan əvvəl evlərdə böyük təmizlik aparılması qədim ənənələrdən biridir. İnsanlar köhnə və lazımsız əşyaları evdən çıxarır, evdə, həyət bacada səliqə-sahman yaradırlar. Qədim inanclara görə, təmiz evə bolluq və bərəkət gəlir. Bu səbəbdən Novruz həm də mənəvi və fiziki təmizlənmə bayramı hesab olunur. İnsanlar inanırlar ki, yeni ili təmiz və səliqəli evdə qarşılamaq ailəyə uğur və firavanlıq gətirir.

Bu bayram təkcə təbiətin oyanışı deyil, xalqımızın adət-ənənələrinə bağlılığının təcəssümüdür.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

AZƏRBAYCAN-a cavab verirlər

## Məsələyə maliyyə imkanları çərçivəsində baxılacaq

**Şəmkir rayonu, Tatarlı kəndinin qazlaşdırılması ilə bağlı "Azərbaycan" qəzetindən "Azəriqaz" İstehsalat Birliyinə ünvanlanmış müraciətə aidiyyəti üzrə baxılmışdır.**

Bununla əlaqədar olaraq bildiririk ki, ölkə üzrə kəndlərin və yaşayış massivlərinin qazlaşdırılması SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin gündəliyində olan əsas məsələlərdəndir. Məlumat üçün diqqətinizə çatdırırıq ki, cari ildə qeyd olunan ərazidə qazlaşdırma işlərinin davam etdirilməsinə birliyin daxili maliyyə imkanları çərçivəsində baxılacaqdır.

*Nail ABDULLAYEV,*
*baş direktorun birinci müavini*

## AAYDA-ya müraciət olunub

**"Azərbaycan" qəzetinin 27.12.2025-ci il tarixli sayında dərc edilmiş "Küçələrimiz illərdir bərbad vəziyyətdədir" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli ilə bağlı tərəfinizdən Binəqədi Rayon İcra Hakimiyyətinə ünvanlanmış 08.01.2026-cı il tarixli müraciətiniz baxılması üçün RİH-nin 13.01.2026-cı il tarixli məktubu ilə M.Ə.Rəsulzadə bələdiyyəsinə daxil olmuşdur.**

Bildiririk ki, sözügedən ünvana - M.Ə.Rəsulzadə qəsəbəsi, M.S.Ordubadi küçəsinin kəsişməsindən "Stroydetal" küçəsinin oxucu məktubunda qeyd olunan hissəsinə baxış keçirilmiş və həmin sahəyə asfalt örtüyünün döşənməsinə köməklik göstərilməsi ilə bağlı tərəfimizdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 10.02.2026-cı il tarixli məktubla müraciət olunmuşdur.

*Hümbət HÜSEYNOV,*
*Binəqədi rayonu,*
*M.Ə.Rəsulzadə Bələdiyyəsinin sədri*

XARİCDƏ

## Vətəndən uzaqda Novruzun ruhunu yaşayırıq

**Ölkədən kənarda olmağın qəmli tərəflərindən biri bayram günləridir. Xüsusilə də Novruz ərəfəsində. Çünki Novruz sadəcə bir bayram deyil - uşaqlıqdan öyrəşdiyimiz adət-ənənələr, ailənin bir masa ətrafında toplaşması, tonqal başında edilən söhbətlər və evdə yayılan şirniyyat qoxusu ilə bağlı xatirələrdir.**



İnsan onlara alışdığı üçün həmin günləri vətəndən uzaqda ağır keçirir. Tonqalın üstündən "ağırlığım-uğurluğum odda qalsın" deyib tullanmaq, bunun üçün hamının gülə-gülə növbə gözləməsi, ya da qapı pusmaq, papaq atmaq və içindən nə çıxacağını maraqla gözləmək. Bunlar Novruzu bənzərsiz edən ənənələrimizdir. İnsan onların dəyərini vətəndən uzaqda daha çox anlayır.

Artıq 4-5 ildir ki, Novruzu ölkədən kənarda keçirirəm. İlk illər bayramı hiss etmək üçün Bakıdan gələn tanışlardan mənə şəkərbura və paxlava gətirmələrini xahiş edirdim. O şirniyyatlar mənə sanki ev ovqatını yaşadırdı. Sonralar isə gördüm ki, mənim kimi səyahət edən və ya xaricdə yaşayan çox sayda azərbaycanlı var. Belə olanda biz bir araya gəlməyə başladıq. İndi süfrə qururuq, Novruz şirniyyatlarını paylaşırıq, hətta səməni cücərdib yumurta boyayırıq. Beləcə, vətəndən uzaqda az da olsa Novruz adətlərini yaşatmağa çalışırıq.

Bu işdə səfirliklərin də bizə böyük dəstəyi olur. Asiyanın bir çox ölkələrində Azərbaycan səfirlikləri Novruz və çərşənbələr zamanı tədbirlər təşkil edir, tonqal qalayır və bütün azərbaycanlıları bir yerə yığır. Məqsəd vətəndən uzaqda olan soydaşlarımızın özlərini yad hiss etməmələri və bayramın ruhunu birlikdə yaşatmaqdır.

*Piruzə QULİYEVA,*
*Vyetnam*

GÜZƏRAN

## Novruzu yüksək ovqatla qarşılayırıq

**Yaşadığımız Hacallı Tovuzun böyük kəndlərindəndir. Kəndimiz Ermənistanla sərhəddə yerləşir. Burada yeni məktəb, tibb məntəqəsi, kitabxana, poçt binası var.**



Rayon mərkəzindən kəndimizə kimi geniş yol çəkilmiş, əhalinin digər kəndlərlə əlaqəsini yaxşılaşdırmaq üçün avtobus marşrutu da açılmışdır. Bizim kənd 30 ilə yaxın erməni gülləsi altında əziyyət çəkib. Demək olar ki, hər gün atəş altında yaşamışıq. Hətta bir neçə dəfə düşmənin atdığı atəş nəticəsində kənd sakinlərindən iki nəfər yaralanıb. Lakin sakinlər həmişə ümidlə yaşayıblar. Bilirlər ki, çəkdiyimiz əzab-əziyyət çox çəkməyəcək. Nəhayət, 2020-ci ilin sentyabr ayında Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz düşmən üzərində böyük qələbə qazanaraq bütün dünyaya sübut etdi ki, Azərbaycan xalqı yenilməzdir.

İndi Hacallı kəndinin sakinləri də xoşbəxt günlərini yaşayırlar. Onlar əkib-becərir, gündəlik işləri ilə məşğul olurlar. 6 ildir ki, kənd sakinləri Novruz bayramını yüksək ovqatla keçirirlər. Builki Novruz da istisna deyil. Bayram çərşənbələrində kənd sakinləri bir yerə toplaşaraq tonqal qalayır, sevinclərini paylaşırlar. Bütün bu sevincli günləri isə bizə bəxş edən dövlətimizdir.

*Oktay ƏHMƏDOV,*
*Tovuz rayonu,*
*Hacallı kəndinin sakini*

## Bahar gəlir

Boz ay girəndən bəri,
Yağış döyür yerləri.
**SU**yun əhdi vəfadı,
Hər damcısı şəfadı.
Göyərən tumurcuqlar,
Ağ ləçəyi qururlar.
Suyun təravətilə,
**OD**un şəfayətilə
Qızır buzların bağrı,
Çıxır yerlərdən ağrı.
Dönüb dumana, çənə,
Qalxır bulud köksünə.
Bülbül görüb haləti,
Oxuyur məhəbbəti.
**YEL**sə öz qanadıyla,
Bol bərəkət adıyla,
Yeri, göyü haylayır,
Nemətləri paylayır.
Uçur qaranquş yenə
Ağ hopdurub köksünə.
**TORPAQ** açıb sinəsin
Kəsir qışın nəfəsin.
Göyərən çəmənlərdə,
Düzülü səmənlərdə,
Sevinən ürəklərdə,
Duyğusal diləklərdə
Bahar keçir taxtına.
Təbiətin baxtına
Gözəlliklər düzülür,
Yerə şəfəq süzülür.
Nərgiz, bənövşə çiçək,
Bahar, müjdən mübarək!

*Akif ƏLİYEV*

ABADLIQ

## Bu günlər iməciliklərdə hamılıqla iştirak edirik

**Azərbaycan xalqının ən qədim və əziz bayramı olan Novruz yurdumuza qədəm qoyur. Novruz ulularımızdan bizə yadigar qalan, xalqımızın mədəniyyətini, milli-mənəvi dəyərlərini özündə əks etdirən, dünyaya tanıtdıran qədim el bayramıdır.**



O, təkcə baharın gəlişi deyil, eyni zamanda yeni günün başlanğıcı hesab olunur. Odur ki, belə bir dövrdə insanlar həyət-bacasında təmizlik işləri görür, müxtəlif şirniyyatlar bişirməklə bayramı xoş ovqatla qarşılayırlar.

Belə bir gündə biz ağstafalılar da bayrama geniş hazırlıq işləri görür, keçirilən iməciliklərdə fəal iştirak edərək təmizlik və abadlıq işlərində əlimizdən gələni əsirgəmirik. Növbəti iməcilikdə də rayonda xeyli iş gördük. Ərazidə yaşıllaşdırma işləri apararaq 600-ə yaxın sərv ağacı əkdik. Bundan başqa, əvvəllər əkilmiş ağaclara qulluq etdik, onları suvardıq.

Hörmətli redaksiya! Biz yaxşı bilirik ki, həyata keçirdiyimiz bütün bu işlər doğma rayonumuzun abadlığına, təmizliyinə, yaşıllığına xidmət edir. Odur ki, heç kim belə tədbirlərdən kənarda qalmır.

*Alim MURADOV,*
*Ağstafa şəhər sakini*

TƏDBİR

## Azərbaycan memarlıq ənənələri - müasir çağırışlar

**Yardımlıda rayon icra hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində tədbir keçirilmişdir.**



RİH başçısının müavini - Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Miramil Səmədlinin, YAP rayon təşkilatının sədri Anar Alışovun, aparatın məsul şəxsləri, idarə, müəssisə, təşkilat rəhbərlərinin, RİH başçısının İƏD üzrə nümayəndələri və bələdiyyə sədrlərinin qatıldığı tədbir Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirələrinin yad edilməsi ilə başlamışdır.

Çıxış edənlər bildirmişlər ki, Azərbaycan memarlığının inkişafında Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Onun təşəbbüsü əsasında memarlıq sahəsində strateji yanaşmalar formalaşmış, tarixi abidələrin qorunması, şəhərsalmanın müasir tələblərə uyğun təşkili və regionların memarlıq inkişafı prioritet istiqamət kimi müəyyən olunmuşdur. Qeyd olunmuşdur ki, Prezident İlham Əliyevin 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsinin ölkənin tikinti sektorunda yeni inkişaf mərhələsi yaratdığı, şəhər mədəniyyətinin inkişafına və memarlıq irsinin qorunmasına yüksək diqqətin göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin tətbiqi, genişmiqyaslı abadlıq və quruculuq işlərinin aparılması, infrastrukturun müasir tələblər əsasında yenidən qurulması və ərazilərin sürətli dirçəldilməsi bu siyasətin ardıcıl və məqsədyönlü şəkildə davam etdirildiyinin əyani təzahürüdür.

Tədbir Ümummilli Liderin ömür yolunu özündə əks etdirən fotoeksponatlara və Azərbaycan memarlıq nümunələrini əks etdirən kitablardan ibarət sərgiyə baxışı ilə sona çatmışdır.

*Zəfər ORUCOĞLU*





# Mədəniyyət





● Süleyman Rüstəm – 120

# "Vətən pənahında yaxşı ki, varam!"

**Xalq şairi Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan şairlərdəndir. Onun yaradıcılığı zəhmət və çətinliklərlə üzləşmiş bir insanın duyğularını, arzularını və vətənə olan sevgisini əks etdirir.**

Süleyman Rüstəm 1906-cı il martın 12-də Bakının Novxanı kəndində dünyaya göz açıb. Uşaqlığı Bakıda keçib. İllər sonra o, xatirələrində yazıb: "Uşaqlıq çağlarım sabiq Quba meydanının yuxarısındakı Spasskaya küçəsində keçmişdir. Quba meydanının yerində indi bağ salınmışdır, küçəmizin aşağı hissəsində dövlət dram teatrının binası yüksəlir. Küçəmiz isə hazırda Qasım İsmayılov adınadır".

O, gün-güzəranı yoxsulluq içində keçən ailənin ilki olub. Atası Əliabbas ailəsinin ruzisini dəmirçilikdən çıxarırdı. S.Rüstəm illər sonra - şair kimi məşhurlaşdığı vaxtlarda uşaqlıq xatirələrini "Atamın mahnısı" adlı şeirində qələmə almışdı. Valideynləri Süleymandan və bacı-qardaşlarından diqqətlərini, qayğıkeşliklərini, sevgilərini əsirgəməyiblər. Bu duyğularını Süleyman Rüstəm "Anam Xırdaxanımın xatirəsinə" adlı şeirində də əks etdirib:

*Ana! Gör nə deyir bu şair balan -*
*Sən mənim qalamdın, mən sənin qalan,*
*Səkkiz baş övlada çaldığın laylan*
*Şeirli, nəğməli sözümdə qaldı.*

Süleymanın təhsil alması valideynlərinin ən böyük arzularından biri olub. Odur ki, atası onu həmin dövrdə Bakıda fəaliyyət göstərən yeni üsullu məktəbə aparıb.

Bədii yaradıcılığa 1920-ci illərin əvvəllərində başlayan S.Rüstəm "Çimnaz xanım yuxudadır" adlı birpərdəli komediyasını 1922-ci ildə qələmə alıb. 1923-cü ildə isə onun "Maarif və mədəniyyət" (indiki "Azərbaycan") jurnalında "Unudulmuş gənc" adlı ilk mətbu şeiri işıq üzü görüb.

1925-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə daxil olan Süleyman "Ələmdən nəşəyə" adlı ilk şeir kitabını tələbə olduğu zaman - 1927-ci ildə nəşr etdirib. O, Azərbaycan Dövlət Universitetindən 1929-cu ildə Moskva Dövlət Universitetinin Ədəbiyyat və incəsənət fakültəsinə köçürülüb.

S.Rüstəm müxtəlif illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru olub, Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinə, "Azərbaycan", "Kirpi" jurnallarının redaksiya heyətlərinə üzv seçilib.

Xidmətlərinə görə üç dəfə "Lenin" ordeni, iki dəfə "Qırmızı əmək bayrağı" ordenləri, Sovet Sülhü Müdafiə Komitəsinin fəxri fərmanı və bir sıra medallarla təltif edilib.



Sovet hökumətinin sərt qadağalar qoyduğu bir vaxtda tale elə gətirib ki, şair bir müddət Cənubi Azərbaycanda yaşamalı olub. İkinci Dünya müharibəsi dövründə sovet qoşunlarının tərkibində Cənubi Azərbaycana gedən sənət adamlarının sırasında Süleyman Rüstəm də vardı. O, "Yada düşənlər" adlı xatirələrində və çoxsaylı poetik əsərlərində həmin dövrün ictimai-siyasi hadisələrini, güneyli soydaşlarımızın bəlalı taleyini qələmə alıb.

Süleyman Rüstəm 1938-ci ildə Azərbaycan SSR birinci çağırış Ali Sovetinə deputat seçililb. Və həmin vaxtdan başlayaraq, ömrünün sonunadək bütün çağırışlarda deputat olub.

Azərbaycan xalqı XIX əsrin əvvəllərində tarixinin ən böyük faciəsini yaşayıb. Vətənimiz qonşu dövlətlər tərəfindən ikiyə bölünüb. O zamandan bəri bu tarixi haqsızlığın, sonu gəlməyən ayrılığın doğurduğu nisgil, o taylı-bu taylı Azərbaycanın birləşməsi arzusu ədəbiyyatımızın da əsas mövzularından biri olub. Şair Süleyman Rüstəm də "Təbrizli analar", "Təbrizim", "Öz gülüstanım", "Könlümə Təbriz düşdü", "Vüsal həsrəti", "Yenə Araz qırağında", "Deyilmi", "Yaralarım", "Görsəm" və başqa şeirlərində bu duyğuları ifadə edib. Şair məşhur "Təbrizim" şeirində yazıb:

*Sənin çiçəyinə, gülünə qurban!*
*Mənə qardaş deyən dilinə qurban!*
*Vətəninə qurban, elinə qurban!*
*Baxdıqca hüsnünə doymayır gözüm,*
*Təbrizim, Təbrizim, gözəl Təbrizim!*

İkinci Dünya müharibəsi şairlərimizin əksəriyyəti kimi Süleyman Rüstəmin yaradıcılığına da böyük təsir göstərib. Şair müharibə illərində yazdığı şeirlərdə xalqın vətənpərvər ruhunu, ön cəbhədə alman faşistlərinə qarşı döyüşən əsgərlərin qəhrəmanlığını və arxa cəbhədə çalışan insanların fədakarlığını yüksək bədii dillə təsvir edib. Onun "And", "Gözlə", "Qəhrəmanın vəsiyyəti", "Cəbhəyə məktub", "Ana və poçtalyon", "Qafurun ürəyi'", "Gün o gün olsun ki" və başqa əsərlərində Vətəni qorumaq ideyası, azadlıq uğrunda mübarizə və xalqın birliyi əsas motivlərdən biri kimi ön plana çıxıb. Süleyman Rüstəm müharibənin yaratdığı çətinlikləri və itkiləri təəssüflə vurğulamaqla yanaşı, insanların qələbəyə olan inamını və mənəvi gücünü də poetik şəkildə ifadə edib. "Gün o gün olsun ki" şeirində şair bütün sovet vətəndaşlarının arzusunu qələmə alıb:

*Gün o gün olsun ki, qurtarsın dava,*
*Dağılsın buludlar, açılsın hava.*
*Alınsın düşməndən ömürlük qisas,*
*Torpaq nəfəs alıb dincəlsin bir az.*
*Silinsin ürəkdən, könüldən ağrı,*
*Bir də tapdanmasın vətənin bağrı.*

Süleyman Rüstəm öz əsərlərində həm də müharibənin insan talelərinə gətirdiyi ağrıları və ayrılıqları böyük səmimiyyətlə qələmə alıb - "Ana və poçtalyon" şeirində olduğu kimi...

Şairin yaradıcılığında vətənpərvərlik mövzusu əsas ideyalardan biri olaraq geniş yer tutur. O, əsərlərində vətəni xalqın mənəvi dayağı, tarixi yaddaşı və milli kimliyinin əsas simvolu kimi təqdim edib. Onun poeziyasında doğma torpağa bağlılıq, milli qürur və Vətəni qorumaq məsuliyyəti güclü emosional və bədii ifadələrlə əksini tapıb. "Dilimə dəymə" adlı şeiri şairin doğma ana dilimizə düşmən nəzərlərə baxanlara kəskin cavabıdır:

*Mən sənin dilinə dəymirəm, cəllad,*
*Gəl sən də bu ana dilimə dəymə!*
*Sənin də bağın var, gülün var, çəkin,*
*Bağımda əkdiyim gülümə dəymə!*

Süleyman Rüstəm vətən sevgisini insanın ən ali mənəvi borcu kimi göstərib və bu duyğunu oxuculara təsirli şəkildə çatdırıb. Şairin əsərlərində vətənpərvərlik ideyası torpağa sədaqət və milli dəyərlərə hörmət kimi təcəssüm edilib. O, müxtəlif tarixi və ictimai hadisələr fonunda xalqın vətən uğrunda mübarizə ruhunu və mənəvi gücünü təsvir edib.

Süleyman Rüstəm 1989-ci il iyunun 10-da dünyadan köçüb. Bir zamanlar "Yaxşı ki, varam" adlı şeirində əsərləri oxunduqca xatırlanacağına və heç zaman unudulmayacağına inamla yazmışdı:

*"Sən kimsən?" deməyin mən Süleymana,*
*Sadiq bir övladam Azərbaycana.*
*Dünəni, bu günü hələ bir yana,*
*Onun sabahında yaxşı ki, varam.*
*Vətən pənahında yaxşı ki, varam!*

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Əbədi simalar

# "Qayıt, sahmana sal bu kainatı!"

**Azərbaycan ədəbiyyatında elə görkəmli, parlaq, sevimli şair və yazıçılar var ki, adları çəkiləndə qəlbimizi kövrək hisslər bürüyür. Bu hiss əlimizdən tutub bizi nəsrimizin, poeziyamızın dərin qatlarına aparır. Belə parlaq simalardan biri də şeirləri, poemaları ilə ədəbiyyata gəldiyi gündən adı dillərdən düşməyən şair Əli Kərimdir.**



Əli Kərimin keçdiyi ömür və yaradıcılıq yolu, heç vaxt təravətini itirməyən bədii irsi, poetik düşüncələri poeziyamızı daha da zənginləşdirərək yeni bir səhifə açmışdır. Onun yaradıcılığında yer üzünün əşrəfi olan insanın daxili aləmi, qəlbini cuşə gətirən sevgi, ürəyini sıxan tənhalıq, könlünü kövrəldən kədər, vətənpərvərlik və azadlıq mövzuları aparıcı yer tutur. Şairin hələ sağlığında məşhurlaşması, şeirlərinin sevilməsi, sözlərinə mahnılar bəstələnməsi onun poeziyasının gücündən, istedadının qüdrətindən xəbər verir.

Yaradıcılığı ilə ədəbiyyat tariximizdə heç vaxt pozulmayacaq dərin izlər qoymuş Əli Kərim (Əli Paşa oğlu Kərimov) 1931-ci il martın 18-də Göyçay şəhərində dünyaya göz açmışdı. Atası Paşa kişi fəhlə işləmiş, ailəsini alın təri ilə dolandırmışdı. Yeniyetməliyindən ədəbiyyata maraq göstərən Əli kiçik yaşlarından şeir yazmağa başlamışdı. Onun "Təzə müəllim" adlı ilk şeiri 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdu.

Orta təhsilini uğurla başa vurduqdan sonra 1948-ci ildə Əli Kərim Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə qəbul olub. Amma bu ali təhsil ocağında tələbələr üçün yataqxana olmadığına görə Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Teatrşünaslıq fakültəsinə keçmək məcburiyyətində qalıb. III kursdan sonra təhsilini Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda davam etdirib. Bununla onun qarşısında həmişə arzusunda olduğu ədəbiyyat dünyasına qapı açılıb. 1955-ci ildə institutu fərqlənmə diplomu ilə bitirərək ürəyində tumurcuqlayan arzularla doğma vətənə qayıdıb, "Azərbaycan" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri işləyib. Və beləliklə, Əli Kərimin yaradıcılığının və həyatının ən gözəl dövrü başlayıb.

Ədəbiyyata özünəməxsus üslubu, fərqli deyim tərzi ilə gəlmiş Əli Kərim ilk şeirlərindən başlayaraq, istedadı ilə seçilmişdir. Təsadüfi deyil ki, 1957-ci ildə onun Moskvada keçirilən tələbələrin VI Ümumdünya Festivalında "İlk simfoniya" poeması mükafata layiq görülmüşdür. Şairin ilk kitabı da 1958-ci ildə Azərbaycan ədəbiyyatı dekadası münasibətilə Moskvada rusca çıxan "İki sevgili" əsəri olmuşdur.

Əli Kərimin yazdığı şeirlər elə ilk misralarından oxucuların diqqətini özünə cəlb edir. Şeirlərindəki axıcılıq, sözlərindəki dərin məna çalarları şeirsevərləri sehirləyir. Buna görə də "Babəkin qolları", "Atamın xatirəsi", "Metronun yaylı qapıları", "Gəl, Azərim", "Habil", "Van-Qoqun günəşi", "Kürə yağış yağırdı", "Daş", "Həmişə səfərdə", "Bəzən haqq qazanır insan öləndə", "Analar ağlar", "Xirosimada məktəbsiz uşaq", "Şəhidliyin zirvəsi", "Qayıt", "Nə xoşbəxt imişəm bir zaman, Allah" və onlarla başqa şeirləri indi də sevə-sevə oxunur.

Görkəmli şairin şeirlərində məqamında işlənmiş təsvirlər, bənzətmələr, rənglər, naxışlar ahənrüba kimi oxucunu özünə çəkir. Ona görə də Əli Kərimin şeirlərini oxuyanda sanki dünyanın ən məşhur rəssamının çəkdiyi tabloya, bu tablodakı gözəl mənzərəyə baxırsan. Bir anlıq özünü təbiətin qoynunda hiss edirsən.

Əli Kərimin sevilən şeirlərdən biri də "Qayıt"dır. Bu şeir yazıldığı andan bu günəcən sevilə-sevilə oxunur. Bu şeirin sözlərinə bəstələnmiş mahnını isə adam dinləməkdən bezmir.

*Həsrətin araya atdı dağ, dərə,*
*Sönən işıq oldun, batan səs oldun.*
*Qayıt, mənim gülüm, qayıt bu yerə*
*Ey mənim istəyim, nə gəlməz oldun.*

*Ümidlər, arzular pərən-pərəndir,*
*Qəlbə təsəllidir xatirələrim.*
*Bir halımı soruş, könlümü dindir,*
*Axşamlar yadıma düşür səhərim.*

*Qayıt, mənim gülüm, yerbəyer elə*
*Dərdli səhərləri, gecələri sən.*
*Çaşıb başqa yolla keçirəm elə,*
*Düz öz qaydasınca küçələri sən.*

*Qayıt, yerinə qoy Ayı, Günəşi -*
*Yenə olduğutək görüm həyatı.*
*Qayıt, gözüm nuru, könlüm atəşi,*
*Qayıt, sahmana sal bu kainatı!*

Görkəmli şairlər, yazıçılar və ədəbiyyatşünaslar da zaman-zaman Əli Kərimin yaradıcılığına yüksək dəyər vermişlər. Rəsul Rza onun yaradıcılığından bəhs edərək yazmışdır: "Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığını təkrarlaya-təkrarlaya qalxır. Şair də var ki, öz-özü ilə yarışda, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndi". Professor Tofiq Hacıyev isə şairin yaradıcılığı haqqında demişdir: "Ə.Kərimin ömrü, öz şair sözü kimi poeziyada atributa çevrildi. Bu gün onun üslubunu, deyim tərzini, söz-obrazlarını davam etdirən şairlər var. Əli Kərim mövzu məhdudluğu bilməyib, mövzu əlvanlığı, həm də seçilmiş mövzunu orijinal işləmə tərzi onun yaradıcılığını səciyyələndirən cəhətləndəndir. Mövzuların bir qismi yalnız onun özünə məxsusdur, yəni onları o görüb, o mənalandırıb: "Babəkin qolları"nda məşhur Babək bir yanda qalır, onun kəsilmiş - Babəki xalq qəhrəmanı edən qolları qəhrəman seçilir; "Heykəl və heykəlin qardaşı" poeması da həmin prinsiplə yazılmışdır - qəhrəmanın özü yox, heykəlidir. "Gül və çörək", "Sevirəm", "Bomba üstündə ev", "Çiçəklər iclasda" kimi şeirlərdə də vəziyyət eynidir, bu əsərlərdə mövzu orijinallığı ideya-məzmun orijinallığı ilə, poetik forma yenilikləri ilə uyğun gəlir".

Şairin "İki sevgi", "Həmişə səfərdə", "Qızıl qanad", "Qaytar ana borcunu", "Uşaqlar və ulduzlar", "Səfərdən sonra", "Pillələr", "Gül və çörək", "Seçilmiş əsərləri", "Qayıt" , "Mavi nəğmənin sahilində", "Neyləyim, şeirlə dərd söyləyirəm" və başqa kitabları işıq üzü görmüşdür. Amma Əli Kərimin özü haqqında ölümündən sonra müxtəlif illərdə bir-birindən dəyərli kitablar yazılmışdır. Feyzi Mustafayevin "Dinmə, ey kədər", Elza Kərimin "Nə xoşbəxt imişəm", Altay Məmmədovun "Tanıdığım Əli Kərim" xatirələr kitabları dövründə oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Yalnız xatirə kitabları deyil, şairin bədii yaradıcılığının tədqiqinə həsr edilmiş onlarla monoqrafiya və məqalələr də yazılmışdır. Tənqidçi Cavanşir Yusiflinin "Azərbaycan poeziyasında Əli Kərim mərhələsi", "Əli Kərim üslubu, yaxud fərdi yaradıcılıqdan ədəbiyyat tarixinə baxış", Sona Xəyalın "Əli Kərim" və başqa monoqrafiya və məqalələrdə Əli Kərimin yaradıcılığından ətraflı bəhs olunur. Oqtay Kazımi, Adil Gəray və başqa bəstəkarlar isə Əli Kərimin sözlərinə onlarla mahnılar bəstələyiblər. "Yar gəldi", "Azərbaycanım mənim", "Nə gəlməz oldun" və başqa mahnıları xalqımız uzun illərdir ki, tanınmış müğənnilərin ifasında sevə-sevə dinləyir.

Əli Kərim 1969-cu il iyunun 30-da 38 yaşında dünyasını dəyişmiş, Göyçay şəhərində dəfn edilmişdir. Dəfn edildiyi yerdə şairin adını daşıyan park salınmışdır. Uzun illərdir ki, Sumqayıt şəhərində Əli Kərim poeziya klubu fəaliyyət göstərir. Bunlar o deməkdir ki, Azərbaycan xalqı şair oğlunu unutmur, daim ehtiramla yad edir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycan kinosunun yaddaşlarda yaşayan siması - Nodar Şaşıqoğlu

**Azərbaycan tamaşaçıları onu daha çox "Uzaq sahillərdə" filmində oynadığı "Mixaylo" obrazı ilə yadda saxlayıb. Rejissor Tofiq Tağızadənin ekranlaşdırdığı bu filmdə Nodar Şaşıqoğlu Azərbaycan xalqının igid oğlu, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə "Mixaylo" rolunun öhdəsindən məharətlə gəlib.**



Xalq artisti, görkəmli teatr və kino aktyoru Nodar Şaşıqoğlunun anadan olmasından 99 il ötür.

"Mosfilm", "Odessa" və Aleksandr Dovjenko adına kinostudiyalarda istehsal olunmuş müxtəlif filmlərdə aparıcı rolları ifa edən Nodar Şaşıqoğlunun yaradıcılığında "Azərbaycanfilm" kinostudiyasında yaratdığı obrazlar xüsusi yer tutur. Aktyorun çəkildiyi çox sayda filmdə məharətlə canlandırdığı surətlər kinematoqrafiya tarixinin parlaq səhifələrini təşkil edir. Nodar Şaşıqoğlu yüksək əxlaqi-mənəvi keyfiyyətlər təlqin edən romantik xarakterli qəhrəmanların obrazlarının mahir ifaçısı kimi tanınırdı. Azərbaycan kinosunun unudulmaz qəhrəmanlarının uğurlu ekran həyatı məhz onun bənzərsiz ifası ilə bağlıdır. Misilsiz ustalıqla yaradılan həmin obrazlar sənətşünaslar tərəfindən həmişə yüksək qiymətə layiq görülüb. Nodar Şaşıqoğlunun yarım əsrdən artıq bir dövrü əhatə edən bu dolğun və zəngin fəaliyyəti gənc aktyorlar nəsli üçün sənət məktəbi olub.

Görkəmli kinorejissor Tofiq Tağızadə teatr səhnəsində aktyorun bacarığını görüb "Uzaq sahillərdə" filmində Mehdi Hüseynzadə roluna dəvət edib. Nodar Şaşıqoğlu müsahibələrində bildirir: "O vaxt adım afişalarda "Nodar Şaşıq" kimi yazılırdı. Rejissorla tanış olanda təsadüfən özümü Nodar Şaşıqoğlu kimi təqdim etdim. Elə o vaxtdan da bu soyad rəsmiləşdi".

Nodar Şaşıqoğlunun kino və teatr sənətinin inkişafı sahəsindəki xidmətləri Azərbaycanda yüksək qiymətləndirilib. O, 1982-ci ildə Azərbaycanın Xalq artisti fəxri adına layiq görülüb, 2007-ci ildə isə müstəqil Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilib.

O, 2013-cü il aprelin 12-də Bakıda vəfat edib.

# Milli Kitabxanada "Əməkdar incəsənət xadimi Zakir Bağırov - 110" adlı sərgi açılıb

**Martın 13-də Milli Kitabxanada görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi, professor Zakir Bağırovun anadan olmasının 110 illiyi münasibətilə "Əməkdar incəsənət xadimi Zakir Bağırov - 110" adlı kitab sərgisi istifadəçilərə təqdim olunub.**



Sərgidə bəstəkarın operaları, operettaları, süitaları, kamera-instrumental əsərləri, mahnıları, romansları və s. əsərləri, həyatı və yaradıcılığı haqqında ədəbiyyatlar nümayiş olunur.

# Dünyasını dəyişən ustadın yaradıcılığı yaşayır



**Daim arzu etmişəm ki, Vaqif İbrahimoğlunun yaratdığı "Yuğ" teatrında onun tərəfindən səhnələşdirilən tamaşa olsun. Bütün teatrlarda bu cür nümunələr var. Vaqif İbrahimoğlunun yaradıcılığının nümunəsi qismində onun tamaşasının teatrımızın repertuarında olması bizim üçün çox vacibdir.**

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində Azərbaycan Dövlət "Yuğ" teatrının rejissoru Günay Səttar bildirib. O, Anton Pavloviç Çexovun "Albalı bağı" pyesi əsasında "Birinci akt" tamaşasına quruluş verib. Bərpa olunmuş tamaşanın premyerası bu yaxınlarda baş tutub.

"Ustadımız artıq aramızda yoxdur, amma tamaşaçılar onun yaradıcılığı ilə tanış ola bilərlər. "Birinci akt" Vaqif İbrahimoğlunun son əsəridir və mən onun ikinci rejissoru qismində çalışmışam. Bu tamaşanı bərpa etmək mənim vəzifəm idi. Onun üzərində məmnuniyyətlə çalışdım. Bu prosesə qayıtmağı özüm üçün şərəf hesab edirəm. Bunu bacardığımız üçün qürur hissi keçirirəm. Bu, mənim kiçik töhfəmdir. Mənə həvalə olunmuş vəzifəni yerinə yetirməyə çalışdım. Müəllimim dediyi və o vaxt müzakirə etdiyimiz hər şeyi çatdırmağa səy göstərdim. Ümidvaram ki, buna nail oldum", - deyə Günay Səttar vurğulayıb.

"Birinci akt" "Yuğ" teatrının yaradıcısı Vaqif İbrahimoğlunun quruluş verdiyi son tamaşalardan biridir. O, 2009-cu ildə səhnələşdirilib və tənqidçilər tərəfindən yüksək qiymət alıb. Kollektiv ustadın xatirəsinə hörmət əlaməti olaraq tamaşanı bərpa edib.

Tamaşanın quruluşçu rejissoru Vaqif İbrahimoğlu, rejissoru Günay Səttar, quruluşçu rəssamı Rəşid Şərif, rəssamı Umay Həsənova, rejissor köməkçisi Günel Səfərovadır. Rolları Təranə Ocaqverdiyeva, Nigar Mürsəl, Ləman Marrix, Amid Qasımov, Elgün Həmidov, Elşən Əsgərov, Rahib Allahquliyev, Oqtay Mehdiyev, Əbdülqəni Əliyev, Günəş Tegin, Murad Fərzəliyev ifa ediblər.

"Birinci akt" tamaşasında Pyotr Çaykovskinin "Fəsillər" fortepiano silsiləsindən "May", "Oktyabr" və "Dekabr" partiyalarından istifadə olunub.

"Yuğ" teatrının yaradıcısı 2011-ci ildə dünyasını dəyişib.

# Türk dünyasının zəngin mədəniyyətini tərənnüm edən konsert proqramı

**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında türk dünyasının zəngin mədəniyyətini tərənnüm edən konsert proqramı təqdim olunub.**



Gecədə Fikrət Əmirov adına Əməkdar kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (direktor-baş dirijor Mustafa Aşurov) rəqs qrupu (baletmeyster Ceyhun Qubadov), həmçinin müxtəlif türk respublikalarının unikal musiqi irsini təmsil edən tanınmış solistlər çıxış ediblər.

Proqramda türk xalqlarının milli kimliyini əks etdirən alovlu rəqslər, duyğulu mahnılar və ortaq türk dünyasının sarsılmaz birliyini nümayiş etdirən folklor nümunələri səsləndirilib.

# "ECOLEAD" layihəsi çərçivəsində ağacəkmə aksiyası

**"Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar paytaxtın Suraxanı rayonunda "ECOLEAD" layihəsi çərçivəsində ağacəkmə aksiyası keçirilib.**



Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, aksiya zamanı baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları, habelə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin Yaşıllaşdırma Təsərrüfatı Birliyinin, Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin rəhbər heyəti və əməkdaşlarının iştirakı ilə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 200-dən çox ağac əkilib. Məlumat üçün qeyd edək ki, 2024-cü ildə Baş Prokurorluğun təşəbbüsü əsasında icrasına başlanılan "ECOLEAD" layihəsi çərçivəsində hazırkı vaxtadək Bakı şəhərinin Suraxanı, Nəsimi, Binəqədi, Yasamal və Xətai rayonları ərazisində ümumilikdə 10 hektar ərazidə 2200-dən çox ağac əkilib.

Hazırda Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən birgə həyata keçirilən "ECOLEAD" layihəsindən irəli gələn məqsədlərin gələcəkdə də icrası nəzərdə tutulur.

# Şəki və Qəbələdə 1500-ə yaxın ağac əkilib

**Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində növbəti aksiyaları Şəki və Qəbələ rayonlarında təşkil edilib.**



IDEA İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, aksiyalar IDEA könüllülərinin iştirakı ilə Qəbələ rayonunun Xırxatala kəndində və Şəki rayonunun Turan qəsəbəsində keçirilib. Tədbir çərçivəsində ümumilikdə 1500-ə yaxın ağac əkilib. Əkilən ağaclar arasında Eldar şamı, çinar və sidr kimi növlər yer alıb. Qeyd olunub ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun - "Yaşıl marafon"un əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

Bildirilib ki, "Yaşıl marafon" çərçivəsində ötən ilin payız və 2026-cı ilin yaz əkin mövsümlərini əhatə edən ağacəkmə aksiyaları zamanı ölkə üzrə ümumilikdə iki milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

## RƏQƏMSAL DÜNYA

### Avtomobildə "PlayStation"



**"Sony Honda Mobility" şirkəti ilk elektrik avtomobili olan "Afeela" modeli ilə avtomobildə oyun təcrübəsini yeni səviyyəyə çıxarmağı planlaşdırır.**

Elektromobil "PlayStation Remote Play" funksiyasını dəstəkləyəcək. Bu funksiya istifadəçilərə "PS5" və "PS4" konsollarını avtomobilin multimedia ekranı vasitəsilə uzaqdan oynamağa imkan verəcək.

Sistem xüsusilə uzun səfərlər edən, tıxaclarda çox vaxt keçirən sərnişinlər üçün nəzərdə tutulub. Avtomobil park vəziyyətində olduqda sürücü, hərəkət zamanı isə sərnişinlər oyunları davam etdirə biləcəklər. "Afeela" modelinin ilk təhvil-təslimi 2026-cı ilin sonuna planlaşdırılır.

### Qatlana bilən "iPhone"

**"Apple" şirkəti ilk qatlana bilən "iPhone" modeli üçün "Samsung" şirkətindən 12 GB LPDDR5X RAM alacaq.**



Süni intellekt serverlərinə artan tələbat səbəbindən qlobal yaddaş çatışmazlığı yaranıb və bu da qiymətlərin artmasına səbəb olub. Məsələn, 12 GB LPDDR5X modulunun qiyməti 2025-ci ilin əvvəlində təxminən 30 dollar olduğu halda, 2026-cı ilin əvvəlində 70 dollara qədər yüksəlib.

Yeni qatlana bilən "iPhone" modelinin "iPhone" və "iPad" arasında bir cihaz kimi fəaliyyət göstərəcəyi gözlənilir. Cihaz bağlı vəziyyətdə adi "iPhone" kimi görünəcək, açıldıqda isə "iPad" mini ölçüsünə yaxın olacaq.

Cihazın "iPhone 18 Pro" və "iPhone 18 Pro Max" modelləri ilə birlikdə sentyabrda təqdim ediləcəyi gözlənilir.

### Ev heyvanları üçün smartfon



**Ev heyvanları üçün ilk smartfon hazırlanıb. "PetPhone" adlı cihaz it və ya pişik ilə sahibi arasında ikitərəfli ünsiyyəti təmin edir. Yaşıl və ya çəhrayı rənglərdə təqdim olunan kiçik cihaz ev heyvanının yaxalığına bərkidilir.**

Cihaz kameraya qoşulur və xüsusi təlim keçmiş süni intellekt sayəsində ev heyvanının yerinin GPS vasitəsilə izlənməsi, eləcə də sağlamlıq vəziyyətinin monitorinqi kimi funksiyalar təqdim edir. Sahibi öz telefonundan cihaza zəng edə və ev heyvanının səsini eşitməsinə imkan verə bilər. Bu xüsusiyyət, məsələn, fırtına zamanı heyvanı sakitləşdirmək və ya sadəcə qısa bir salam göndərmək üçün istifadə oluna bilər.

Cihaz həmçinin zənglərin avtomatik başladılmasını da mümkün edir. Bununla ev heyvanına müəyyən hərəkətlər öyrədilə bilər. Məsələn, sensorlar 6 saniyə ərzində üç tullanma aşkar etdikdə, cihaz avtomatik olaraq telefon zəngi başladır.

"PetPhone"da şəbəkə bağlantısı üçün SIM kart istifadə olunmur. Bunun əvəzinə, cihaz bulud infrastrukturu vasitəsilə işləyir və dünyanın 200-dən çox ölkəsində fəaliyyət göstərən 390 mobil operatorla bağlanmış müqavilələr sayəsində əlaqə yaradır.

### "YouTube" yeni mesajlaşma funksiyasını sınaqdan keçirir

**"YouTube" birbaşa mesajlaşma funksiyasını yenidən sınaqdan keçirməyə başlayıb. Platforma artıq istifadəçilərə bir-birlərinə birbaşa mesaj göndərməyə imkan yaradır. Şirkət bu funksiyanı ilk dəfə 2025-ci ilin noyabr ayında məhdud şəkildə sınaqdan keçirmişdi və o zaman yalnız İrlandiya və Polşadakı istifadəçilər istifadə edə bilirdi.**

2026-cı il martın 3-də təqdim edilən yeniləmə ilə funksiyanın əhatə dairəsi genişləndirilib. O artıq Avropanın 31 ölkəsində sınaqdan keçirilir. Siyahıya Avstriya, Belçika, Almaniya, Yunanıstan, Fransa və İtaliya kimi ölkələr daxildir.

Mesajlaşma funksiyasından istifadə etmək üçün istifadəçilər 18 yaşdan yuxarı olduqlarını təsdiqləməlidirlər. Bu proses üçün "Google" süni intellektlə işləyən yaş təsdiqləmə sistemindən istifadə edir və bəzi hallarda istifadəçinin izləmə vərdişlərini də analiz edir. Yeni sistem videoların dostlarla paylaşılmasını asanlaşdırmaq məqsədi daşıyır. İstifadəçilər artıq videoları link kopyalamadan birbaşa mesaj vasitəsilə göndərə bilirlər.

Yeni funksiya "YouTube Premium" və "YouTube Premium Lite" abunəliyi ilə bağlı deyil və istifadəyə verildiyi ölkələrdə bütün istifadəçilər üçün əlçatandır.

***Hazırladı:***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

*- Mağazadan ütü almışam, lakin işləməsində müəyyən problemlər var. Ütünü yenisi ilə dəyişdirmək üçün mağazaya getsəm də, onu dəyişmədilər. Mağazanın satıcısı dedi ki, alınan mallar nə qaytarılır, nə də ki dəyişdirilir. Bu barədə divara vurulmuş məlumatı da mənə göstərdi. Bu düzgündür?*

***Könül QASIMOVA,***
***Xırdalan şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 7-ci maddəsinin 1-ci hissəsinə əsasən, istehlakçı müqavilə və ya digər qaydalarla müəyyən olunmuş zəmanət müddəti ərzində aldığı malda qüsur və ya saxtalaşdırma aşkar edərsə, öz istəyinə görə satıcıdan və ya istehsalçıdan aşağıdakıları tələb etmək hüququna malikdir:

*- lazımi keyfiyyətli mala dəyişdirməyi;*
*- satış qiymətini uyğun məbləğdə azaltmağı;*
*- malın qüsurlarının icraçının (satıcının, istehlakçının) hesabına aradan qaldırılmasını və ya qüsurların aradan qaldırılması üçün istehlakçının və ya üçüncü şəxslərin çəkdiyi xərclərin əvəzinin ödənilməsini;*
*- malın, həmin mala uyğun digər modelli (markalı, tipli və i. a.) mal ilə, dəyəri yenidən hesablanma şərti ilə əvəz edilməsini;*
*- müqavilənin ləğv edilməsini və çəkdiyi zərərin ödənilməsini.*

Həmçinin qanunun 7-ci maddəsinin 2-ci hissəsinin tələbinə görə, satıcı (icraçı) istehlakçıdan lazımi keyfiyyəti olmayan malı geri götürməyə və bu maddənin birinci bəndində göstərilən istehlakçının tələblərindən birini yerinə yetirməyə borcludur.

İstehlakçının malı dəyişmək tələbi mal olduqda dərhal yerinə yetirilməli, zərurət olduqda onun keyfiyyəti müvafiq tələb verilən andan 14 gün müddətində yoxlanılmalı və ya tərəflər arasında razılaşdırılmış müddət ərzində dəyişdirilməlidir. İstehlakçının malı dəyişdirmək tələbi, mal olmadıqda müvafiq ərizənin verildiyi andan 2 ay müddətində ödənilməlidir. Göstərilən müddət ərzində malı dəyişdirmək mümkün olmadıqda, istehlakçı satıcı (istehsalçı) qarşısında "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 7-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan tələblərdən hər hansı birinin yerinə yetirilməsini irəli sürə bilər.

Bundan başqa, qanunun 10-cu maddəsinin 6-cı hissəsinə əsasən, malların (işlərin, xidmətlərin) geri qaytarılması ilə əlaqədar istehlakçıya dəyən zərəri istehsalçı (icraçı) tam həcmdə ödəməlidir.

Beləliklə, aldığınız məhsulda qüsur halı mövcuddursa, o zaman onu istehlakçıya qaytarmaqla yuxarıda qeyd olunan tələb hüquqlarınızdan istifadə edə bilərsiniz. Əgər istehlakçı tələbinizi yerinə yetirməkdən imtina edərsə, o zaman müvafiq məhkəməyə iddia ərizəsi ilə müraciət etməyiniz tövsiyə olunur.

*- Bir nəfərin dostuma böyük məbləğdə borcu var. Borcu qaytara bilmədiyi üçün əvəzində torpaq sahəsi vermək istəyir. Dostum isə hazırda başqa ölkədədir və həmin torpağın mənim adıma keçirilməsini istəyir. Bu mümkündürmü və bunu qanuni şəkildə necə həyata keçirmək olar?*

***Fərqan OSMANLI,***
***Qobustan rayonu***

- Sualınıza cavab olaraq bildiririk ki, bəli, bu hüquqi cəhətdən mümkündür. Belə ki, mülki münasibətlərdən dolayı yaranmış borcun tərəflərin (borc verən və borc alan) razılaşmasına uyğun olaraq, əvəzləşdirilməsi həyata keçirilə bilər. Bu əvəzləşmə adətən borcun qaytarılması üçün nəzərdə tutulan müddətin başa çatmasından sonra baş verir. Lakin nəzərə alınmalıdır ki, tələbin əvəzləşdirilməsi icra müddətinin hələ çatmadığı, lakin bu tələbə hüququ olan tərəfin əvəzləşdirməyə tərəfdar olduğu halda da həyata keçirilir.

Tələbin əvəzləşdirilməsi bu barədə digər tərəfə məlumat verməklə həyata keçirilir, məlumat hər hansı şərtlə və ya müddətin müəyyənləşdirilməsi ilə bağlı olduqda etibarsız sayılır.

Burada borc münasibətlərinin rəsmi və qeyri-rəsmi olaraq yaranmasına xüsusi diqqət ayırmaq lazımdır. Çünki rəsmi olaraq verilmiş borc üzrə tələbin əvəzləşdirilməsi proseduru, qeyri-rəsmi olaraq verilmiş borc tələbi üzrə fərqli xüsusiyyətlərə malik ola bilər. Qeyri-rəsmi verilmiş borc münasibətilə bağlı tələbin əvəzləşdirilməsi müvafiq bağışlama və ya alqı-satqı yolu ilə mümkündür.

Suala uyğun olaraq tərəflər aralarında mövcud olan borc münasibətlərindən dolayı yaranmış borcu digər əmlakla (torpaq sahəsi və s.) əvəzləşdirə bilərlər. Belə olan halda borcalan mülkiyyət hüququ ilə ona məxsus olan torpaq sahəsini borcverənin mülkiyyətinə keçməsinə razılıq ifadə etməli, borcverən isə həmin torpaq sahəsinin onun mülkiyyətinə keçməsinə razılıq verməlidir.

Dostunuzun xarici ölkədə olması bu hüququndan istifadə etməsinə maneə deyil. Belə ki, o, Sizə və başqa şəxsə müvafiq olaraq müəyyən hüquqların verilməsini (ötürülməsini) özündə əks etdirən etibarnamə verməklə bu hüququnu rahat şəkildə həyata keçirə bilər. Belə olan halda Siz və digər şəxs verilmiş etibarnamə əsasında dostunuzun adından çıxış edirsiniz və onun adından torpaq sahəsinin dostunuzun mülkiyyətinə keçməsinə razılıq verirsiniz.

Dostunuzun razılığı əsasında Siz həmin torpaq sahəsinin öz mülkiyyətinizə keçməsini də həyata keçirə bilərsiniz. Bunun üçün ilkin olaraq borclu şəxslə dostunuz, daha sonra Sizinlə dostunuz arasında müvafiq razılaşma olmalıdır. Belə olan halda borclu şəxs tərəfindən mülkiyyətində olan torpaq sahəsinin Sizin adınıza keçməsinə, Sizin isə həmin torpaq sahəsini mülkiyyətinizə keçməsinə razılıq verməniz başlıca şərtdir.

**Sualları cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Mahir Süleymanlıya əzizi

**RƏHMAN SÜLEYMANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini Anar Kərimova əzizi

**ETİBAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Mahir Süleymanlıya əzizi

**RƏHMAN SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Aparatın əməkdaşı Elnarə Kazımovaya anası

**ALMAZ AYDINOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Arxeologiya və Antropologiya İnstitutunun kollektivi institutun baş elmi işçisi, tarix elmləri doktoru, professor

**FƏZAİL İMRAN OĞLU VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3374
Sifariş 347

Qiyməti 60 qəpik